

NƏ QƏDƏR Kİ MÜSTƏQİL AZƏRBAYCAN DÖVLƏTİ VAR, AZƏRBAYCAN XALQI VAR, HEYDƏR ƏLİYEV ÜRƏKLƏRDƏ YAŞAYACAQDIR!


VAHİD AZƏRBAYCAN UĞRUNDA!

# iki sahil

www.ikisahil.az / www.ikisahil.tv

GÜNDƏLİK İCTİMAİ-SİYASİ QƏZET № 69 (7324) / Cümə axşamı, 18 aprel 2019-cu il


# Cənab Prezidentdən teatrların inkişafına növbəti dəstək



Prezident İlham Əliyev Azərbaycan teatrlarının inkişafı ilə bağlı tədbirlərin davam etdirilməsi haqqında Sərəncam imzalayıb.

Sərəncamda qeyd olunur ki, Azərbaycan teatr ənənələrinin qorunub saxlanılması və dövrün tələblərinə uyğun inkişafı ilə bağlı tədbirlərin davam etdirilməsi üçün Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Mədəniyyət Nazirliyinə 1,2 milyon manat, o cümlədən Azərbaycan Dövlət "Yuğ" Teatrı, Azərbaycan Dövlət Pantomima Teatrı, Cəfər Cabbarlı adına İrəvan Dövlət Azərbaycan Dram Teatrı, Şəki Dövlət Dram Teatrı, Ağdam Dövlət Dram Teatrı, Füzuli Dövlət Dram Teatrı, Qazax Dövlət Dram Teatrı, Qusar Dövlət Ləzgi Dram Teatrı, Qax rayonu Gürcü Dövlət Dram Teatrı, Gəncə Dövlət Kukla Teatrı, Qax Dövlət Kukla Teatrı və Salyan Dövlət Kukla Teatrının hər birinə 100 min manat ayrılsın.

Maliyyə Nazirliyinə sərəncamda göstərilən məbləğdə maliyyələşməni təmin etmək tapşırılıb.

⇧ Bax: səh. 3



## "Şahdağ. Dağların şahı" sənədli filminin təqdimatı olub

*Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva tədbirdə iştirak edib.*

## Texniki yardım sahəsində əməkdaşlığa dair Saziş imzalanıb



⇨ Bax: səh. 4

⇧ Bax: səh. 4



*Allahşükür Paşazadə:*

## Prezident İlham Əliyevin sayəsində nail olduğumuz hər bir uğur tarixi hadisəyə çevrilir

⇧ Bax: səh. 5




## Tariximizin xanlıqlar dövrünün qiymətləndirilməsinə və siyasi təhlilinə dair fundamental əsər

⇧ Bax: səh. 9

TANAP

## TANAP vasitəsilə Avropaya qaz nəqlində son mərhələyə start verildi


4 515 min ton dizel yanacağı istehsal olunub

7 "Star" neft emalı zavodu daha bir mükafat qazanıb

24 Uşağa hansı genetik xüsusiyyətlər ötürülür?

## Qusarda avtomobil yolunun tikintisinə 3 milyon manat ayrılıb

Prezident İlham Əliyev Qusar rayonunun Cibir-Həzrə-Mucuq-Sudur avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.

Sərəncama əsasən, səkkiz min nəfər əhalinin yaşadığı 14 yaşayış məntəqəsini birləşdirən Cibir-Həzrə-Mucuq-Sudur avtomobil yolunun tikintisi məqsədilə Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ilkin olaraq 3,0 (üç) milyon manat ayrılır.

Maliyyə Nazirliyi göstərilən məbləğdə maliyyələşməni təmin etməli, İqtisadiyyat Nazirliyi Azərbaycan Respublikasının dövlət büdcəsi layihəsində dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə bu sərəncamın 1-ci hissəsində göstərilən avtomobil yolunun tikintisinin başa çatdırılması üçün zəruri olan maliyyə vəsaitini nəzərdə tutmalı, Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etməlidir.

## Şirvanda su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulmasına dair Sərəncam

Prezident İlham Əliyev Şirvan şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.

Sərəncamda qeyd olunur ki, Şirvan şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması işlərinin davam etdirilməsi məqsədilə Azərbaycan Prezidentinin 2019-cu il 15 yanvar tarixli 890 nömrəli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində digər layihələr üzrə dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.7.7-ci yarımbəndində göstərilmiş məbləğin 4 milyon manatı "Azərsu" Açıq Səhmdar Cəmiyyətinə ayrılsın.

Maliyyə Nazirliyinə bu sərəncamda göstərilən məbləğdə maliyyələşməni təmin etmək, Nazirlər Kabinetinə bu sərəncamdan irəli gələn məsələləri həll etmək tapşırılıb.

## Sumqayıt Şəhər Məhkəməsinin hakiminin səlahiyyətlərinə vaxtından əvvəl xitam verilib

Prezident İlham Əliyev Sumqayıt Şəhər Məhkəməsinin hakimi İlyas Mahmudovun səlahiyyətlərinə vaxtından əvvəl xitam verilməsi haqqında Sərəncam imzalayıb.

Sərəncamda qeyd olunur ki, qanunvericiliyin tələblərini dəfələrlə kobudcasına pozduğuna görə Sumqayıt Şəhər Məhkəməsinin hakimi İlyas Musa oğlu Mahmudovun səlahiyyətlərinə vaxtından əvvəl xitam verilsin.

## Vidadi İsayev ordenlə təltif edilib

Prezident İlham Əliyev Vidadi İsayevin 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb.

Sərəncamda qeyd edilir ki, Azərbaycan Respublikasının ictimai-siyasi həyatında fəal iştirakına görə Vidadi İsa oğlu İsayev 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilsin.

## DTX-nin səlahiyyətləri artırıldı

Prezident İlham Əliyev "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2019-cu il 29 mart tarixli 1537-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar Fərman imzalayıb.

Trend-in məlumatına görə, həmin qanunla Cinayət Məcəlləsinə "Telekommunikasiya şəbəkəsinə qoşulmaqla qanunsuz beynəlxalq telekommunikasiya xidmətlərinin təşkili"nə (maddə 233-4) görə cinayət məsuliyyəti nəzərdə tutan maddə əlavə edilib.

Belə ki, telekommunikasiya operatorunun və ya provayderinin telekommunikasiya şəbəkəsinə müvafiq qurğu vasitəsilə qoşulmaqla qanunsuz beynəlxalq telekommunikasiya xidmətlərinin təşkil edilməsi əhəmiyyətli zərər vurulmasına səbəb olduqda cinayət nəticəsində vurulmuş ziyanın iki mislinədək miqdarda cərimə və ya iki ilədək müddətə islah işləri və ya iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya iki ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır.

Prezidentin fərmanına əsasən, telekommunikasiya sahəsində qeyd olunan cinayət əməllərinin istintaqı Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) səlahiyyətlərinə daxil edilib.

Məlum olduğu kimi, günümüzdə ümumi cinayətlərin sırasında informasiya texnologiyalarından istifadə edilməklə törədilən cinayətlərin payı artmaqdadır. Son illər Azərbaycan banklarına qarşı kibercinayətlər törədən çoxsaylı xarici vətəndaşlar DTX tərəfindən müəyyən edilərək Azərbaycana ekstradisiya olunub. Hazırkı dəyişikliklər isə telekommunikasiya sahəsində artan cinayətlərin qarşısının alınmasına yönəlib.

# Azərbaycan Çinin Cənubi Qafqazda ən böyük ticarət tərəfdaşıdır

## Azərbaycan Prezidenti İlham Əliyev Çinin Sinxua agentliyinə müsahibə verib

**Aprelin 17-də Çinin Sinxua agentliyi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müsahibəsini dərc edib.**

AZƏRTAC müsahibəni təqdim edir.

*-Ötən il Azərbaycan ilə Çin arasında diplomatik münasibətlərin qurulmasının 26-cı ildönümü qeyd edilib. Cənab Prezident, Siz Azərbaycan-Çin münasibətlərinin hazırkı vəziyyətinə dair nə deyə bilərsiniz? Azərbaycanın xarici siyasətində Çinlə bağlı mövqeyi nəcədir?*

-1994-cü ildə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Çinə səfər etdi və həmin səfər ölkələrimiz arasında ikitərəfli münasibətlərin təməlini qoydu. Həmin vaxtdan bizim əlaqələrimiz çox uğurla inkişaf edir. Azərbaycan və Çin dost ölkələrdir. Mənim Çinə 2005-ci ildəki rəsmi və 2015-ci ildəki dövlət səfərlərim ikitərəfli münasibətlərimizi inkişaf etdirmək və dərinləşdirməklə yanaşı, birgə iradəmizi bir daha təsdiq etdi.

Fəal siyasi təmaslarımız mövcuddur. Eyni zamanda, iqtisadiyyat sahəsində də fəal əməkdaşlığımız var. Azərbaycan Çinin təşəbbüsünə qoşularaq, Asiya İnfrastruktur İnvestisiya Bankının həmtəsisçisi olub. Bir sıra Çin şirkətləri Azərbaycanda uğurla fəaliyyət göstərir və biz daha çox Çin şirkətlərini ölkəmizdə investor, ticarətçi və podratçı qismində görmək istəyirik. Azərbaycanda çox münbit sərmayə mühiti olduğundan biz sənaye istehsalı, informasiya texnologiyaları, kənd təsərrüfatı və bir sıra digər sahələrdə daha çox Çin şirkətlərini görməyə ümid edirik.

Azərbaycan ilə Çin arasında ticarət dövriyyəsində müsbət dinamika mövcuddur. Bizim ticarət dövriyyəmiz 1,3 milyard dollar təşkil edir. Çindən idxal 40 faiz artıb. Azərbaycan Çinin Cənubi Qafqazda ən böyük ticarət tərəfdaşıdır. Ölkəmizin Çində ticarət nümayəndəliyi fəaliyyət göstərir. Bununla yanaşı, Urumçi, Luco və Şanxayda Azərbaycanın Ticarət evləri açılmışdır. Azərbaycan Çinin müxtəlif bölgələrinə ticarət missiyaları təşkil edir. Çin şirkətləri Azərbaycanda sənaye layihələrinin reallaşdırılmasında iştirak edirlər. Çinin İKT şirkətləri də ölkəmizdə uğurla fəaliyyət göstərirlər.



Humanitar sahədə əməkdaşlığımızın yaxşılaşdırılması münasibətlərimizin inkişafında vacib rol oynaya bilər. Düşünürəm ki, təhsil sahəsində daha fəal əməkdaşlığa ehtiyac var.

Azərbaycan özünün turizm sənayesinin inkişafına böyük diqqət ayırır və biz son illər bu istiqamətdə mühüm uğurlar əldə etmişik. Azərbaycana səfər edən Çin turistlərinin sayında 53 faiz artım var. Azərbaycan Çin vətəndaşları üçün sadələşdirilmiş viza proseduru tətbiq edir. Vizanı Azərbaycanın beynəlxalq hava limanlarında əldə etmək olar. Azərbaycan və Çin arasında müntəzəm birbaşa uçuşlar həyata keçirilir.

Çinlə əlaqələr bizim xarici siyasətimizin prioritetlərindəndir. Əminəm ki, qarşıdan gələn illərdə Azərbaycan ilə Çin arasında mövcud olan dostluq əlaqələri xalqlarımızın tərəqqisi və rifahı naminə uğurla inkişaf edəcək və gücləncəkdir.

*-Sizin 2015-ci ildə Çinə səfəriniz zamanı Azərbaycan və Çin arasında "İpək Yolu İqtisadi Kəməri"nin reallaşdırılmasına dair Anlaşma Memorandumu imzalandı. Son illər ərzində "Bir kəmər, bir yol" layihəsi çərçivəsində iki ölkə tərəfindən əldə edilən irəliləyişi necə qiymətləndirirsiniz? "Bir kəmər, bir yol" layihəsi çərçivəsində Azərbaycan-Çin əməkdaşlığı üçün hansı sahələr prioritet təşkil edəcəkdir?*

-Mənim 2015-ci ildə Çinə səfərim zamanı bir çox mühüm sənədlər imzalanmışdır. Bunların sırasında iki ölkə arasında imzalanmış "İpək Yolu İqtisadi Kəməri"nin yaradılmasının birgə təşviqinə dair Anlaşma Memorandumu da var idi. Azərbaycan Çinin "Bir kəmər, bir yol" təşəbbüsünü tam dəstəkləyir. Azərbaycan və Çin arasında nəqliyyat sahəsində əməkdaşlıq üçün çox yaxşı perspektivlər var.

Biz dəmir yolu infrastrukturumuzun müasirləşdirilməsinə sərmayə yatırırıq. Ötən ilin may ayında biz Xəzər dənizində 15 milyon ton yükaşırma qabiliyyətinə malik yeni beynəlxalq liman istifadəyə verdik. Ehtiyac olduğu təqdirdə, onun imkanları 25 milyon tona qədər artırıla bilər. Asiya və Avropanı birləşdirən Bakı-Tbilisi-Qars dəmir yolu xətti Çindən Avropaya və geriyə yük daşımaları üçün ən qısa nəqliyyat marşrutudur. 2018-ci ildə Bakı-Tbilisi-Qars dəmir yolu vasitəsilə 19 qatar yük daşınmışdır.

Coğrafi yerləşməmizdən istifadə edərək, biz ölkəmizin infrastruktur və nəqliyyat sektoruna sərmayə yatırdıq və bununla da Azərbaycanı beynəlxalq nəqliyyat mərkəzlərinin birinə çevirdik. Bizim ölkə tarixi İpək Yolu üzərində yerləşir. Müasir infrastrukturun yaradılması bizim əsas hədəflərimizdəndir. Biz əsas sərmayəni yolların, avtomagistralların və hava limanlarının inşasına yönəldirik. Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizləri ölkəmizin ərazisindən keçir. Azərbaycan hər iki layihədə fəal iştirak edir və bu istiqamətdə bir sıra təşəbbüs irəli sürüb.

*-Bildiyiniz kimi, bu ay Pekində "Bir kəmər, bir yol" üzrə ikinci Beynəlxalq Əməkdaşlıq Forumu keçiriləcəkdir. Əməkdaşlığın dərinləşdirilməsi və bəşəriyyət üçün birgə gələcəyin qurulması baxımından bu layihə ilə bağlı gözləntiniz nədən ibarətdir?*

-Əminəm ki, müxtəlif ölkələri birləşdirən nəqliyyat layihəsinin təməlində geosiyasət dayanır. Bu layihələr geosiyasi vəziyyətə təsir edir, sabitliyə və proqnozlaşdırıla bilməyə töhfə verir və qarşılıqlı asılılıq yaradır. Qonşularsız biz tranzit ölkəyə çevrilə bilmərik. Yəni, bu, dövlətlərdən ibarət zəncirdir və biz Şərqdən Qərbə və Şimaldan Cənuba uzanan yolun üzərindəyik. Bununla da biz qitələri və ölkələri birləşdirir və daha da proqnozlaşdırıla bilən gələcək qururuq.

"Bir kəmər, bir yol" təşəbbüsü ölkələr və regionlar arasında iqtisadi əməkdaşlığı inkişaf etdirə, sabitlik və təhlükəsizliyin bərqərar olmasına mühüm töhfə verə bilər. Bu layihə mədəniyyətlərarası və sivilizasiyalararası münasibətlərin, iqtisadi inkişafın gücləndirilməsi, ölkələrin çiçəklənməsi və xalqlararası təmasların təşviqi kimi nəcib ideyalara xidmət edir. Ümid edirəm ki, "Bir kəmər, bir yol" üzrə ikinci Beynəlxalq Əməkdaşlıq Forumu bu istiqamətdə növbəti addım olacaq və məhsuldar müzakirələrin aparılması üçün yaxşı imkan yaradacaq.

*-Bu il Çin Xalq Respublikasının 70-ci ildönümü qeyd olunur. Son illər ərzində Çinin inkişafını necə qiymətləndirirsiniz?*

-Əsrlər boyu Çin xalqı özünün qədim tarixi ənənələri və zəngin mədəniyyəti ilə bəşər sivilizasiyasının inkişafına töhfəsini verib. Çin Xalq Respublikası yarandığı tarixdən böyük inkişaf yolu keçib. Çin rəhbərliyinin uzaqgörən və müdrik siyasəti nəticəsində ölkə misilsiz nailiyyətlər əldə edib. Güclü iqtisadi inkişaf, ölkədaxili sabitlik və təhlükəsizlik, əhalinin yüksələn rifahı bunun aydın göstəricisidir. Biz Azərbaycanda Çinin müxtəlif sahələrdə əldə etdiyi böyük nailiyyətləri maraqla izləyirik.

Əminəm ki, Çin inkişaf, firavanlıq və tərəqqi yolu ilə getməkdə davam edəcəkdir. Bu işdə Çin xalqına və onun rəhbərliyinə yeni uğurlar diləyir, Çin Xalq Respublikasının yaranmasının qarşıdan gələn 70-ci ildönümü münasibətilə səmimi təbriklərimi və xoş arzularımı çatdırıram.

# “Şahdağ. Dağların şahı” sənədli filminin təqdimatı olub



**Aprelin 17-də Bakı Konqres Mərkəzində IDEA İctimai Birliyinin milli parklar haqqında sənədli filmlər silsiləsindən ibarət xüsusi layihəsi çərçivəsində çəkilmiş "Şahdağ. Dağların şahı" sənədli filminin təqdimat mərasimi keçirilib.**

AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva tədbirdə iştirak edib.




Ekran əsərinin təqdimatından əvvəl qonaqlar ”Şahdağ. Dağların şahı” filminin rejissoru İqor Bışnyovun çəkilişlər zamanı lentə aldığı fotolardan ibarət sərgi ilə tanış olublar.

Sonra yeni yaradılmış Qızılağac Milli Parkından bəhs edən və hazırda çəkilişləri davam edən yeni filmdən kadrlar göstərilib.

Mərasimdə çıxış edən İqor Bışnyov ”Şahdağ. Dağların şahı” layihəsinin təşəbbüskarı Leyla Əliyevaya təşəkkürünü bildirib, filmin altı il müddətdə davam edən çəkiliş prosesi ilə bağlı təəssüratlarını bölüşüb.

İqor Bışnyov Azərbaycanda ekoturizmin inkişafı üçün əlverişli imkanların olduğunu vurğulayıb.

Filmdə Cənubi Qafqazın ən böyük milli parkı olan Şahdağ Milli Parkının yaradılmasının məqsədi, burada məskunlaşan və 108-i Azərbaycan Respublikasının ”Qırmızı Kitab”ına daxil edilmiş fauna növləri, endemik və nəsli kəsilməkdə olan digər növlər və transsərhəd köçəri heyvanlar, ərazi üçün xarakterik olan müxtəlif flora növləri, böyük və əzəmətli qalaya bənzərliyi ilə insanı heyrətə gətirən Şahdağın landşaftı, ərazidə mövcud olan qlobal əhəmiyyətli dağ meşələri haqqında bəhs edilir.



IDEA-nın sözügedən layihəsi çərçivəsində 2014-cü ildə ”Şirvan Milli Parkı”, 2015-ci ildə ”Quşlar cənnəti - Ağgöl Milli Parkı” və ”Göygöl Milli Parkı”, 2017-ci ildə ”Azərbaycan. Ceyranların xilası”, ötən il isə ”Abşeron Milli Parkı” sənədli filmləri geniş ictimaiyyətə təqdim olunub. Layihə çərçivəsində ölkəmizin bütün milli parkları haqqında sənədli film hazırlanması nəzərdə tutulur.

IDEA İctimai Birliyinin təşəbbüsü ilə ”Şahdağ. Dağların şahı” filmi ölkəmizin ali təhsil müəssisələrində, həmçinin İctimai Birliyin Bakı və Gəncə şəhərlərindəki Resurs mərkəzlərində nümayiş etdiriləcək. Bununla yanaşı, ”Şahdağ. Dağların şahı” filminin digər ölkələrdə və müxtəlif beynəlxalq tədbirlər çərçivəsində də nümayişi nəzərdə tutulur.



IDEA-nın milli parklarla bağlı sənədli filmlər silsiləsi yaratmağında əsas məqsədi Azərbaycanın əsrarəngiz təbiət gözəlliklərini ölkə daxilində və xaricdə təbliğ etmək, eləcə də ətraf mühitin mühafizəsinin vacibliyini diqqətə çatdırmaqdır.



## XİN sosial şəbəkədə işğal edilmiş ərazilərdə qeyri-qanuni fəaliyyətlərə dair məlumatı əks etdirən hesab yaradıb

Azərbaycan Respublikasının beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində ərazi bütövlüyünü və suverenliyini şübhə altına alan istənilən fəaliyyət Xarici İşlər Nazirliyinin və ölkəmizin diplomatik nümayəndəliklərinin daima diqqət mərkəzindədir. Bu kimi fəaliyyətlər tərəfimizdən daim izlənilir və sözügedən fəaliyyətin qarşısının alınması istiqamətində müvafiq tədbirlər həyata keçirilir.

Xarici İşlər Nazirliyinin Mətbuat xidmətindən Trend-ə daxil olan məlumata görə, bu xüsusda, Nazirlik tərəfindən ”Twitter” sosial şəbəkəsində Azərbaycan Respublikasının işğal edilmiş ərazilərində aparılan qeyri-qanuni iqtisadi və digər fəaliyyətlərə dair məlumatı əks etdirən ”Armenian Occupation Watch” (https:// twitter.com/ArmenOccupWatch) adlı hesab yaradılıb. Sözügedən ”Twitter” hesabında bir sıra xarici dövlətlərdə qeydiyyatdan keçmiş hüquqi və fiziki şəxslərin ölkəmizin işğal edilmiş ərazilərində qeyri-qanuni iqtisadi və digər fəaliyyətə cəlb olunması ilə bağlı məlumatlar, faktlar və foto şəkillər yerləşdirilir.

Paylaşılan məlumatlarda xarici fiziki və hüquqi şəxslər tərəfindən ölkəmizin suverenliyi və ərazi bütövlüyünün pozulması halları, xüsusilə işğal olunmuş ərazilərdə birbaşa və ya dolayısı ilə qeyri-qanuni fəaliyyətin həyata keçirilməsi diqqətə çatdırılır və bu fəaliyyətə son qoyulmasına çağırış əks olunur.

## Azərbaycan-NATO əməkdaşlığı müzakirə edilib

Müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə səfərdə olan NATO-nun Beynəlxalq Hərbi Qərargahının Baş direktoru general-leytenant Yan Broeksin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Müdafiə Nazirliyindən Trend-ə verilən məlumata görə, səfərin NATO-nun yaranmasının 70 illiyi və Azərbaycan-NATO əməkdaşlığının 25-ci ildönümünə təsadüf etdiyini vurğulayan Z.Həsənov Alyansla əlaqələrin çoxşaxəli olduğunu və bu tərəfdaşlığın yubileyinin qeyd olunmasına dövlət səviyyəsində xüsusi diqqət ayrıldığını bildirib.

Müdafiə naziri NATO-nun ölkəmizin ərazi bütövlüyünə və suverenliyinə verdiyi siyasi dəstəyi xatırladaraq bunun ümumilikdə Avroatlantik məkanda təhlükəsizliyin möhkəmlənməsinə, eləcə də regional sülhə və sabitliyə xidmət etdiyini nəzərə çatdırıb.

Y.Broeks də öz növbəsində Azərbaycan-NATO əlaqələrini yüksək qiymətləndirərək sülhməramlılarımızın Əfqanıstanda keçirilən əməliyyatlar çərçivəsində beynəlxalq təhlükəsizliyə verdiyi töhfəni, Alyansın bir çox proq-



ramlarında Azərbaycan hərbçilərinin fəal iştirakını, habelə NATO-nun müxtəlif qərargahlarında xidmət edən zabitlərimizin hazırlığını xüsusi vurğulayıb.

Görüşdə Azərbaycan ilə NATO arasında həyata keçirilən əməkdaşlıq proqramları və layihələri çərçivəsində əməliyyat hazırlığı, təlimlərin keçirilməsi, hərbi təhsilin inkişafı, qüvvələr arasında qarşılıqlı uzlaşmanın əldə olunması məsələləri müzakirə edilib və əməkdaşlığın inkişaf perspektivləri barədə ətraflı fikir mübadiləsi aparılıb.

*Ali Məhkəmənin sədri:*

## Prezidentin fərmanının icrası ilə bağlı məhkəmə sədrlərinin, hakimlərin üzərinə mühüm vəzifələr düşür



Prezident İlham Əliyevin ”Məhkəmə-hüquq sistemində islahatların dərinləşməsi haqqında” aprelin 3-də imzaladığı fərmanın icra olunmasında məhkəmə sədrlərinin, ədalət məhkəməsini həyata keçirən hakimlərin üzərinə mühüm vəzifələr düşür. Trend-in məlumatına görə, bunu Ali Məhkəmənin sədri Ramiz Rzayev deyib.

R.Rzayev bildirib ki, bunun üçün məhkəmə sədrləri, hakimlər öz fəaliyyətlərində ədalət mühakiməsinin prinsiplərinə ciddi əməl etməklə yanaşı, məhkəmələrin fəaliyyətində şəffaflığın artırılması, məhkəmə icraatının effektivliyinin yüksəldilməsi, cəmiyyətdə məhkəmələrə etimadın möhkəmləndirilməsi istiqamətində ciddi tədbirlər görməlidirlər.

Ali Məhkəmənin sədri bildirib ki, bu fərman dövlət başçısının məhkəmə hakimiyyətinə verdiyi müstəsna əhəmiyyətin növbəti təzahürü olmaqla, həyata keçirilən məhkəmə-hüquq islahatlarının mühüm tərkib hissəsidir.

Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə genişmiqyaslı sosial-iqtisadi və hüquqi islahatların həyata keçirildiyini vurğulayan sədr qeyd edib ki, dövlət başçısının imzaladığı fərmanda əksini tapan tapşırıqların vaxtında, dürüst və dönmədən icrası təmin edilməlidir, həmçinin ədalət mühakiməsinin keyfiyyəti və səmərəliliyi artırılmalıdır.

# Texniki yardım sahəsində əməkdaşlığa dair Saziş imzalanıb



Aprelin 17-də Nazirlər Kabinetində Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında texniki yardım (qrant) sahəsində əməkdaşlığa dair Saziş imzalanıb.

AZƏRTAC xəbər verir ki, Sazişi Azərbaycanın Baş nazirinin müavini Əli Əhmədov və Çinin ölkəmizdəki səfiri Vey Cinhua imzalayıblar.

Baş nazirin müavini Əli Əhmədov Azərbaycan ilə Çin arasında əməkdaşlığın inkişafından danışıb. O deyib ki, yüksək səviyyəli qarşılıqlı səfərlər zamanı bu əməkdaşlığın daha da inkişaf etdirilməsi ilə bağlı ətraflı müzakirələr aparılır. Çin Azərbaycanın ərazi bütövlüyünü, Azərbaycan da "Vahid Çin" siyasətini birmənalı şəkildə dəstəkləyir. Azərbaycan Çin Xalq Respublikasının Sədri Si Cinpinin irəli sürdüyü "Bir kəmər, bir yol" təşəbbüsünü dəstəkləyir və bu layihənin həyata keçirilməsində yaxından iştirak edir.

Səfir Vey Cinhua deyib ki, Çin ilə Azərbaycan yaxşı dost və yaxın tərəfdaşdır. Diplomat 2015-ci ildə Prezident İlham Əliyevin Çinə dövlət səfərini xatırladıb, bu səfər çərçivəsində hər iki ölkənin liderləri tərəfindən əməkdaşlıqla bağlı imzalanmış sənədlərin əhəmiyyətini qeyd edib. Səfir vurğulayıb ki, Azərbaycan və Çin rəhbərlərinin dəstəyi ilə ölkələrimiz arasındakı siyasi, iqtisadi, mədəni və digər sahələrdə əməkdaşlıq inkişaf edir.

*Allahşükür Paşazadə:*

# Prezident İlham Əliyevin sayəsində nail olduğumuz hər bir uğur tarixi hadisəyə çevrilir

Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə Prezident İlham Əliyevə müraciət ünvanlayıb.

Məktubda deyilir: "Möhtərəm cənab Prezident. Qafqaz bölgəsi dindarlarının, dini icma və konfessiya rəhbərlərinin arzu və iradəsini ifadə edərək Sizə - Azərbaycan xalqının ləyaqətli oğluna, dövlətimizin rəhbərinə və dünyanın tanınmış siyasi xadiminə salamlarımı və təşəkkürlərimi ünvanlayıram. Bu təşəkkür borcum 70 illik yubileyim və Şeyxülislam kimi fəaliyyətə başlamağımın 40 illiyi münasibətilə Zati-aliləriniz tərəfindən verilən ali qərarınıza və Sərəncamınıza görədir. Mən bu Sərəncamınızı həm şəxsimə, həm də Azərbaycan dindarlarına olan yüksək hörmət və etimadın göstəricisi kimi qəbul edirəm. Zati-alilərinizin sayəsində nail olduğumuz hər bir uğur dünya müsəlmanlarının, Azərbaycan ictimaiyyətinin və dini mühitimizin nəzərində əlamətdar və tarixi hadisəyə çevrilir. Çünki dünya Sizin simanızda öz ölkəsini hərtərəfli inkişaf mərtəbəsinə qaldıran, multikulturalizm ideyaları və dini-mədəni mühitin inkişafını təmin edən, sosial-iqtisadi islahatları ilə xalq-dövlət birliyini möhkəmləndirən dövlət rəhbərini görür. XXI əsrdə bəşəriyyətin mənəvi ehtiyac duyduğu və zamanın tələblərinə cavab verən qlobal ideyalarınız sayəsində Azərbaycanın adı tarixin səhifələrinə tərəqqi və intibah məkanı kimi yazılır.



Sizin milli və dini dəyərlərə verdiyiniz önəmi təkcə Azərbaycan xalqı deyil, dünya ictimaiyyəti və müxtəlif dinlərin liderləri də yüksək qiymətləndirmiş və "Dünya dini liderlərinin II Bakı sammiti"nin keçirilməsi münasibətilə mənə ünvanladıqları təbriklərdə Zati-alilərinizə minnətdarlıqlarını bəyan etməyi rica etmişlər. Azərbaycandakı din-dövlət münasibətləri, multikulturalizm və tolerantlıq ənənələri, etiqad azadlığının təmin olunması müdrik siyasətin nümunəsi kimi təkcə Qafqaz bölgəsində deyil, bütün beynəlxalq aləmdə yüksək qiymətləndirilir. Bu sarsılmaz mənəvi bünövrənin təməli ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş və Zati-alilərinizin səyləri ilə uğurla davam etdirilmişdir. Biz din xadimləri Azərbaycanda Sizin səylərinizlə təşəkkül tapan mədəniyyətlər və sivilizasiyalar arasında dialoqun dinamik inkişafına müsbət təsir göstərən bütün səyləri bəyənirik və gələcəkdə davam etdirmək niyyətindəyik. Zati-alilərinizin 2019-cu ili böyük İslam mütəfəkkiri, irfan filosofu və sufi şairi Nəsiminin şərəfinə "İmadəddin Nəsimi ili" elan etməsi də Azərbaycanın dünya mədəniyyətinə bəxş etdiyi töhfələrin parlaq nümunəsidir və dini mühitdə yüksək təqdirlə qarşılanır.

Zati-aliləri, 40 ildir ki, Şeyxülislam olaraq Qafqaz Müsəlmanları İdarəsini ulu öndər Heydər Əliyevin xeyir-duası ilə onun əmanəti kimi qorumuş, Sizin hüsn-rəğbətiniz və maddi-mənəvi dəstəyinizlə dünyanın tanınmış dini təşkilatı səviyyəsinə qaldırılmasına çalışmışam. Bu illər ərzində Zati-alilərinizin şəxsimə olan hörmət və diqqəti, özəl münasibəti, iftar məclislərində və tədbirlərdə fəaliyyətim barədə dəyərli sözləriniz mənim üçün ən qiymətli hədiyyə olubdur. Bu gün də hesab edirəm ki, harada dövlət və din birliyi varsa, orada dövlətin və xalqın siyasi, iqtisadi və mənəvi rifahı üçün təminat var. Mən Sizin siyasətinizi təqdir edərək hər zaman yanınızdayam. Zati-alilərinizin məni dost və qardaş adlandırmasını özüm üçün ən böyük mükafat hesab edirəm, ömrüm boyu Sizə və bütün ailənizə Allahdan xeyir-dualar diləyirəm.

Biz dindarlar əminik ki, Uca Yaradanın köməyi və Sizin rəhbərliyinizlə Azərbaycan xalqı dünya miqyasında daha böyük uğurlara imza atacaq, əzəli torpağımız olan Qarabağın azadlığı naminə haqqın qalibiyyəti daim Zati-alilərinizlə olacaqdır. Bu, bizim ümidimiz və Sizə ünvanlanan dualarımızdır.

Allah-təala hər zaman yardımçınız olsun! Amin".

# Xəzərdə ən dərin quyunun qazılması üzrə rekord




JOCAP (Joined Operating Company Absheron Petroleum) "SOCAR Absheron" və "Total E&P Absheron" bərabər paylarla iştirak etdiyi birgə müəssisə) operatoru olduğu "ABD-001" yatağında qazma işləri zamanı "Kaspian Drilinq Kompani Limited" MMC-nin idarəçiliyi altında olan Heydər Əliyev adına 6-cı nəsil yarımdalma qazma qurğusu Xəzər dənizində ən dərin quyunun qazılması üzrə rekorda nail olub.

Quyu bu il aprelin 15-də saat 13:00-da 7411 metr (ümumi ölçülmüş dərinlik) dərinliyə çatıb. Bu, Xəzər dənizində indiyədək qazılmış ən dərin quyudur.

Qazma qurğusu "Kaspian Drilinq Kompani Limited" MMC-nin rəhbərliyi altında 2017-ci ildə Xəzər tərsanəsində tikilib, sınaqdan keçirilib və qurğuya ümummilli lider Heydər Əliyevin adı verilib. Hazırkı quyu Heydər Əliyev adına yarımdalma qazma qurğusunun qazdığı ilk quyudur.

Əldə olunmuş böyük nailiyyətlə əlaqədar layihənin bütün iştirakçılarını səmimi qəlbdən təbrik edirik.

# Neft sektoruna 1 milyard manatdan çox vəsait yönəldilib



Bu ilin birinci rübündə ölkənin neft sektoruna 1 milyard 94,8 milyon manat vəsait yönəldilib.

Dövlət Statistika Komitəsindən AZƏRTAC-a bildirilib ki, yanvar-mart aylarında neft sektorunda 7 milyard 748,6 milyon manatlıq məhsul istehsal olunub. Sənayenin neft sektorunda məhsul istehsalı əvvəlki ilin eyni ayları ilə müqayisədə 2,9 faiz artıb. Bu sektorda istehsal olunmuş əlavə dəyər isə 4,6 faiz çoxalıb. Sənaye məhsulunun 71,7 faizi mədənçıxarma sektorunda istehsal olunub.

Martda sənaye məhsullarının istehsalçı qiymətləri əvvəlki ayla müqayisədə 3,2 faiz, o cümlədən mədənçıxarma sənayesi üzrə 3,5 faiz bahalaşıb.

Ötən ayın əvvəlinə iqtisadiyyatın neft sektorunda 34,4 min nəfər çalışıb. Yanvar-fevral aylarında neft sektorunda nominal əməkhaqqı isə 2 min 824,9 manat təşkil edib.

# 515 min ton dizel yanacağı istehsal olunub



Yanvar-mart aylarında Azərbaycanda 515,6 min ton dizel yanacağı, 302,8 min ton avtomobil benzini, 78,8 min ton neft-kimya sənayesində istifadə üçün benzin, 154,2 min ton ağ neft, 18 min ton yanacaq mazutu, 4,9 min ton sürtkü yağları, 39,4 min ton neft bitumu və 61,2 min ton neft koksu istehsal edilib.

Dövlət Statistika Komitəsindən AZƏRTAC-a verilən məlumata görə, üç ayda neft məhsullarının istehsalı sahəsində istehsalın ümumi dəyəri 735,1 milyon manat olmaqla əvvəlki ilin eyni ayları ilə müqayisədə 1,4 faiz artıb.

Neft məhsullarından avtomobil benzininin istehsalı 1,6 faiz, yanacaq mazutunun istehsalı 8,6 faiz azalıb. Dizel yanacağının, ağ neftin, neft-kimya sənayesində istifadə üçün benzinin istehsalı isə artıb.

# Birinci rübdə Bakı-Tbilisi-Ceyhan kəməri ilə 8,1 milyon ton neft daşınıb



Cari ilin ilk rübündə Azərbaycandakı magistral neft kəmərləri ilə 10 milyon 5,4 min ton neft nəql olunub.

Dövlət Statistika Komitəsindən AZƏRTAC-a bildirilib ki, nəqletmənin 81,5 faizi Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəməri (BTC) ilə həyata keçirilib və yanvar-mart aylarında bu kəmərlə 8 milyon 150,2 min ton neft nəql edilib. Üç ayda BTC ilə 1 milyon 185,2 min ton tranzit nefti də ötürülüb.

# Tariximizin xanlıqlar dövrünün qiymətləndirilməsinə və siyasi təhlilinə dair fundamental əsər

**Akademik Ramiz Mehdiyevin müəllifi olduğu "Tariximizin xanlıqlar dövrünün siyasi irsi sənədlər işığında" kitabı Azərbaycan tarixşünaslığında, tarixi-fəlsəfi və ictimai-siyasi fikrində xanlıqlar dövrünə daha sistemli, obyektiv və rasional baxışın formalaşmasına imkan yaradan dəyərli, mötəbər elmi-konseptual mənbədir.**

Siyasi elmlər doktoru, Bakı Dövlət Universitetinin professoru Hikmət BABAOĞLUNUN akademik Ramiz Mehdiyevin yenicə çapdan çıxmış "Tariximizin xanlıqlar dövrünün siyasi irsi sənədlər işığında" əsəri haqqında analitik məqaləsi bu sözlərlə başlayır. AZƏRTAC məqaləni təqdim edir.

Xalqımızın milli yaddaşında beşminillik dövlətçilik şüuru hakimdir. Azərbaycanın zəngin dövlətçilik tarixinin bəzi dövrləri dönüş nöqtəsi sayıla biləcək çox mühüm mərhələləri özündə ehtiva edir. Yəni, dövlətçilik tariximizdə taleyüklülüyü baxımından digər dövrlərdən fərqlənən siyasi dönəmlər - tarixi mərhələlər mövcuddur. Ona görə də milli dövlətçiliyimizin əsaslarına tarixi reallıqların işığında nəzər salmaq və obyektiv, rasional qənaətlərə gəlmək üçün sistemli elmi tədqiqatların aparılması zəruridir. Çünki Azərbaycanın zəngin dövlətçilik ənənələrinin qorunması və gələcək nəsillərə ötürülməsi tarixi mirasımıza sahib çıxmaqdan, onu yaşatmaqdan keçir. Bütövlükdə, dövlətçilik tariximizin mötəbər elmi mənbələrə söykənərək obyektiv, rasional baxış əsasında öyrənilməsi - tədqiq olunması tarixi şüurun formalaşması və milli özünüdərk baxımından strateji əhəmiyyətə malikdir. Çünki tarixi şüur milli şüurun ən əsas komponentlərindən biridir.

## Azərbaycanın dövlətçilik tarixinin xanlıqlar dövrünün başlıca səciyyəvi xüsusiyyətlərinə siyasi-analitik baxış

Azərbaycanın dövlətçilik tarixinin çox mühüm və həlledici mərhələlərindən birini xanlıqlar dövrü təşkil edir. Bu dövrün başlıca səciyyəvi xüsusiyyətlərinə tarixi faktların işığında nəzər saldıqda onun Azərbaycan dövlətçiliyində hansı yerə malik olduğu tam aydın görünür. Məlum olduğu kimi, XVIII əsrin 40-cı illərində Azərbaycan ərazisində müstəqil dövlətlər qismində xanlıqlar yaranmışdı. Şəki və Quba xanlıqları istisna olmaqla digər xanlıqlar əsasən Nadir şah Əfşarın 1747-ci ildə qətlindən sonra meydana gəlmişdilər, XIX əsrin 20-30-cu illərində isə mərhələli şəkildə Qacar İran dövlətinin və Rusiya imperiyasının nəzarəti altına keçmişdilər. Şəki, Bakı, Qarabağ, Gəncə, Şamaxı, Quba, Dərbənd, Lənkəran, Naxçıvan və İrəvan xanlıqları Şimali, Urmiya, Təbriz, Xoy, Qaradağ, Sərab, Marağa, Maku, Zəncan və Ərdəbil xanlıqları isə Cənubi Azərbaycanda meydana çıxmışdılar. Şimali Azərbaycan ərazisində xanlıqlarla yanaşı, öz ərazisinə və nüfuzuna görə daha kiçik feodal qurumları olan sultanlıqlar, məlikliklər mövcud idi. İlisu, Qəbələ, Ərəş, Qazax-Şəmşəddil sultanlıqları fəaliyyət göstərirdilər.

Xanlıqlar dövrünü tədqiq edən tarixçilərin bu dönəmə dair bir çox məsələlərlə yanaşı, xanlıqlarda idarəetmə formasını da araşdırma predmetinə çevirmələri mühüm əhəmiyyətə malikdir. Ümumiyyətlə, xanlıqlar dövründə mövcud idarəetmə formasının mahiyyətinə dair ümumiləşmiş qənaət ifadə etmək üçün dövlət idarəçiliyi və hakimiyyət strukturu məsələsinin elmi-nəzəri əsaslarına diqqət yetirmək məqsədəmüvafiqdir. Dövlət idarəçiliyi və onun əsaslarının öyrənilməsi sosial elmlərin mühüm tədqiqat obyekti qismində çıxış edir. Siyasi, iqtisadi, mədəni, hərbi, sosial və digər sahələrdə idarəetmə ilə bağlı konseptual xarakterli, mühüm elmi-nəzəri əhəmiyyətə malik olan tədqiqatlar mövcuddur. Bu məsələ kontekstində hakimiyyət strukturunun forması və xarakteristikası da tədqiqat obyektinə çevrilir. Başqa sözlə, siyasətşünaslıq elmində idarəetmənin əsasları kontekstində tədqiqat predmetinə çevrilən nəzəri-empirik məsələlərdən biri də hakimiyyət və onun funksionallığıdır. Siyasətşünaslıqda idarəetmə sistemində hakimiyyətin səlahiyyət və funksiyalarını yerinə yetirməsinin optimal və səmərəli forması məhz "hakimiyyət bölgüsü" prinsipi əsasında müəyyənləşsə də, xanlıqlar dövrü tariximizdə bunu müşahidə etmək mümkün deyil. Məhz bu elmi-nəzəri və empirik əsasları rəhbər tutaraq xanlıqlar dövründə idarəetmə formasına nəzər saldıqda idarəetmədə praktiki olaraq təkhakimiyyətlilik prinsipinin hökm sürdüyünü aydın görmək olur. Bu, bizə xanlıqlar dövründə hakimiyyət strukturunun funksionallığı və səciyyəvi xüsusiyyətləri barədə dəqiq elmi-nəzəri qənaət əldə etməyə imkan verir. Məlum olduğu kimi, xanlıqlarda təkhakimiyyətlilik xanın qeyri-məhdud hakimiyyətə malik olmasında özünü göstərirdi. Eyni zamanda, hakimiyyətin digər qolu olan məhkəmə hakimiyyəti də məhz xanın əlində cəmləşmişdi, o, hətta ölüm hökmü vermək, yaxud bu cəza növünə məhkum olunmuş şəxsləri əfvetmə səlahiyyətinə malik idi. Xanın yanında məşvərət funksiyasına malik Divanın fəaliyyət göstərməsi isə, bir növ, qanunvericilik orqanının mövcudluğundan xəbər verirdi. Divanda, əsas etibarilə, sülh bağlamaq, müharibə elan etmək, vergilər qoymaq məsələləri müzakirə olunurdu. Belə şuralar Şəki, Şamaxı, Quba və Qarabağ xanlıqlarında mühüm institusional mexanizm kimi kifayət qədər nüfuza malik idi. Xanın qəbul etdiyi qərarlarda bir sıra hallarda Divanın və ya Məşvərət şurasının mövqeyinin həlledici rola malik olması isə müəyyən mənada qanunverici orqanın icra hakimiyyəti üzərində təsirini göstərən faktlardan idi.

## Xanlıqlar dövründə separatizm və mərkəzdənqaçma meyilləri: mərkəzləşmə prinsipindən uzaqlaşma milli dövlətçiliyin əsaslarının zəifləməsinə xidmət edən amil kimi

Xanlıqlar dövrünü tədqiq edən tarixçi-alimlərin diqqət yetirməsi zəruri olan məsələlərdən biri bu dönəmdə mərkəzdənqaçma meyillərinin sürətlənməsi, separatizmə rəvac verən qərarların qəbul olunması, addımların atılması idi ki, bu, son nəticədə Azərbaycan dövlətçiliyinin bəhs olunan tarixi mərhələdə mərkəzləşmə prinsipindən uzaqlaşmasını göstərirdi. Məlumdur ki, beşminillik tarixə malik olan Azərbaycan dövlətçiliyinin Səfəvilər dövründə növbəti mərkəzləşmə prosesinin əsası qoyulmuş, Nadir şah Əfşarın hakimiyyəti illərində isə bu, bir qədər də möhkəmləndirilmişdi. Bu, dövlətçilik ənənələrinin qorunması, mərkəzdənqaçma meyillərinin, siyasi deviasiya hallarının neytrallaşdırılması baxımından çox mühüm əhəmiyyətə malik idi. Sabitlik və tərəqqini təmin edən siyasi formula olan mərkəzləşdirmə prosesinin aradan qaldırılması isə dövlətçiliyin əsaslarının zəifləbilməsi, suverenliyin məhdudlaşdırılması, hətta sıradan çıxmasına xidmət edəcəkdi. Bu, məhz xanlıqlar dövründə baş verdi. Bundan başqa, xanlıqlar arasında nüfuz və yeni ərazilər uğrunda mübarizənin şiddətli, kəskin xarakter daşıması həmin dövrdə Azərbaycan dövlətçiliyinin əsaslarının zəifləməsini şərtləndirən mənfi amil qismində çıxış edirdi. Həmin dönəmin Azərbaycan dövlətçiliyinin siyasi, iqtisadi, ideoloji və mədəni tənəzzül dövrü kimi xarakterizə edilməsi heç də təsadüfi xarakter daşımır.

## Tarixşünaslığımıza dəyərli töhfə: xanlıqlar dövrünə yeni elmi-fəlsəfi və rasional baxış

Bütövlükdə, Azərbaycanın siyasi tarixinin xanlıqlar dövrü bir sıra xarakterik xüsusiyyətləri ilə diqqəti cəlb edir. Bu zamana qədər sözügedən məsələ ilə bağlı müxtəlif elmi-tədqiqat işləri, araşdırma nümunələri ortaya qoyulsa da, bu tarixi mərhələ indiyə qədər yetərincə tədqiq olunmamışdı, mövcud faktlar və reallıqlar sənədlərə əsaslanaraq dolğun surətdə elm ictimaiyyətinin diqqətinə təqdim edilməmişdi. Lakin Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyevin "Tariximizin xanlıqlar dövrünün siyasi irsi sənədlər işığında" kitabı tarixi faktlara, elmi əsaslara söykənməklə yanaşı, zəngin fikir və mülahizələrlə xanlıqlar dövrünə aid bir çox yanlış yanaşma və şərhlərin aradan qaldırılması baxımından böyük əhəmiyyətə malikdir. Müəllif ilk dəfə olaraq həmin dövrü siyasi və tarixi nöqteyi-nəzərdən mahiyyətcə yeni kontekstdə təhlil edib. Akademik Ramiz Mehdiyev həmin dövrün tarixi-siyasi xarakteristikasına nəzər yetirərək yazır: "Azərbaycanda mərkəzləşdirilmiş idarəçilik sisteminin əsaslarının məhv edilməsi, həmçinin milli mədəniyyətimizin, təsərrüfat həyatının tənəzzülünə səbəb olmuş feodal hərc-mərcliyi və bitib-tükənməyən ara müharibələri ilə müşayiət edilən, ən nəhayət, tarixi torpaqlarımızın ikiyə bölünməsinə gətirib çıxaran bu keşməkeşli dövr tarixşünaslığımızda hələ də öz layiqli siyasi qiymətini almamışdır".

Şübhəsiz ki, haqqında bəhs olunan kitabın Azərbaycan tarixinin ən ağrılı və həssas mərhələlərindən sayılan xanlıqlar dövrünün indiyədək tarixşünaslığımıza məlum olmayan siyasi sənədlər əsasında qiymətləndirilməsi istiqamətində yazılması atılmış çox mühüm elmi addımdır. Çünki tarixin düzgün dəyərləndirilməsi, ona rasional və obyektiv baxışın formalaşdırılması, müxtəlif dövrləri əhatə edən tarixi faktlar və reallıqların gələcək nəsillərə düzgün çatdırılması hər bir xalq üçün strateji əhəmiyyətə malikdir. Akademik Ramiz Mehdiyev yeni kitabında haqlı olaraq qeyd edir ki, tarix keçmişi, bu günü və sabahı bir-birinə möhkəm tellərlə bağlayan bir keçid, körpüdür: "Keçmişi bilmədən bu günə və gələcəyə keçmək qeyri-mümkündür. Keçmişimizi öyrənmək üçün ilk addım kimi tarixə, onun fəlsəfəsinə və təyinatına olan münasibətimizi dəyişməli, anlayışların zahirindən daha çox, onların daxilini görməyə, anlamağa vərdiş etməliyik".

## Tariximizin xanlıqlar dövrünün siyasi irsinin 22 orijinal sənəd əsasında tədqiq edilməsi mühüm elmi-nəzəri, konseptual və tarixi-siyasi əhəmiyyətə malikdir

Akademik Ramiz Mehdiyevin "Tariximizin xanlıqlar dövrünün siyasi irsi sənədlər işığında" kitabının elm ictimaiyyətinin böyük marağına səbəb olması təsadüfi xarakter daşımır. Əsər bir çox məziyyətləri ilə diqqəti cəlb edir. Əvvəla qeyd edək ki, kitab müxtəlif arxiv materialları, mühüm tarixi qaynaqlar ilə zəngindir. Əsərə 22 orijinal sənəd daxil edilib və bu sənədlərin hər biri müqayisəli təhlil metodu əsasında tarixi faktlar üzrə və siyasi-analitik yanaşma kontekstində dərin təhlil edilib. Tarixşünaslığımıza dəyərli töhfə olan bu kitabda müəllif xanlıqlar dövrünün indiyədək ciddi elmi mübahisələrin predmeti olan bir sıra mühüm problemlərinə, hadisə və şəxsiyyətlərə faktlar, mötəbər elmi mənbələr əsasında obyektiv qiymət verib, sözügedən istiqamətlərə dair arxiv sənədlərində əks olunan məqamlar dolğun surətdə diqqətə çatdırılıb. Şübhəsiz ki, nəşrdə təqdim edilən, müvafiq interpretasiyalarla müşayiət olunan sənədlər həm xanlıqlar dövrünün, həm də müxtəlif tarixi dönəmlərin real mənzərəsinə aydınlıq gətirmək üçün böyük elmi əhəmiyyətə malikdir.

Akademik Ramiz Mehdiyevin qələmə aldığı əsərin daha bir məziyyəti odur ki, kitabda tanınmış alimlərin xanlıqlar dövrünün hadisələri ilə bağlı maraqlı fikirlərinə istinad edilib, həmin dövrün mühüm şəxsiyyətləri barədə məlumatlar əks olunub. Daha dəqiq desək, Ağa Məhəmməd şah Qacar, Abbas Mirzə Qacar, Fətəli şah Qacar, Qarabağ xanı İbrahimxəlil xan, Gəncə xanı Cavad xan, Şəki xanı Səlim xan, general Pavel Sisianov haqqında məlumatlar həm mötəbər mənbələr, həm də müəllifin elmi-analitik qənaətləri əsasında diqqətə çatdırılıb. Bundan başqa, kitabda birinci və ikinci Rusiya-İran müharibələri, həmçinin Kürəkçay müqaviləsi barədə də zəngin faktlara söykənən elmi mülahizələr öz əksini tapıb. Əsərdə türkiyəli tarixçi F.Sümərin, iranşünas və şərqşünas alimlər M.İvanovun, K.Bosvortun, Y.Krımskinin və başqalarının xanlıqlar dövrünün hadisələri ilə bağlı maraqlı fikirlərinə istinad edilməsi də mühüm yeniliklərdən biridir.

"Tariximizin xanlıqlar dövrünün siyasi irsi sənədlər işığında" kitabında əks olunan çox mühüm məqamlardan biri həmin mərhələdə mərkəzləşdirilmiş idarəçilik sisteminin əsaslarının tamamilə sıradan çıxarılmasının, mərkəzdənqaçma meyillərinin artmasının Azərbaycanın dövlətçilik ənənələrinin möhkəmlənməsinə mənfi təsirinin tarixi-siyasi və elmi-fəlsəfi kontekstdə təhlil edilməsidir. Müəllif belə bir analitik qənaət ifadə edir ki, xanlıqlar dövrü Azərbaycan dövlətçiliyinin və xalqının taleyində oynadığı rol baxımından tariximizin ən mühüm mərhələlərindən birini təşkil edir. Qeyd olunur ki, məhz bu dövrdə Azərbaycan dövlətçiliyi mərkəzləşmə prinsipindən məhrum olur. Vaxtilə Səfəvi şahlarının, xüsusən Şah İsmayıl Xətainin və Nadir şahın hərbi dühası və siyasi məharəti hesabına yaradılan, Azərbaycan türklərinin titul xalq statusunda idarə etdikləri böyük bir coğrafiyada irili-xırdalı onlarca feodal dövlətin meydana gəlməsi siyasi böhranla yanaşı, böyük iqtisadi və mədəni tənəzzülə aparıb çıxarır. Akademik Ramiz Mehdiyev haqlı olaraq xanlıqlar dövrünün tarixi şüurumuzda feodal hərc-mərcliyinin sinoniminə çevrildiyini vurğulayır.




⇨ Davamı 6-cı səhifədə

# Tariximizin xanlıqlar dövrünün qiymətləndirilməsinə və siyasi təhlilinə dair fundamental əsər

⇨ Əvvəli 5-ci səhifədə

**Tarix ondan zəruri dərslər çıxarılmadığı təqdirdə daha amansızlıqla təkrar olunur**

Əsərin mühüm məziyyətlərindən biri də komparativ təhlil metodu əsasında xanlıqlar dövrünün siyasi hadisələrinin müasir dövrdəki analoji proseslərlə müqayisə edilməsidir. Sirr deyil ki, dövlətçilik tariximizin xanlıqlar mərhələsi və müasir dövrdə Azərbaycan xalqının üzləşdiyi ən ağır problem torpaqlarımızın itirilməsidir. Akademik Ramiz Mehdiyev yazır ki, Azərbaycan xanları vaxtilə birləşib ümumi düşmənə qarşı vahid cəbhədən çıxış edə bilsəydilər, böyük ehtimalla torpaqlarımızın bu qədər asanlıqla və qısa zamanda işğalı da mümkün olmayacaqdı. Müvafiq olaraq ermənilərin Vətənimizə kütləvi şəkildə köçürülməsi və gələcəkdə Azərbaycan torpaqlarında erməni dövlətinin yaradılması perspektivi də sual altına düşəcəkdi. Müəllif bütövlükdə bəhs olunan kitabda bu məsələyə xüsusi diqqət yetirib, səbəblər və nəticələrə elmi yanaşma əsasında nəzər salıb. Akademik Ramiz Mehdiyev haqlı olaraq qeyd edir ki, tarix ondan zəruri dərslər çıxarılmadığı təqdirdə daha amansızlıqla təkrar olunur. Əsərdə vurğulanır ki, xanlıqlar dövrü ilə müstəqilliyimizin ilk illəri arasında mövcud olan kədərli oxşarlıqlardan daha biri isə torpaqlarımızın itirilməsi ilə bağlıdır: "Əgər xanların özbaşınalığı və separatçı davranışları Şimali Azərbaycanın çarizm tərəfindən işğalı və 1828-ci il Türkmənçay sazişinin müddəalarına əsasən İran ermənilərinin Qarabağa, Naxçıvana və İrəvana köçürülməsi ilə yekunlaşmışdısa, ötən əsrin 90-cı illərinin əvvəlində üzləşdiyimiz vəziyyət Ermənistanın öz havadarlarının birbaşa dəstəyi sayəsində Dağlıq Qarabağı, həmçinin onun ətrafındakı 7 rayonu qəsb etməsi ilə nəticələndi".

Akademik Ramiz Mehdiyev hər iki dövrə nəzər salaraq mərkəzdənqaçma və separatizm meyillərinin Azərbaycan dövlətçiliyinə qarşı yaratdığı təhdidlərin mümkün nəticələrini diqqətə çatdırır. Müəllif Azərbaycanın müstəqilliyinin qorunub saxlanmasında xalqımızın ümummilli lideri Heydər Əliyevin tarixi rolundan və misilsiz xidmətlərindən bəhs edir. Həqiqətən də, Azərbaycan xalqının böyük oğlu, müstəqil Azərbaycan dövlətinin qurucusu, Azərbaycan siyasi sisteminin yaradıcısı, azərbaycançılıq ideologiyasının banisi, ölkəmizdə milli özünüdərk prosesinin başladıcısı və idarəedicisi ulu öndər Heydər Əliyevin xalqımızın qarşısında tarixi xidmətləri misilsizdir. Bunlardan biri də, heç şübhəsiz, Azərbaycanda vətəndaş müharibəsinin qarşısının alınması, milli həmrəyliyin təmin olunması və ölkəmizin gerçək müstəqilliyinin əldə edilməsidir. Həmin dövrə nəzər salsaq, görərik ki, ümummilli lider Heydər Əliyev böyük dövlət xadimi kimi Azərbaycan dövlətinin və dövlətçiliyinin mənzərəsini çox aydın şəkildə görür və onun struktur formulasını müəyyənləşdirərək nəyin necə olmasını dəqiq cizgilərlə qura bilirdi. Məhz bunun nəticəsi idi ki, müstəqil Azərbaycan dövləti quruldu. Məhz Ulu Öndərin həmin dövrdə həyata keçirdiyi siyasət nəticəsində Azərbaycan müstəqil dövlət - formal yox, həqiqi müstəqil dövlət kimi tanındı. Bəlli olduğu kimi, 1991-1993-cü illər ərzində xarici kəşfiyyat orqanlarının siyasi-ideoloji qarşıdurma poliqonuna çevrilən Azərbaycanın ciddi xaos və kataklizmlərlə qarşı-qarşıya qalması ölkəmizin müstəqilliyini itirmək təhlükəsini meydana çıxarmışdı. Əslində, bu dövrdə ölkəmizin nisbi müstəqilliyindən belə danışmaq olmazdı, çünki hakimiyyətdə olan qüvvələrin öz funksiyalarını yerinə yetirə bilməmələri hakimiyyət böhranı və anarxiyanın meydana çıxmasına səbəb olmuşdu. Ümummilli lider Heydər Əliyevin real ictimai-siyasi tələblərin zərurəti kontekstində ikinci dəfə siyasi hakimiyyətə qayıtması isə xalqımızın çoxəsrlik tarixinə təleyüklü möhtəşəm siyasi hadisə kimi daxil oldu. Bundan sonra ölkədə siyasi sabitlik təmin edildi, xaos və kataklizmlərin qarşısı məharətlə alındı. Ulu öndər Heydər Əliyevin zamanında atdığı praqmatik addımlar bir əsrdə ikinci dəfə müstəqillik əldə etmiş Azərbaycanın öz mövcudluğunu qoruyub saxlamasını təmin etdi. İctimai-siyasi sabitliyin təmin edilməsi və sistemli, kompleks tədbirlərin görülməsi nəticə etibarilə yeni cəmiyyət və qeyri-formal milli dövlət quruculuğu prosesinin başlanmasını mümkün edən strateji amil oldu. Ümummilli Lider tarix baxımından çox qısa bir müddətdə milli dövlətçiliyin sarsılmaz əsaslarını yaratmağa, Azərbaycanın müstəqilliyinin əbədi və dönməz xarakter almasına nail oldu. Beləliklə, ulu öndər Heydər Əliyev müstəqil Azərbaycan tarixində ən yeni eranın əsasını qoyan, dövlətçiliyi bərpa edən, onun ideoloji, iqtisadi və siyasi əsaslarını formalaşdıran böyük dövlət xadimidir. Digər tərəfdən, Ulu Öndər özünü dövlətlə identifikasiya edəcək fərdlərin şüurunda inqilab yaratdı. Məlumdur ki, XX əsrin 90-cı illərinin əvvəllərində ölkədə etnik, regional, sosial-ideoloji zəmində separatçılığa söykənən tendensiya hökm sürürdü. Azərbaycan cəmiyyətinin daxili və mürəkkəb mikrostrukturunun təbəqələri heç də müstəqil dövləti milli sərvət kimi qəbul etmirdilər, ona görə də bu düşüncəni dəyişmək lazım idi. Böyük dövlət xadimi, dahi siyasətçi Heydər Əliyev buna nail olmağı bacardı. Akademik Ramiz Mehdiyev bu məqamlara toxunaraq yazır: "Tam əminliklə bildirirəm ki, əgər o dövrdə tarix səhnəsində Azərbaycan xalqının Ümummilli Lideri, zəngin idarəçilik təcrübəsinə malik, böyük siyasi iradə və səriştə sahibi Heydər Əliyev olmasa idi, bəzən ayrı-ayrı şəxslərin hakimiyyət hərisliyi ucbatından, bəzən isə xarici qüvvələrin əmri ilə alovlanan separatçılıq atəşində gənc dövlətçiliyimiz yanıb külə dönəcəkdi".

**"Tariximizin xanlıqlar dövrünün siyasi irsi sənədlər işığında" kitabı tarixçi-alimlər üçün "yol xəritəsi" olmaqla yanaşı, yeni elmi-tədqiqat əsərlərinin yaradılması üçün mötəbər elmi mənbə səciyyəsi daşıyır**

Nəticə etibarilə, "Tariximizin xanlıqlar dövrünün siyasi irsi sənədlər işığında" kitabı da akademik Ramiz Mehdiyevin bundan önceki fundamental tədqiqatları kimi böyük elmi-nəzəri və konseptual əhəmiyyətə malikdir. Kitabda müqayisəli və hərtərəfli elmi təhlil metodu əsasında tarixşünaslığımızda ilk dəfə olaraq xanlıqlar dövrünün siyasi və tarixi nöqteyi-nəzərdən mahiyyətcə yeni konseptual dəyərləndirilməsi aparılıb. Əsər, həmçinin bu istiqamətdə yeni tədqiqatlar üçün geniş imkanlar yaradır. Başqa sözlə, bu kitabı tarixçi-alimlər üçün "yol xəritəsi" kimi də xarakterizə etmək olar. Akademik Ramiz Mehdiyev yazır: "Tarixçilərimiz, filosoflarımız, ədəbiyyatşünaslarımız, mədəniyyətşünaslarımız onu da unutmamalıdırlar ki, keçmişin irsindən qorxmağa, yaxud ehtiyatlanmağa lüzum yoxdur. Onu olduğu kimi qəbul edib öyrənmək, müsbət tərəflərini və qüsurlarını obyektiv şəkildə göstərmək və ədalətli qiymətləndirmə əsasında ictimaiyyətə ötürmək lazımdır. Tarixi mirasla işləyərkən, əslində, tamam başqa bir məsələdən - hansısa siyasi-ideoloji səbəblərdən, yaxud təəssübkeşlik ucbatından ört-basdır etməyə çalışdığımız və ya mahiyyətini təhrif edərək çatdırdığımız faktların sonradan aşkara çıxarıldığı zaman xalqda, cəmiyyətdə yaradacağı məyusluqdan, ruh düşkünlüyündən və psixoloji sarsıntıdan ehtiyatlanmaq lazımdır".

Bütövlükdə, peşəkar tarixçilər və mənbəşünaslar, həmçinin Azərbaycan tarixi ilə dərindən maraqlanan oxucular üçün nəzərdə tutulan nəşr Azərbaycan tarixşünaslığında, tarixi-fəlsəfi və ictimai-siyasi fikrində sözügedən məsələyə daha sistemli, obyektiv və rasional baxışın formalaşmasına imkan yaradan dəyərli, mötəbər elmi-konseptual mənbədir.

# Gənclərin fəallığı müstəqil Azərbaycanı daha da gücləndirir





**Ötən gün Yeni Azərbaycan Partiyası (YAP) Suraxanı rayon təşkilatı Gənclər Birliyinin V hesabat-seçki konfransı keçirildi.**

Tədbir Dövlət himnimizin səsləndirilməsi ilə başladı. Sonra konfrans iştirakçıları ulu öndər Heydər Əliyevin əziz xatirəsini bir dəqiqəlik sükutla yad etdilər.

Daha sonra YAP Suraxanı rayon təşkilatı Gənclər Birliyinin IV konfransından ötən dövr ərzində görülən işlərlə bağlı hesabat xarakterli videoçarx nümayiş etdirildi.

Konfransı giriş sözü ilə açan YAP Suraxanı rayon təşkilatının sədri Vüqar Seyidov bildirdi ki, gənclik cəmiyyətin aparıcı qüvvəsidir: "Gənc nəslin düzgün yetişdirilməsi dövlət siyasətində mühüm yer tutur. Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş dövlət gənclər siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsinin nəticəsidir ki, bu gün Azərbaycan gəncləri bütün sahələrdə özlərini doğruldurlar. Dahi şəxsiyyət Heydər Əliyev daim gənclərə qayğı göstərib, onların bir fərd kimi yetişməsinə xüsusi önəm verib. Ulu Öndər hakimiyyətə gəldiyi ilk dövrlərdən gənclərin himayədarı kimi çıxış edərək sağlam düşüncəli yeni nəslin yetişdirilməsi sahəsində misilsiz işlər görüb. Gənclər siyasəti ilə bağlı bir çox Fərman və sərəncamlar imzalayan ümummilli lider Heydər Əliyev onların milli və vətənpərvər ruhda tərbiyəsinə hər zaman böyük diqqət yetirib".

V.Seyidov vurğuladı ki, ümummilli lider Heydər Əliyev tərəfindən yaradılan Yeni Azərbaycan Partiyası bu gün ölkəmizin aparıcı siyasi qüvvəsidir. Bildirdi ki, YAP sözün əsl mənasında xalq partiyası olduğu üçün xalqımızın bütün təbəqələri burada birləşir, partiyamızın üzvləri ölkəmizin uğurlu inkişafına öz töhfələrini verməyə çalışırlar.

Konfransda YAP Suraxanı rayon təşkilatının fəal gəncləri Arzu Həsənzadə, Fərəh Məcidzadə və digərləri çıxış edərək Azərbaycanda gənclərə göstərilən dövlət qayğısından, qarşıda duran ümdə vəzifələrdən danışdılar. Vurğulandı ki, YAP Suraxanı rayon təşkilatının gəncləri də bütün sahələrdə öz fəallıqları ilə seçilirlər.

Yeni Azərbaycan Partiyasının Beynəlxalq əlaqələr şöbəsinin müdiri, Milli Məclisin deputatı Sevinc Fətəliyeva çıxışında bildirdi ki, ölkəmizdə məqsədyönlü şəkildə həyata keçirilən uğurlu işlərin nəticəsi olaraq bu gün müasir Azərbaycan gəncliyi yeni inkişaf mərhələsinə qədəm qoyub: "Uğurlu gənclər siyasətinin əsas məğzi gənclərin öz bilik və bacarıqlarını, potensiallarını effektli reallaşdırması, cəmiyyətdə layiqli yer tutmasını təmin edən şəraitin yaradılması məqsədilə dövlət tərəfindən müəyyən edilmiş prioritetlər və həyata keçirilən tədbirlər sistemidir. Ulu öndər Heydər Əliyevin bünövrəsini qoyduğu siyasətin cənab Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsinin məntiqi nəticəsidir ki, bu gün gənclərimiz ölkənin ictimai-siyasi həyatında fəal iştirak etməklə yanaşı, beynəlxalq miqyasda da ardıcıl uğurlar qazanırlar".

Tədbirdə çıxış edən YAP Gənclər Birliyinin sədri, partiyanın Siyasi Şurasının üzvü Seymur Orucov, Milli Məclisin deputatı Şahin İsmayılov bildirdilər ki, son illər respublikamızda həyata keçirilən tədbirlər gənclərin də hərtərəfli inkişafının təmin olunması üçün siyasi, sosial-iqtisadi şərait və təminatların yaradılmasını sürətləndirib, gənclərin ictimai-siyasi fəallığının artmasına səbəb olub. Vurğulandı ki, ölkəmizdə gənclər siyasəti Dövlət siyasətinin mühüm tərkib hissəsinə çevrilib. Gənclərlə bağlı müxtəlif dövlət proqramlarının qəbul olunması, onların icrası nəticəsində dövlət gənclər siyasətinin prioritet sahələrində ciddi uğurlar əldə edilib.

Konfransda çıxış edən Suraxanı Rayon İcra Hakimiyyətinin başçısı İlqar Abbasov bildirdi ki, bu gün ölkəmizdə cənab Prezident İlham Əliyevin rəhbərliyi altında çox düşünülmüş və məqsədyönlü gənclər siyasəti həyata keçirilir: "Görülən işlərin nəticəsidir ki, bu gün gənclərimiz böyük nailiyyətlərə imza atırlar, cəmiyyətdə mühüm rol oynayırlar. Gənclərin fəallığı, onların bilikləri müstəqil Azərbaycanı daha da gücləndirir. Gənclərimiz sorağı beynəlxalq konfranslardan, dövlət və hökumət qurumlarından, intellektual bilik yarışlarından gəlir. Gənclər bu imkanlardan layiqincə yararlanıb dövlətimizin mənafeyini etibarlı şəkildə müdafiə etməli və bunun üçün səylə çalışmalıdırlar.

Sonra YAP Suraxanı rayon təşkilatı Gənclər Birliyinin Şurasına 23 nəfərdən ibarət üzvlər seçildi. Rayon təşkilatının Gənclər Birliyinin yeni sədri isə Fərəh Məcidzadə seçildi.

Tədbirdə YAP sıralarına yeni qəbul olunmuş bir qrup gəncə partiyanın üzvlük vəsiqələri təqdim edildi.

Sonda konfrans iştirakçıları adından ölkə başçısı, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyevə müraciət qəbul olundu.

**Cavid Əkbərov,**
***"İki sahil"***

*Xalq artisti Afaq Bəşirqızı:*

# Dövlətimizin başçısı İlham Əliyevin son Fərman və sərəncamları mədəniyyət və incəsənət xadimlərinin məsuliyyətini daha da artırır

**Yazıya ulu öndər Heydər Əliyevin bu fikirləri ilə başlamaq istərdim: "Xalq bir çox xüsusiyyətləri ilə tanınır, sayılır və dünya xalqları içərisində fərqlənir. Bu xüsusiyyətlərdən ən yüksəyi, ən böyüyü mədəniyyətdir."**

Zəngin tarixə, mədəniyyətə, incəsənətə, milli mənəvi dəyərlərə malik olan Azərbaycan bütün dövrlərdə bu kimi xüsusiyyətlərinə sahib çıxıb, qoruyub, inkişaf etdirib. Bu mühüm məqamı da qeyd edək ki, ədəbiyyatımızın, mədəniyyətimizin ən böyük və fərqləndirici xüsusiyyətlərindən biri də odur ki, zaman-zaman istedadlı insanlar mədəniyyətimizdə yeni yollar, cığırlar açmış, yeni formalar meydana gətirmişlər.

Təkcə son bir ildə, ən əsası cari ilin ötən dövründə iqtisadi inkişafın tamamlandığı sosial siyasətə diqqət yetirdikdə bu kateqoriyadan olan insanların sosial müdafiəsinin gücləndirilməsinin, həmçinin kino və teatrlarımızın inkişafı ilə bağlı atılan addımların əsas yer tutduğunu görərik.

Məlum olduğu kimi, bu ilin martında Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mədəniyyət və incəsənət xadimlərinin bir qrupu ilə görüşdülər. Azərbaycanın ayrı-ayrı sahələrdə keçdiyi inkişaf yolundan geniş bəhs edən cənab İlham Əliyev "O ki qaldı, mədəniyyət sahəsinə, mən elə bu gün istərdim ki, sizinlə bu məsələlərlə bağlı fikir mübadiləsi aparım və bundan sonra görüləcək işlər haqqında danışaq" söyləyərək diqqəti görülmüş işlərə və qarşıda dayanan vəzifələrə yönəltdi. Teatrlarımızın, muzeylərimizin, dini abidələrimizin əsaslı şəkildə təmirindən, Azərbaycan klassiklərinin əsərlərinin latın qrafikası ilə çapından, kinoteatrların yaradılmasından, özəl kinoteatrların fəaliyyətə başlamasından, görkəmli mədəniyyət xadimlərinin xatirəsini əbədiləşdirmək üçün abidələrin qoyulmasından geniş bəhs edən dövlətimizin başçısı bildirmişdir ki, görülən bütün işləri yada salmaq çətindir.

Cənab İlham Əliyev qeyd olunanların ardınca "İndiyədək bu sahədə görülən işlər bundan ibarətdir. Bundan sonra hansı işlər görülməlidir, bunu siz deməlisiniz. Çünki mən istəyirəm ki, bundan sonra mədəniyyət sahəsində işlər sistemli qaydada görülsün. Biz bu məsələlərə bağlı siyasətimizi ardıcıl olaraq aparmalıyıq. Əlbəttə ki, sadəcə olaraq, mədəniyyət obyektlərinin tikintisi, təmiri bizim məqsədimizi tam ifadə edə bilməz. Biz bu məsələlərə daha da geniş kontekstdə baxmalıyıq" söyləyərək, mədəniyyət və incəsənət xadimlərini narahat edən məsələləri dinləmiş və vurğulamışdır ki, ümumiyyətlə, mədəniyyətimizin gələcək inkişafı, cəmiyyətdə mövcud olan ovqat, gənc nəslin tərbiyə olunması, bütün bu məsələlər bir-biri ilə bağlıdır.

Dövlətimizin başçısı İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın mədəniyyət və incəsənət xadimləri ilə görüşündən ötən qısa zamanda bu istiqamətdə görülən işlərin miqyasını genişləndirmək, bu kateqoriyadan olan insanların sosial müdafiəsini gücləndirmək üçün atılan addımlara, imzalanan Fərman və sərəncamlara diqqət yetirdikdə böyük qürur hissi keçirə bilərik. Təbii ki, atılan hər bir addım həmin sahənin işçilərinin üzərinə böyük məsuliyyət qoyur. Məsuliyyət və işgüzarlığın, ən əsası qarşıya qoyulan məqsədlərin birləşdirilməsi fonunda yüksək nəticələrə nail olmaq mümkündür.

Prezident İlham Əliyevin 5 mart 2019-cu il tarixli "Azərbaycan Dövlət Musiqili Teatrına və Azərbaycan Dövlət Rus Dram Teatrına "akademik" statusu verilməsi haqqında", həmçinin 11 mart 2019-cu il tarixli "Azərbaycan Respublikasında teatr və konsert müəssisələri işçilərinin sosial müdafiəsinin gücləndirilməsi haqqında" sərəncamlarının davamı olaraq 17 aprel 2019-cu il tarixli "Azərbaycan teatrlarının inkişafı ilə bağlı tədbirlərin davam etdirilməsi haqqında Sərəncamı mədəniyyət və incəsənət xadimləri tərəfindən böyük rəğbətlə qarşılanır. Sənəddə də qeyd olunduğu kimi, Azərbaycan teatr ənənələrinin qorunub saxlanılması və dövrün tələblərinə uyğun inkişafı ilə bağlı tədbirlərin davam etdirilməsi əsasdır. Bunun üçün Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinə 1,2 milyon manat, 12 teatra 100 min manat ayrılması nəzərdə tutulur.



**Xalq artisti Afaq Bəşirqızı Prezidentin məlum sərəncamları ilə bağlı fikirlərini "İki sahil" ilə bölüşdü:**

- Bu xəbər məni çox sevindirdi. Hazırkı dövrdə teatrların maddi-texniki, ümumiyyətlə, texniki bazasının yaxşılaşdırılmasına böyük ehtiyac var. Dövlətimizin başçısı İlham Əliyevin, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın bu sahəyə diqqət və qayğısı davamlıdır. Onlara öz minnətdarlığımı bildirirəm. Diqqət yetirsək, ölkə Prezidentinin mədəniyyət və incəsənət xadimləri ilə görüşündən sonra bütün sənətkarlara, teatrların inkişafına göstərilən diqqət daha da artıb. Bu, Azərbaycan mədəniyyətinin, incəsənətinin parlaq gələcəyi, sənətkarların yetişdirilməsi üçün mühümdür. Ən əsası, sənətkarların sənətə olan inamının artmasıdır. Buna görə də cənab İlham Əliyevə sonsuz təşəkkürümü bildirirəm. Çox sevinirəm ki, teatrların problemlərinə diqqət daha da artırıldı. Möhtərəm Prezidentimiz bu kimi məsələləri diqqətdən kənarda qoymadı.

Martın 1-də keçirilən görüşdən bizləri çox da böyük vaxtın ayırmadığını xatırladan Afaq Bəşirqızı qeyd etdi ki, artıq dövlət tərəfindən bir sıra tədbirlər həyata keçirilib. Əmək haqlarının artırılması, iki teatra "akademik" statusunun verilməsi kimi mühüm addımlar bizi çox sevindirir.

Afaq Bəşirqızı bu mühüm məqamı da qeyd etdi ki, aktyorlar öz problemlərini xalqa bildirmək istəmir, təbii ki, söhbət əsl sənətkarlardan gedir: "Sənətkar alçatmaz, onun mətbəxi, şəxsi həyatı bağlı, sənətkar və tamaşaçı arasında qalın pərdə olmalıdır. O pərdənin arxasından tamaşaçı sənətkarı görməməlidir. Bir sözlə, sənətkar adiləşməməlidir."

Xalq artisti vurğuladı ki, dövlətimizin başçısı İlham Əliyevin bu sahədə son Fərman və sərəncamları bu kimi mühüm məsələlərin həllinə stimuldur: "Hamı bir nəfər üçün, bir nəfər hamı üçün" prinsipini əsas tutmalıyıq. Xarici arenada dövlətimizi, mədəniyyətimizi təmsil etməliyik. Bu mühüm addımlar hər birimizin üzərinə böyük məsuliyyət qoyur. Hər kəs bu məsuliyyəti dərk etməli, səyləri birləşdirib məqsədə doğru inamla addımlamalıyıq."

Qeyd olunanlar əsasında bu ümumiləşdirməni apara bilərik ki, dövlətimizin başçısı İlham Əliyevin davamlı tədbirləri bu sahədə mövcud boşluqların aradan qaldırılmasını şərtləndirəcək. Ən əsası teatrların maddi-texniki bazasının möhkəmləndirilməsi, teatr işçilərinin əmək haqlarının artırılması onları daha səylə, məsuliyyətlə çalışmağa, potensial imkanlarını bu günə qədər bir neçə teatrla paylaşdıqları halda bu gün bir məkanda birləşdirməklə, bu sahənin inkişafına dəstək olacaq, öz töhfələrini verəcəklər.

**Yeganə Əliyeva,**
**Şəmsiyyə Əliqızı,**
***"İki sahil"***

*Heydər Camalın həyat yoldaşı:*

## Ailəmizə göstərilən dəstəyə görə Heydər Əliyev Fonduna minnətdarıq



Heydər Əliyev Fondu Azərbaycan əsilli rusiyalı yazıçı-politoloq Heydər Camalın qızı Kausar Camalın və jurnalist Orxan Camalın oğlu Mansur Camalın bütün təhsil haqlarını öz üzərinə götürüb.

Bu barədə Trend-ə Heydər Camalın həyat yoldaşı Gülnar Camal məlumat verib.

Qeyd edək ki, son günlərdə müxtəlif saytlarda 2018-ci ildə Mərkəzi Afrika Respublikasında film çəkilişləri zamanı qətlə yetirilən tədqiqatçı-jurnalist Orxan Camalın oğlu Mansur Camalın bəzi iş adamları tərəfindən "himayəyə götürülməsi" barədə məlumatlar yayılıb. Bununla bağlı məsələyə aydınlıq gətirən Gülnar Camal bildirib ki, həyat yoldaşı Heydər Camalın ölümündən və Orxan Camalın qətlindən sonra Azərbaycan Prezidenti İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva ailəyə başsağlıqlarını çatdırıb: "2018-ci ildə Bakıda Mehriban xanım Əliyeva ilə görüşümüz oldu. Elə həmin görüşdə Mehriban xanım bizim ailəyə Heydər Əliyev Fondu tərəfindən istənilən köməyi göstərməyə hazır olduğunu bildirdi. Hazırda Heydər Əliyev Fondu Heydər Camalın qızı Kausar və Orxan Camalın oğlu Mansurun təhsilində bizə dəstək göstərir. Bu dəstəyə görə öz dərin minnətdarlığımızı bildiririk və hiss edirik ki, Azərbaycan bizim ikinci Vətənimizdir!".

Heydər Əliyev Fondu göstərdiyi dəstək və yardımla bağlı məlumatların ictimailəşdirilməsinin tərəfdarı olmadığını bildirib və bununla yanaşı Gülnar Camalın verdiyi məlumatı təsdiqləyib. Qeyd olunub ki, Fond Heydər Camal və Orxan Camalın ailəsi ilə müntəzəm əlaqədədir və hər iki ziyalı azərbaycanlının övladları Fondun prezidenti Mehriban Əliyevanın göstərişi ilə Fondun himayəsinə götürülüb.

# "Star" neft emalı zavodu daha bir mükafat qazanıb

SOCAR-ın Türkiyənin İzmir şəhərinin Əliağa rayonundakı "Star" neft emalı zavodu (NEZ) daha bir mükafat qazanıb.

AZƏRTAC xəbər verir ki, bu barədə "Star" NEZ məlumat yayıb.

Bildirilir ki, "Star" NEZ Ankarada keçirilən SAP Rəqəmsal Transformasiya Zirvəsində "İlin ən yaxşı layihələri" mərasimində "Enerji sektorunda ilin rəqəmsal transformasiya layihəsi" mükafatına layiq görülüb.

Qeyd edək ki, "Star" zavodunun illik emal gücü 10 milyon tondur. Əsas məhsulları dizel yanacağı (4,8 milyon ton), təyyarə yanacağı (1,6 milyon ton), nafta (1,6 milyon ton), maye neft qazı, qarışıq ksilen, neft koksu təşkil edir. Zavod daşınmalar baxımından strateji əhəmiyyət kəsb edən Əliağa yarımadasında yerləşir. Əliağa yarımadasında "Star" NEZ ilə yanaşı, SOCAR-ın "Petkim" neft-kimya kompleksi, külək elektrik enerji stansiyası və Egey dənizinin ən böyük limanı olan "SOCAR Terminalı" vahid infrastruktur və dəyər zənciri çərçivəsində fəaliyyət göstərir.

Cari ilin qalan dövründə zavodda 7,5-8 milyon ton neft emal olunacaq. Gələn il isə NEZ tam gücü ilə, ildə 10 milyon ton neft emal edəcək. SOCAR-ın Türkiyədə inşasını planlaşdırdığı ikinci neft-kimya zavodu istismara veriləné qədər "Star" ildə təxminən 500 milyon dollarlıq neft-kimya məhsulu ixrac edəcək. Bu da təxminən 700 min ton neft-kimya məhsulu deməkdir.

Xatırladaq ki, "Star" zavodu ilk məhsulunu "Petkim PetroKimya Holding A.Ş."yə satıb. Zavodda ildə 1,6 milyon ton nafta istehsal olunacaq. İlkin mərhələdə "Petkim"ə 1303 ton nafta satılıb. "Petkim"in naftaya olan tələbatını bütövlükdə "Star" NEZ ödəyəcək.

STAR RAFİNERİ

Ötən il oktyabrın 19-da Azərbaycan və Türkiyə prezidentlərinin iştirakı ilə "Star" zavodunun açılış mərasimi olub. "Star" neft emalı zavodu Türkiyənin ilk Xüsusi Sənaye Zonası elan edilib. Zavod "Petkim" neft-kimya kompleksinin nafta və qarışıq ksilenə olan tələbatını tam ödəyəcək. "Star" Türkiyənin dizel yanacağı idxalının 40 faizə düşməsinə səbəb olacaq. Həmçinin mayeləşdirilmiş neft-qazın idxal səviyyəsi də 70 faizə enəcək. Zavod Türkiyənin təyyarə yanacağına olan tələbatını tam ödəyəcək. "Star" neftin qiymətindən asılı olaraq hər il 6-8 milyard dollarlıq ticarət həcmi formalaşdıracaq.

SOCAR neft emalı zavodunun daha məhsuldar işləməsi üçün Əliağada bir neçə il əvvəl aldığı depolama müəssisəsinə 1300 milyon dollarlıq əlavə sərmayə yatıraraq onun tutumunu artırıb. Türkiyənin ilk neft-kimya müəssisəsi "Petkim"in xam maddə tələbatının demək olar ki, hamısını təmin edəcək "Star" NEZ yeni iş yerlərinin yaradılmasına da töhfə verəcək. Layihənin həyata keçirilmə müddətində burada 19 min 500 işçi çalışıb. "Star" neft emalı zavodunda hər il 10 milyon ton xam neft emal ediləcək.

# Bakı Ali Neft Məktəbində Tələbələrin I Respublika Elmi konfransları başladı



**Bakı Ali Neft Məktəbində (BANM) ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr olunmuş Tələbələrin I Respublika Elmi konfransları başladı.**

Konfransın açılış mərasimində BANM-in rəhbərliyi və professor-müəllim heyəti, eləcə də SOCAR və AMEA-nın rəhbər heyəti və nümayəndələri iştirak edirdilər. Tədbirə, həmçinin ölkəmizdə fəaliyyət göstərən ali təhsil ocaqlarının akademik və administrativ heyəti, o cümlədən BANM-in tərəfdaşları olan SOCAR-ın Kompleks Qazma İşləri Tresti, "SOCAR Polymer", "Huawei", "Maire Technimont", "ABB", "Microsoft", "Emerson Process Management" və "Avandsis Group" şirkətlərinin təmsilçiləri qatılmışlar.

Qonaqları salamlayan BANM-in rektoru Elmar Qasımov ulu öndər Heydər Əliyevin şəxsiyyətinə olan dərin hörmət və ehtiramın təzahürü olaraq Baki Ali Neft Məktəbində Ümummilli Liderin anadan olmasının ildönümünə həsr olunan tələbələrin elmi konfranslarının keçirilməsinin artıq ənənəvi xarakter daşıdığını bildirdi. Cəmiyyətdə elm və təhsilin mühüm rolunu qeyd edən rektor ali məktəbdə bu sahənin inkişafı istiqamətində reallaşdırılan tədbirlərdən və əldə olunan nailiyyətlərdən danışdı, dövlətimizin elm və təhsil siyasətinin inkişaf etdirilməsinin bilavasitə gənclərin elmi tədqiqatlara daha çox cəlb edilməsindən asılı olduğunu bildirdi.



AMEA-nın vitse-prezidenti, Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunun direktoru, AMEA-nın həqiqi üzvü İradə Hüseynova, akademik Yusif Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutunun direktoru, akademik Vaqif Abbasov, SOCAR-ın Kompleks Qazma İşləri Trestinin müdiri İskəndər Şirəli və Bakı Dövlət Universitetinin Elm və innovasiyalar üzrə prorektoru, AMEA-nın müxbir üzvü professor Aydın Kazımzadə elm və təhsilin vəhdətindən və bu kimi konfransların tələbələrdə elmi potensialın inkişafına verdiyi önəmdən bəhs etdilər.

Xatırladaq ki, BANM-də tələbələrin elmi-texniki konfransları hər il təşkil olunur. Bu il ilk dəfə olaraq konfranslar hər biri çoxsaylı bölmələrdən ibarət üç geniş başlıq altında - Kimya və kimya mühəndisliyində perspektivlər, Keyfiyyətli enerji, keyfiyyətli xidmət və Yüksək texnologiyalar- innovativ tətbiqlər mövzuları çərçivəsində təşkil olunur. Ölkəmizdə fəaliyyət göstərən digər ali təhsil müəssisələrinin tələbələri də konfransda iştirak edirlər. Ümumilikdə konfransda iştirak etmək üçün respublikanın ali təhsil müəssisələri və AMEA-nın institutları üzrə 177 nəfər tələbə və gənc alim müraciət etmişdir. Tələbələrə Azərbaycan, ingilis və rus dillərində təqdimatlar etmək imkanı yaradılır. Ali məktəblə əməkdaşlıq edən SOCAR-ın Kompleks Qazma İşləri Tresti, "SOCAR Polymer", BP, "Huawei", "Maire Technimont", "Shclumberger", "ABB", "Baker Hughes", "Schneider Electric", "Halliburton", "Microsoft", "Emerson Process Management" və "Avandsis Group" şirkətləri isə yekunda qalibləri şirkətlərin korporativ hədiyyələri ilə mükafatlandırır ki, bu da öz növbəsində tələbələri elmi-tədqiqata və bu tipli tədbirlərdə daha fəal iştiraka həvəsləndirmiş olur. Konfrans 19 aprel 2019-cu il tarixində öz işini yekunlaşdıracaq.

**Zamin Məmmədov,**
**"İki sahil"**

*Musa Quliyev:*

# Atılan addımlar Azərbaycan dövlətinin sosial mahiyyətindən irəli gələn bir siyasətdir



"Dövlət başçısının sosial sahədə imzaladığı fərmanlar əhalinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində mühüm addımdır". Bu fikri Milli Məclisin Səhiyyə komitəsinin sədr müavini Musa Quliyev deyib.

M.Quliyev bildirib ki, bir müddət bundan öncə Azərbaycanda yeni pensiya və sosial müavinət formalarının təyin olunması ilə əlaqədar qaydaların hazırlanması istiqamətində Prezident İlham Əliyev tərəfindən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə xüsusi tapşırıq verilmişdi. Aprelin 15-də müharibə veteranlarının təqaüdünün artırılması, əlillərə qulluq edən şəxslərə Prezident təqaüdünün ayrılması və digər bu istiqamətdə imzalanan fərmanlar verilən tapşırıqların həyata keçirilməsi məqsədi daşıyır.

"Cənab Prezident bu ilin əvvəlində bəyan etmişdi ki, 2019-cu il sosial müdafiə baxımından xüsusi il olacaq. Bundan sonra da əhalinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində addımlar atılacaq. Pensiyalar, müavinətlər, təqaüdlər daha da artacaq, yeni iş yerləri yaradılacaq və digər sosial layihələr həyata keçiriləcək. Cənab Prezidentin də söylədiyi kimi, Azərbaycan dövlətinin siyasətinin mərkəzində xalqımız, onların sosial rifah halının daha yaxşılaşması dayanır. Azərbaycanın iqtisadi gücü artdıqca, əhalinin sosial müdafiəsinin artırılması tədbirləri ardıcıl olaraq həyata keçiriləcək, bu Azərbaycan dövlətinin sosial mahiyyətindən irəli gələn bir siyasətdir"- deyə, M.Quliyev vurğulayıb.

# BSU-da hesabat-seçki yığıncağı



**Aprelin 17-də Yeni Azərbaycan Partiyası Nəsimi rayon təşkilatı Bakı Slavyan Universiteti ərazi ilk partiya təşkilatının Gənclər Birliyinin hesabat seçki yığıncağı keçirilib. Tədbir iştirakçıları əvvəlcə ümummilli lider Heydər Əliyevin BSU-nun foyesində yerləşən büstü önünə əklil qoyublar.**



Yığıncağın əvvəlində Azərbaycan Respublikasının Dövlət himni səsləndirilib. Tədbiri giriş sözü ilə açan BSU-nun rektoru, professor Nurlana Əliyeva Yeni Azərbaycan Partiyasının keçdiyi böyük və şərəfli yoldan danışıb. O, müstəqilliyin ilk illərində səriştəsiz insanların yürütdüyü siyasət nəticəsində ölkəmizin ciddi sosial-iqtisadi böhran keçirdiyini, Azərbaycanın parçalanma ərəfəsində olduğunu qeyd edib. Rektor həmin illərdə xarici siyasətin də düzgün qurulmadığını və nəticədə Azərbaycanın dünyadan təcrid olunduğunu diqqətə çatdırıb. N.Əliyeva məhz belə bir mürəkkəb dövrdə ulu öndər Heydər Əliyevin hakimiyyətə gəldiyini, respublikamızı fəlakətlərdən xilas etmək kimi son dərəcə ağır missiyanı üzərinə götürdüyünü bildirib. O, Yeni Azərbaycan Partiyasının Ümummilli Liderin rəhbərliyi altında vaxtında siyasi meydana atıldığını, partiyanın ətrafına toplanmış fəal siyasi qüvvələrin və müdrik insanların dövlət quruculuğu işinə səfərbər olduqlarını qeyd edib. Üzünü gənclərə tutan rektor Azərbaycan dövlətinin bu qüdrətə, bu gücə asanlıqla çatmadığını, bunun üçün illərlə zəhmət çəkildiyini bildirib, Heydər Əliyev siyasətini uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin quruculuq işləri sayəsində bu gün Azərbaycan dövlətinin dünyada tanındığını diqqətə çatdırıb. Rektor gəncləri dövlət başçısı və Yeni Azərbaycan Partiyası ətrafında sıx birliyə çağırıb. N.Əliyeva Azərbaycanı həm daxildə, həm də xaricdə sevməyən qüvvələrin olduğunu bildirib, onların hər addımda dövlətçiliyimizə qarşı ideoloji, siyasi təxribat aparmağa hazır olduqlarını qeyd edib. N.Əliyeva bu səbəbdən gəncləri sosial şəbəkələrdə ayıq olmağa, dövlətçiliyimizi müdafiə etməyə səsləyib.



Sonra söz alan Yeni Azərbaycan Partiyası Nəsimi rayon təşkilatı Bakı Slavyan Universiteti ərazi ilk partiya təşkilatının sədri Sevinc Axundova iclasın gündəliyi barədə iştirakçılara məlumat verib.

Seçkidən öncə Yeni Azərbaycan Partiyası Nəsimi rayon təşkilatı Bakı Slavyan Universiteti ərazi ilk partiya təşkilatının Gənclər Birliyinin sədri Şirin Hüseynzadənin illik fəaliyyəti ilə bağlı hesabat məruzəsi dinlənilib.

BSU-nun rektoru, professor Nurlana Əliyeva universitetin ictimai həyatında və partiyada göstərdiyi fəallığa görə Şirin Hüseynzadəyə "Təşəkkürnamə" təqdim edib.

Təqdimatın ardından Şirin Hüseynzadənin hesabatına dair iştirakçıların rəyi dinlənilib. BSU-nun II kurs tələbəsi Nadir Qədirli Ş.Hüseynzadənin hesabatına müsbət münasibət bildirib. O qeyd edib ki, YAP Gənclər Birliyinə yeni üzv olmasına baxmayaraq il ərzində Ş.Hüseynzadənin təşəbbüsü ilə bir çox layihələrdə iştirak edib. BSU-nun doktorantı Rüfət Həşimov çıxışında əvvəlki illərlə bu ilin müqayisəsini apararaq deyib ki, Yeni Azərbaycan Partiyası Nəsimi rayon təşkilatı Bakı Slavyan Universiteti ərazi ilk partiya təşkilatının Gənclər Birliyi hazırda daha böyük üstünlüklərə malikdir. YAP sıralarında tələbələrin xüsusi fəallıq göstərdiyini nəzərə çatdıran R.Həşimov Ş.Hüseynzadənin fəaliyyətini yüksək qiymətləndirib, ona gələcək işlərində uğurlar arzulayıb.

Çıxışların ardından Yeni Azərbaycan Partiyası Nəsimi rayon təşkilatı Bakı Slavyan Universiteti ərazi ilk partiya təşkilatının Gənclər Birliyinin yeni sədrinin seçilməsi ilə bağlı səsvermə keçirilib. Səsvermənin nəticəsinə uyğun olaraq Beynəlxalq münasibətlər və regionşünaslıq fakültəsinin III kurs tələbəsi Murad Sadıqov yeni sədr seçilib.

Sonra Yeni Azərbaycan Partiyası Nəsimi rayon təşkilatı Bakı Slavyan Universiteti ərazi ilk partiya təşkilatının Gənclər Birliyinin sədr müavinlərinin seçilməsinə dair səsvermə olub. BSU-nun II kurs tələbələri Nadir Qədirli və Lalə Məmmədzadə səsçoxluğu ilə yeni sədr müavini seçiliblər. Seçki çərçivəsində Yeni Azərbaycan Partiyası Nəsimi rayon təşkilatı Bakı Slavyan Universiteti ərazi ilk partiya təşkilatının Gənclər Birliyinin idarə heyətinin üzvləri də yenidən müəyyənləşdirilib.

Tədbirdə çıxış edən YAP Nəsimi rayon təşkilatının sədri, Milli Məclisin deputatı Məlahət İbrahimqızı bildirib ki, YAP milli siyasi iradəni, habelə xalqımızın milli maraqlarını təmsil edən vahid və aparıcı siyasi qüvvədir. Ulu öndər Heydər Əliyevin ideyalarına sadiq olan və bu ideyalar əsasında fəaliyyət göstərən Yeni Azərbaycan Partiyası Prezident İlham Əliyevin sədrliyi ilə böyük inkişaf yolu keçib. M.İbrahimqızı Azərbaycan Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin həyata keçirdiyi siyasətin ölkəmizə böyük nüfuz qazandırdığını, Azərbaycanın hazırda regionun lider dövlətinə çevrildiyini xüsusi qeyd edib.

Sonda YAP-a yeni üzv olan BSU-nun 6 fəal tələbəsinə üzvlük vəsiqələri təqdim olunub.

# TANAP vasitəsilə Avropaya qaz nəqlində son mərhələyə start verildi

Azərbaycanın “Şahdəniz-2” yatağından çıxarılan təbii qazın Avropaya ötürülməsinə və bölgənin təbii qaz təchizatına töhfə verəcək TANAP-ın Əskişəhərdən Ədirnə-İpsalaya qədər uzanan 2-ci fazasında son mərhələyə start verildi. Avropaya qaz nəqli üçün nəzərdə tutulan 2-ci fazanın istismara verilməsi çərçivəsində 2019-cu il aprelin 15-dən etibarən sistemə qaz verilməyə başlandı. 2019-cu ilin iyununda sistemin istismara hazırlıq işlərinin tamamlanması və Avropaya sınaq məqsədi ilə qazın nəqli üçün hazır vəziyyətə gətirilməsi planlaşdırılır.

2018-ci ilin iyununda keçirilən beynəlxalq açılış mərasimindən sonra işə salınan və birinci fazası çərçivəsində Türkiyəyə qaz nəqlinə başlanan TANAP layihəsinin 2-ci fazası da son mərhələyə daxil olub. Bu faza Avropaya qaz nəqli məqsədi ilə kəmərin Əskişəhərin Seyitgazi bölgəsindən başlayaraq Ədirnənin İpsala bölgəsinə qədər uzanan və Türkiyə-Yunanıstan sərhədində bitən hissəsinin inşasını əhatə edir.

TANAP iyunda Avropaya sınaq məqsədli qaz nəqli üçün hazır olacaq.

Tikintisi başa çatan 2-ci fazanın istismara verilməsi çərçivəsində 15 aprel 2019-cu il tarixindən etibarən boru kəmərinə sınaq məqsədilə qaz verilməyə başlandı. Sınaqlardan sonra iyun ayının sonuna kimi sistemin istismara verilməsi üzrə işlərin tamamlanması və Avropaya sınaq məqsədli qaz nəqli üçün hazır vəziyyətə gətirilməsi planlaşdırılır.

TANAP-ın iyunun sonunda Avropaya qaz nəqli üçün hazır vəziyyətə gətirilməsindən sonra Cənub Qaz Dəhlizinin son həlqəsi olan, Türkiyə-Yunanıstan sərhədindən başlayaraq İtaliyaya qədər uzanan Trans-Adriatik boru kəmərinin tikintisinin tamamlanması və qaz axını üçün hazır vəziyyətə gətirilməsi gözlənilir. TANAP vasitəsilə Avropaya kommersiya məqsədli qaz nəqlinin Trans-Adriatik boru kəmərinin istismara verilməsi üzrə işlər tamamlanandan sonra 2020-ci ilin ortalarında başlaması gözlənilir.

# 9,7 milyon ton neft və 6 milyard kubmetr əmtəəlik təbii qaz çıxarılıb

**Bu ilin yanvar-mart aylarında Azərbaycanda 9 milyon 693,6 min ton xam neft (qaz kondensatı daxil olmaqla) və 9 milyard 74,2 milyon kubmetr təbii qaz hasil olunub. Həmin həcmdən 6 milyard 41,5 milyon kubmetr əmtəəlik təbii qaz alınıb.**

**Dövlət Statistika Komitəsindən AZƏRTAC-a bildirilib ki, üç ayda mədənçıxarma sənayesində istehsalın ümumi dəyəri 8,3 milyard manat olmaqla əvvəlki ilin eyni dövrünə nisbətən 2,9 faiz çoxalıb.**

**Ölkədə neft istehsalı 0,4 faiz, qaz hasilatı isə 36 faiz artıb.**



# Xətai rayonunda qaz kəmərləri yenidən qurulur



Abonentlərin keyfiyyətli və fasiləsiz təbii qazla təmin edilməsi məqsədilə SOCAR-ın “Azəriqaz” İstehsalat Birliyində təxirəsalınmaz işlər həyata keçirilir və yarana biləcək problemlərin operativ həlli istiqamətində zəruri tədbirlər görülür. Bakı şəhərində və ətraf qəsəbələrdə mövcud qazpaylayıcı şəbəkələrin, küçə və dalanların qaz xətlərinin yenidən qurulması istiqamətində işlərin icrası davam etdirilir. Dinamik artan qaz tələbatını və qaz təchizatı şəbəkəsinin mövcud texniki vəziyyətini nəzərə almaqla qaz təchizatının yaxşılaşdırılması sahəsində işlərin davam etdirilməsi, əhali abonentlərində dövlət yoxlaması vaxtı bitmiş qaz sayğaclarının yeni nəsil “smart-kart” qaz sayğacları ilə əvəz olunması istiqamətində intensiv işlər aparılır.



Paytaxtın qaz təchizatının yaxşılaşdırılması ilə əlaqədar aparılan əsaslı təmir-tikinti işləri çərçivəsində Xətai rayonu Rəşid Bağırov, Qafqaz və Nazim Şükürov küçələrində əhali istehlakçılarının mənzillərində istismar müddəti başa çatmış məişət qaz sayğaclarının yenisi ilə əvəz olunması işləri, yeni qaz kəmərlərinin çəkilməsi və istismara yararsız vəziyyətdə olan qaz avadanlıqlarının və boru xətlərinin yeniləri ilə əvəz edilməsi işləri uğurla icra olunur. Belə ki, qeyd olunan küçələr üzrə pərakəndə çəkilən qaz kəmərlərinin əsaslı təmiri və yenidən qurulması məqsədilə müxtəlif diametrli borularla 10 min metrdən çox qaz xətləri yenilənib, hazırda qaz sayğaclarının yeni çəkilmiş xətlərin üzərinə quraşdırılması işləri aparılır.

Rayon ərazisində aparılan yenidənqurma işlərinin qısa zamanda başa çatdırılması üçün müvafiq tədbirlər görülür. İşlər başa çatdırıldıqdan sonra qeyd olunan ərazidə yaşayan 4500-dək təbii qaz istehlakçılarının tələb olunan təzyiqdə, keyfiyyətli və dayanıqlı təbii qazla təminatı üçün əlavə imkan yaradılacaq.




# SOCAR İstiqrazlarının sahibləri 12.5 milyon dollar qazandılar

Dollarda illik 5 faiz gəlir gətirən və faizləri hər 3 aydan bir ödənilən SOCAR İstiqrazlarının sayca 10-cu faiz ödənişi edilib və bununla da, istiqraz sahiblərinin ümumi gəliri 12 milyon 500 min dollara yüksəlib. 2021-ci ilədək dövriyyəsi davam edəcək olan SOCAR İstiqrazları üzrə qarşıdakı rüblərdə daha 10 dəfə faiz ödənişi ediləcək ki, bunun da müqabilində, istiqraz sahibləri əlavə 12 milyon 500 min dollar qazanmış olacaqlar (toplamda 25 milyon dollar.)

“SOCAR Capital” şirkətindən verilən məlumata əsasən, 17 aprel tarixində SOCAR İstiqrazları üzrə 2019-cu ilin ikinci faiz ödənişi həyata keçirildi. Hər istiqraz üçün 12.5 dollar olmaqla, ümumilikdə 1 milyon 250 min dollar vəsaitin bir həftə əvvəldən Milli Depozit Mərkəzinin (MDM) Mərkəzi Bankdakı hesabına köçürüldüyü bildirilib.

Əsas xüsusiyyətləri SOCAR-ın nominal qiymətdən gerialma zəmanəti, likvidliyin yüksək olması, alğı-satqı əməliyyatlarının asanlığı və faiz ödənişlərinin qrafikə uyğun aparılması olan SOCAR İstiqrazlarının təkrar bazar əməliyyatlarının ümumi həcmi hazırda 172 milyon dolları ötüb və Bakı Fond Birjasında ən çox alınıb-satılan qiymətli kağızdır - 2019-cu ilin ilk rübündə 120-dən çox, ümumilikdə isə 1700 əqd bağlanıb. Həftə böyük tələbat nəticəsində SOCAR İstiqrazlarının market-meyker satış qiyməti 1046 dollara yüksəlmişdir.

1 və 5 saylı “ASAN xidmət” mərkəzlərindən də əldə edilməsi mümkün olan və 5 illik müddətə buraxılan SOCAR İstiqrazlarının 17 aprel tarixində ümumi faiz ödənişlərinin artıq yarısı yekunlaşmış oldu.

İstiqrazlar üzrə növbəti faiz ödənişinin 17 iyul tarixində baş tutacağı bildirilib.

# “Ümid” yatağının tarixində yeni səhifə

**“SOCAR AQŞ” MMC “Ümid” yatağının 1 saylı dəniz stasionar özülündən faktiki dərinliyi 6810 metr olan 16 saylı quyunun tikintisi işlərini təhlükəsiz və ətraf mühitə heç bir ziyan vurmadan uğurla yekunlaşdırıb. Quyu bütövlüyü nəzərə alınmaqla 16 nömrəli quyu Xəzərin Azərbaycan sektorunda qazılmış ən keyfiyyətli quyulardan biridir. Kəmərlərin layihə dərinliyinə çatdırılması, kəmərlərarxası təzyiqin olmaması və sementləmə işlərinin mükəmməl aparılması deməyə əsas verir ki, 16 nömrəli quyu “Ümid” yatağının tarixində yeni səhifə açıb.**

SOCAR tarixində ilk dəfə olaraq, quyu tikintisi zamanı qazma texnologiyalarında müəyyən dəyişiklik edilib, quyuağzı avadanlıqların yığılmasında yeni metodlar tətbiq olunub və yüksək hasilatın əldə olunması üçün 5 1/2 düymə monobar lift boruları vasitəsilə tamamlanma işləri aparılıb.

Müəssisənin əldə etdiyi uğurlardan biri də “Ümid” yatağı üzrə məhsuldar horizonrtlarda lay təzyiqlərinin ölçülməsi və süxur nümunələrinin götürülməsi olub.

“Ümid” yatağı tarixində, ilk dəfə olaraq “SOCAR AQS” yataq üzrə V horizontdan beynəlxalq standartlara cavab verən avadanlıqla 6046.5-6063.5 metr və 6037-6046 metr intervalından 100 % süxur nümunələri götürüb, hemetik şəkildə qablaşdıraraq sifarişçiyə təhvil verilib.

Müəssisənin Geologiya şöbəsinin müdiri Sevinc Qasımova “İki sahil”ə bildirib ki, 16 nömrəli kəşfiyyat quyusu “Ümid” yatağının tam potensialının aşkara çıxarılmasında müstəsna rol oynayıb: “Əminliklə deyə bilərəm ki, 16 nömrəli quyunun keyfiyyətlə təhvil verilməsi və sifarişçi məmnunluğunun tam yerinə yetirməsi “Ümid” yatağında yeni bir dövrün başlanmasına təkan verir. Belə ki, əlavə özüllərin tikilməsi, quyuların qazılması, işlənməsi və işlənmə rejimlərinin seçilməsi, o cümlədən qaz-kondensat hasilatının mənimsənilməsi əhəmiyyətli dərəcədə artacaq. Qeyd etdiklərimiz inteqrə edilmiş qazma və quyu xidmətləri göstərən müasir müəssisə olaraq, “SOCAR AQŞ”nin inkişaf perspektivlərinin reallığını göstərir. “SOCAR AQŞ” kollektivi, Prezident İlham Əliyevin müəyyən etdiyi siyasət və strategiyanın həyata keçirilməsində və SOCAR rəhbərliyinin qarşıya qoyduğu konkret vəzifələrin icrasındakı öz töhfəsi ilə qürur duyur və bu şərəfli fəaliyyətini bundan sonra da davam etdirmək əzmindədir.”



Qeyd edək ki, 2017-ci ilin dekabrında “SOCAR AQŞ” “Ümid-1” saylı dəniz stasionar özüldən faktiki dərinliyi 6352 metr olan 14 nömrəli istismar quyusunu sifarişçi tərəfindən təyin olunmuş texnoloji parametrlər üzrə tam dəqiqliklə qazaraq uğurla təhvil verib.

**Orxan Vahidoğlu,**
***“İki sahil”***

# 113 yaşlı "Molla Nəsrəddin"



**AMEA Naxçıvan Bölməsinin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun təşkilatçılığı ilə "Molla Nəsrəddin" satirik jurnalının ilk nömrəsinin çapdan çıxmasının 113 illiyinə həsr olunan elmi konfrans keçirilib.**

Tədbiri Bölmənin sədri, akademik İsmayıl Hacıyev açaraq Azərbaycanın ədəbiyyat tarixində əvəzsiz xidmətləri olan görkəmli yazıçı və ictimai xadim Cəlil Məmmədquluzadənin yaradıcılığından, onun təşəbbüsü, naşirliyi ilə dərc edilən "Molla Nəsrəddin" jurnalının milli mətbuatımızın inkişafında yeri və rolundan danışıb. Qeyd edib ki, əsərləri, publisistikası və böyük mətbuatçılıq fəaliyyəti ilə Cəlil Məmmədquluzadə Azərbaycan xalqının maariflənməsində əvəzsiz işlər görüb.

Akademik jurnalın 1906-cı ilin aprel ayından nəşrə başlandığını, 1906-1918-ci illərdə Tiflisdə, 1920-1921-ci illərdə Təbrizdə, 1922-1931-ci illərdə isə Bakıda nəşr olunduğunu söyləyib. Qeyd edib ki, nəşr öz ətrafında Mirzə Ələkbər Sabir, Məmməd Səid Ordubadi, Üzeyir bəy Hacıbəyov, Əbdürrəhim bəy Haqverdiyev, Yusif Vəzir Çəmənzəminli, Ömər Faiq Nemanzadə, Əliqulu Qəmküsar, Əli Nəzmi, Mirzə Əli Möcüz kimi görkəmli simaları birləşdirməyi bacarıb və böyük bir məktəb yaradıb: "Zülmə, əsarətə, avamlığa, qarşı kəskin mübarizə aparan Cəlil Məmmədquluzadə jurnalda karikaturalara geniş yer verməklə xalqı bir çox mətləblərdən agah edib".

Bundan əlavə, nəşrin 100 illik yubileyinin qeyd olunması ilə bağlı ölkə başçısı tərəfindən 23 yanvar 2006-cı ildə Sərəncam imzalandığı xatırladılıb, jurnalın latın qrafikası ilə yenidən çap olunduğu bildirilib.

Konfransda, həmçinin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun Ədəbiyyatşünaslıq şöbəsinin müdiri, filologiya üzrə fəlsəfə doktoru, dosent Ramiz Qasımovun "Molla Nəsrəddin" jurnalı və Mollanəsrəddinçilik", institutun direktoru, AMEA-nın müxbir üzvü Əbülfəz Quliyevin "Molla Nəsrəddin" jurnalı və dil məsələsi", Folklorşünaslıq şöbəsinin elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru Aytən Cəfərovanın "Molla Nəsrəddin" jurnalı və folklor", Memarlıq, şəhərsalma və abidələrin bərpası şöbəsinin laborantı Şəmsiyyə Zalovanın "Molla Nəsrəddin" jurnalında qrafika sənəti" mövzusunda məruzələri dinlənilib.

AMEA Naxçıvan Bölməsinin İnformasiya şöbəsi

# Braziliya ofşor kəşfiyyata başlayacaq



Braziliya hökuməti yeni ofşor neft yatağını hərraca çıxarmağı planlaşdırır.

Onlardan üçü Jacuipe hövzəsində, dördü Kamamu-Almada regionunda yerləşir.

Xatırladaq ki, Braziliyanın "IBAMA" ətraf mühit institutu sözügedən bloklarda kəşfiyyatın əleyhinə idi. İnstitut həmin ərazinin "həssas ərazi" olduğunu və bu kəşfiyyatın neft sızmalarına səbəb olacağını iddia edir. "Hər hansı bir sızma Abrolhos adalarında dəniz canlılarına zərər yetirəcək. Adalarda nadir mərcan lifləri və zəngin faunaya malik su milli parkları yerləşir",-deyə institutdan bildirilib.

ABŞ Enerji İnformasiyası Administrasiyasının statistik göstəricilərinə görə, Braziliya dünya üzrə doqquzuncu ən böyük neft hasilatçısıdır. 2016-cı ildə Braziliyada gündəlik 3,24 milyon barrel neft hasil edilib.

# İdman ölkəsi avropalı gəncləri gözləyir



**Standartları Bakıda yazılan Birinci Avropa, IV İslam Həmrəyliyi Oyunlarından sonra ölkəmizin Avropa Gənclərinin XV Yay Olimpiya Festivalına ev sahibliyi etməsi dünya sivilizasiyasında humanitar mərkəz, platforma kimi tanınan Azərbaycana maraqdan qaynaqlanır.**

Paytaxtımızda iyulun 21-27-də keçiriləcək "Bakı-2019" yarışlarında 50 Avropa ölkəsindən 3600-dən artıq idmançı və texniki heyət təmsil olunacaq. 12 arenada idmanın 10 növü - bədii gimnastika, atletika, basketbol, velosiped, həndbol, cüdo, üzgüçülük, tennis , voleybol, güləş üzrə keçiriləcək yarışlara əvvəlki ənənələrə uyğun olaraq 2500-dən artıq könüllü cəlb ediləcək.

Özünəməxsus ənənələri olan Olimpiya oyunlarının mərasimləri, məşəllərin alovlandırılması hazırlanmış proqramlar əsasında həyata keçirilir. Avropa Gənclərinin XV Yay Olimpiya Festivalının simvolu sayılan zeytun ağacı Azərbaycana təqdim olunacaq.

İlk dəfə 1990-cı ildə, Jak Roq tərəfindən irəli sürülən, iki ildən bir ( tək illərdə) qışda və yayda keçirilən Avropa Gənclər Olimpiya Festivalı Beynəlxalq Olimpiya Komitəsinin himayəsi ilə Avropa Olimpiya Komitəsi tərəfindən təşkil olunur. Bununla da Asiya Gənclər Oyunları və ya Panama Gənclər Oyunlarında sınanmış ənənələrin davam etdirilməsi imkanları yaranır.

Azərbaycanın olimpiya oyunlarında iştirakı həmişə uğurlu olmuşdur. Müstəqil ölkə kimi ilk dəfə Atlanta yarışlarında (1996) iştirak edən Azərbaycanın qismətinə 1 gümüş medal yazıldı. Sidney (2000) görüşü ölkəmizə 2 qızıl, 1 bürünc medal qazandırdı. Afinadan (2004) Azərbaycana 5 medalla qayıdan idmançılarımız Pekin (2008) yarışlarında 1 qızıl, 2 gümüş, 4 bürünc medalla pərəstişkarlarını sevindirdilər. Azərbaycana uğur gətirməklə idmançılarımızın dünya birliyində tanınmasına səbəb olan London XXX Yay Olimpiadası daha uğurlu oldu: qaliblər üçün nəzərdə tutulan medallardan 2 qızıl, 2 gümüş, 4 bürünc qazanmaqla ölkəmizə 10 medalla döndülər.

Çində keçirilmiş yeniyetmələrin Yay Olimpiya Oyunlarında gənclərimiz əlavə aktivlər qazandılar. 204 ölkənin iştirak etdiyi yarışlarda Azərbaycan yeniyetmələri komanda hesabında 10-cu yerə layiq görüldülər. Bu kimi tarixi nailiyyətlər gənclərimizin idmana maraq və həvəsini daha da artırdı. Azərbaycana 56 medal qazandıran Birinci Avropa Oyunları təsdiqlədi ki, ölkəmizdə perspektivli, güclü idmançılar nəsli yetişməkdədir. Avropa Oyunlarında iştirak edən idmançıların, qonaqların etiraf etdikləri kimi yarışları reallığa çevirmək üçün 27 ay ərzində yorulmadan çalışmaq məsuliyyəti hər xalqa nəsib olan keyfiyyət deyil. İlk Avropa Oyunlarının, Dünya Şahmat Olimpiadasının, 17 yaşadək futbolçular arasında Avropa çempionatının, bədii gimnastika üzrə Dünya Kubokunun, Formula 1" kimi beynəlxalq yarışların ölkəmizdə keçirilməsi Azərbaycanda idmanın inkişafına göstərilən diqqəti dünyaya bəyan etdi. Azərbaycana "Bakı-2017" İslam Həmrəyliyi Oyunlarının qalibi adını qazandıran amillər, bu sahədə qazanılan zəngin təcrübənin özünü doğrultduğunu göstərdi.

1993-cü ildən etibarən Olimpiya oyunlarında, xüsusilə cüdo və atletika üzrə yarışlarda çıxış edən idmançılarımız meydançaları çox vaxt qələbə ilə tərk edirlər. Avropa yeniyetmələrinin iştirak etdikləri 13 Olimpiya oyunlarının 10-da iştirak edən idmançılarımız Vətənimizə 17 qızıl, 10 gümüş, 18 bürünc medalla qayıtmışlar. Tbilisidə, Macarıstanda keçirilən Yeniyetmələrin Olimpiya festivalları da Azərbaycan idmançıları üçün uğurlu olmuşdur. Qitənin 50 ölkəsindən 3600-dən çox idmançının iştirak etdiyi yarışlarda komandamız 33-cü yerdə qərarlaşdı.

"Bu gün mən deyəndə ki, Azərbaycan idman dövlətidir, bax, bunu bu səbəblərə görə deyirəm. Birincisi, bizdə ən müasir idman infrastrukturu yaradılıb və bu infrastruktur imkan verir ki, biz bütün ən yüksək səviyyəli oyunları keçirək. Avropa Oyunlarının Azərbaycanda keçirilməsi bunun əyani sübutudur. İkincisi, Azərbaycan idmançıları müxtəlif yarışlarda, Olimpiya Oyunlarında, dünya çempionatlarında, Avropa çempionatlarında, yeniyetmələrin Olimpiya Oyunlarında həmişə yüksək pillələrdədir. İdmanın inkişafı və kütləviliyi ilə bağlı da çox düşünülmüş, ardıcıl siyasət aparılır və bu siyasət özünü artıq dəfələrlə göstərmişdir. Ona görə, əminəm ki, gələcək illərdə də beynəlxalq idman qurumları Azərbaycana həmişə böyük hörmətlə yanaşacaqlar. Biz də çalışacağıq ki, Azərbaycan idman dövləti kimi gələcəkdə də özünü göstərsin və öz imkanlarını ortaya qoysun" sözləri ilə ölkəmizdə idmanın inkişafına göstərilən diqqətin davamlı olacağını bildirən Prezident İlham Əliyevin vurğuladığı kimi medalların sayına görə Birinci Avropa Oyunlarında qazandığımız ikinci, İslam Həmrəyliyi Oyunlarında birinci yer idman tariximizə qələbə salnaməsi kimi yazıldı. Dünyada qüdrətli ölkə kimi tanınan Azərbaycan idmançılarının Birinci Avropa Oyunlarında 56, Rio Yay Olimpiya Oyunlarında 18 medal qazanaraq medalların sayına görə müsəlman ölkələri sırasında birinci yeri qazanması Azərbaycan dövlətinin iqtisadi potensialının, gənclərimizin istedad və bacarığının məntiqi nəticəsi idi.

"Bizim gənclərimiz idmanda böyük qələbələr qazanırlar, başımızı uca edirlər. Hər bir idman qələbəsi hər bir vətənpərvər vətəndaşı sevindirir, ruhlandırır" sözləri ilə gənclərin idmana artan marağının uğurlu nəticələrini ölkədə yaradılan idman obyektlərinin istifadəyə verilməsi ilə səciyyələndirən cənab İlham Əliyev bölgələrdə Olimpiya komplekslərinin sayının daha da artırılacağını bildirir. Yaradılan şəraitdən məmnun qalan və peşəkarlıqlarını, ustalıqlarını artıran Azərbaycan idmançılarının Avropa Gənclərinin XV Yay Olimpiya Festivalında da ölkəmizə nailiyyətlər qazandıracaqlarına əminik.

**Xuraman İsmayılqızı,**
***"İki sahil"***

# İnnovasiyalar ölkəsi

*Dövlətimizin başçısı İlham Əliyevin son bir ildə təhsil sisteminin təkmilləşdirilməsinə yönələn sərəncamları "Uğurlu iqtisadi tərəqqiyə məhz ali təhsil sisteminin beynəlxalq standartlar səviyyəsinə yüksəldilməsi sayəsində nail ola bilərik" çağırışına xidmət edir*



**Dövlətimizin başçısı İlham Əliyevin Gənclər Gününə həsr olunan ümumrespublika toplantısında "Azərbaycan gəncləri fəaldır, vətənpərvərdir, biliklidir, savadlıdırlar. Gənclər, mən sizə inanıram, güvənirəm" çağırışı gələcəyimiz kimi dəyərləndirilən gəncliyin qarşısında mühüm tələblər qoyur ki, bunlardan da biri təhsilə diqqətdir: "Mən bütün gənclərə üz tutub deyirəm ki, təhsilə çox böyük fikir versinlər. Çünki bugünkü dünyada bilik, savad ön plandadır. Bu gün dünya o qədər sürətlə inkişaf edir, texnologiyalar o qədər sürətlə qabağa gedir ki, bilik, savad olmadan həyatda öz layiqli yerini tapmaq çox çətindir. Gənclər peşəkar olmalıdırlar. İstənilən sahədə işləyən gənclər çalışmalıdırlar ki, öz peşəkarlıqlarını artırsınlar."**

Son bir ildə təhsilin inkişafı istiqamətində atılan addımlara diqqət yetirsək, bu çağırışın konkret addımlarda öz əksini tapdığını görərik. Dövlətimizin başçısı İlham Əliyevin ötən ilin mayında ADA Universitetində keçirilən məzun günündə də bu mühüm məqam xüsusi qeyd edilmişdir ki, uğurlu iqtisadi tərəqqiyə məhz ali təhsil sisteminin beynəlxalq standartlar səviyyəsinə yüksəldilməsi sayəsində nail ola bilərik. Təhsilin səviyyəsi dünyanın ən yüksək standartlarına cavab verməlidir: "Əgər biz buna nail ola bilsək, - mən inanıram ki, buna nail olacağıq, - onda ölkəmizin uzunmüddətli, dayanıqlı inkişafı təmin ediləcəkdir." Ölkəmizdə savadlılığın səviyyəsinin təxminən 100 faizə yaxın olması, təbii ki, uğurlu, təkmil islahatların, təhsilin inkişafına göstərilən diqqət və qayğının nəticəsidir.

Təhsilin inkişafında məktəblərin rolu önə çəkilərək, yenilərinin tikilməsi, yaxud əsaslı təmir olunması, maddi-texniki bazalarının daha da möhkəmləndirilməsi, kompyuterləşdirilməsi istiqamətində mühüm addımlar atılır. Heydər Əliyev Fondunun "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsi çərçivəsində 2 mindən artıq məktəb tikilib və ya yenidən təmir olunaraq istifadəyə verilib. Bu günümüzün əsas tələbləri sırasında "Hər şagirdə bir kompyuter" xüsusi yer tutur. Məqsəd budur ki, təhsilə ayrılan xərclərdən səmərəli istifadə olunsun, gənc nəslin dünyada gedən proseslərə uyğun, eyni zamanda, milli dəyərlərə əsaslanaraq inkişafı təmin edilsin.

Müasir dövrün sosial-siyasi reallıqlarının, dünyanın yeni çağırışlarının intellektual gənclik qarşısında qoyduğu mühüm vəzifələr əsas tutularaq ötən ilin sonunda Gənc alimlərin I qurultayının keçirilməsi təqdirolunan hadisələr sırasındadır. Qurultayda intellektual gəncliyin innovativ potensialının üzə çıxarılması, onların təhsil və məşğulluq məsələlərinə diqqətin artırılması, ölkəmizdə və xaricdə yaşayan gənc alimlərin fəaliyyətinin əlaqələndirilməsi istiqamətində işin gücləndirilməsi əsas hədəf kimi irəli sürüldü. Bütün bu addımlar ümumilikdə yenilikçi, müasir düşüncəyə malik olan gənclərin yeni texnologiyaların öyrənilməsinə və tətbiqinə marağının artırılması, ən əsası kadr hazırlığını iqtisadi inkişafın səviyyəsi ilə uyğunlaşdırmağa xidmət edir. Dövlətimizin başçısı İlham Əliyev Gənclər Günü münasibətilə ümumrespublika toplantısında bu məqama xüsusi diqqət yönəltmişdir: "Gənc alimlərimiz müxtəlif sahələrdə bizim elmi potensialımızı gücləndirirlər. Mənim təşəbbüsümlə bir neçə il bundan əvvəl Elmin İnkişafı Fondu, Gənclər Fondu yaradılmışdır. Bu fondlar vasitəsilə istedadlı gənclərə qrantlar verilir, müxtəlif tədqiqat proqramlarının həyata keçirilməsi üçün vəsait ayrılır. Yəni bizim gənclərimiz bu gün cəmiyyətdə çox fəal rol oynayırlar və əlbəttə ki, gələcəkdə siz ölkəmizi idarə edəcəksiniz. Ona görə bir daha demək istəyirəm ki, ilk növbədə, milli vətənpərvərlik yüksək səviyyədə olmalıdır. Hər bir gənc bilməlidir ki, bizim hamımızın əsas vəzifəsi dövlət müstəqilliyini möhkəmləndirməkdir, onu qorumaqdır... müstəqilliyi qorumaq üçün mütləq bilik, savad, vətənpərvərlik və milli təfəkkür olmalıdır."

Dövlətimizin başçısı İlham Əliyevin 16 noyabr 2018-ci il tarixli "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı"nın, həmçinin 23 noyabr 2018-ci il tarixli "Azərbaycan Respublikasında dövlət qulluğunun inkişafına dair 2019-2025-ci illər üçün Strategiya"nın təsdiqlənməsi haqqında sərəncamları uğurlu iqtisadi tərəqqinin kadr hazırlığının beynəlxalq standartlar səviyyəsinə uyğunlaşdırılmasından asılı olduğunu bir daha təsdiqləyir. Ali təhsil sisteminin rəqabətliliyinin artırılması öz növbəsində beynəlxalq əlaqələrin inkişafını, dünya təhsil sisteminə inteqrasiyanın sürətləndirilməsini bir tələb kimi ortaya qoyur.

Dövlətimizin başçısı İlham Əliyevin son "Ali təhsil müəssisələrində təqaüd sisteminin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər barədə, "Doktorantura, ali təhsil, orta ixtisas və peşə təhsili müəssisələrində, həmçinin Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində təhsil alan tələbələrə təqaüdlərin verilməsi haqqında" Sərəncamları, həmçinin "Azərbaycan Respublikasının ali məktəb tələbələri üçün Prezident təqaüdünün təsis edilməsi haqqında" Fərmanı da təhsilin inkişafına yönələn addımların davamlılığının göstəricisidir. Bu sənədlər ümumilikdə 110 min tələbəni əhatə edir. Bu kimi mühüm addımlar tələbələr arasında rəqabət mühitinin formalaşmasında əhəmiyyətli rol oynayır. Rəqabətin artması isə öz növbəsində təhsilin inkişafı və bunun davamı olaraq iqtisadi tərəqqiyə stimuldur. İqtisadiyyatın elmi əsaslara söykənməsi davamlı inkişafın əsasıdır. Ödənişli təhsil alan tələbələrin də təqaüd almaq imkanı əldə etməsi bu rəqabətin daha da artmasına öz müsbət təsirini göstərəcək. Təhsil sahəsində ən yüksək nəticələr əldə etmiş tələbələrə dövlət qayğısını gücləndirmək məqsədilə imzalanan Fərmana əsasən Prezident təqaüdünün həcmi 185 manatdan 210 manata artırıldı. 2019-cu ilin büdcə müzakirələri zamanı dövlət sifarişli yerlərin artırılması barədə qərarın qəbulu da təhsilin inkişafına xidmət edən addımlardandır. Növbəti tədris ilindən təqaüd yerlərinin 12324-dən 20500-ə çatdırılması nəzərdə tutulub. Bu da öz növbəsində dövlət sifarişli yerlərin 42 faizə çatdırılması deməkdir. Magistratura yerlərinin 25 faiz artırılması barədə qəbul olunan qərar da xoş xəbərlər sırasındandır.

Dövlət büdcəsindən ayırmalarda müdafiə xərclərindən sonra ikinci yerdə təhsil xərclərinin olması bu sahənin inkişafının nə qədər önəmli olduğunu təsdiqləyir. Hər bir dövlətin müstəqilliyinin, suverenliyinin, təhlükəsizliyinin təminatında müdafiə qüdrəti nə kimi böyük rol oynayırsa, inkişafında, tərəqqisində də təhsilin rolu elə dəyərləndirilir. Prezident kimi fəaliyyətə başladığı gündən cənab İlham Əliyev "Neft kapitalını insan kapitalına çevirək" tezisini irəli sürərək, bu istiqamətdə davamlı addımlar atdı. Təhsilin, elmin və iqtisadiyyatın vəhdətliyinin prioritetliyi atılan addımlardan da aydın görünür. Bir faktı nəzərə alsaq ki, iqtisadiyyatla elm zəncirvari şəkildə bir-biri ilə sıx bağlıdır, bu halda dövlətin təhsilin və elmin inkişafına göstərdiyi diqqətin mahiyyəti daha qabarıq şəkildə özünü büruzə verər. İqtisadiyyatı inkişaf etdirən yeni texnologiyalardır. Məhz İKT sektorunda əldə olunan uğurlara söykənərək, bu fikri böyük əminliklə qeyd edirik ki, Azərbaycan bu gün dünyada təkcə neft-qaz ehtiyatlarına malik ölkə deyil, həmçinin yüksək səviyyəli elmi potensiala malik və informasiya-kommunikasiya texnologiyalarının tətbiq olunduğu innovasiyalar ölkəsi kimi tanınır.

✍ **Yeganə Əliyeva,**
***"İki sahil"***

# Sağlam ekoloji mühit başlıca şərtdir



Heydər Əliyev adına Neft Emalı Zavodunun direktoru Elman İsmayılov sağlam ekoloji mühitin yaranması üçün lazım olan bütün tədbirlərin həyata keçirilməsinə daim kömək edir. Təmiz, gözəl və aydın səma, o cümlədən ekoloji mühitin daim varlığı üçün müəssisə özünün ekologiya sahəsindəki siyasətinin müəyyən etdiyi məqsəd və məramları, Ekologiya İdarəetmə Proqramını, Ekologiya İdarəetmə Sistemini TSE ISO EN-14001:2015 beynəlxalq standartının tələbləri səviyyəsində qurараq onların həyata keçirilməsi üçün götürdüyü öhdəlikləri məsuliyyətlə yerinə yetirir.

Zavodun Əməyin Təhlükəsizliyi və Keyfiyyətə Nəzarət Departamentinin rəisi Güləli Ağamirovun rəhbərliyi ilə həmin departamentin Ekologiya şöbəsinin mühəndisləri ekoloji vəziyyətin pisləşməsinin qarşısını almaq, onun mühafizəsini gücləndirmək üçün öz fəaliyyətlərini qəbul olunmuş normativ və qanunvericilik prinsipləri əsasında qurmuşlarr.

Belə ki, Ekologiya şöbəsinin işçiləri mütəmadi olaraq zavodun istehsalat və sahələrində olarkən daim neft və neft məhsulları saxlanılan çənlərin düzgün istismarı zamanı havaya atılan karbohidrogenlərin miqdarına, çənlərin təmizlənməsi zamanı tullantıların yığılması və zərərsizləşdirilməsinə, bərk, məişət tullantıların yığılması və kənarlaşdırılmasına, içməli və texniki suların uçotunun aparılması və sərfinin limitə uyğun təmin edilməsinə, ərazilərin abadlığı və səliqəliliyinə, yaşıllıqlara qulluğun təmin edilməsinə, torpağın mühafizəsinə, istehsalat və sahələrində ekoloji monitorinq işlərinin, TSE ISO EN-14001:2015 İdarəetmə Sistemi üzrə prosedurların tələblərinin yerinə yetirilməsinə və bu standart üzrə maarifləndirmənin aparılmasına nəzarət edirlər.

Zavodumuz TSE ISO EN-9001:2015 keyfiyyət, TSE ISO EN-14001:2015 ekologia, ISO OHSAS TS-18001 əməyin mühafizəsi və təhlükəsizliyi Beynəlxalq İdarəetmə standartlarının tələbləri səviyyəsində fəaliyyət göstərir.

Zavodun fəaliyyət predmeti yüksək neft məhsulları emal etməkdir. Təbii ki, istehsalat fəaliyyəti nəticəsində ətraf mühitə zərərli maddələrin atılması, ekoloji duruma müəyyən dərəcədə mənfi təsir göstərir. Bu zaman zavodda müxtəlif tullantılar formalaşır. Bunlar istehsalat və məişət tullantılarıdır.

Müəssisənin siyasətinə uyğun olaraq tullantıların ətraf mühitə təsirinin azalması təkrar emalı müəyyən edir. İstehsalat sahələrində olan bütöv növ tullantılarla əlaqədar yarana biləcək risklər təyin edilərək nəzarətdə saxlanılır. Müəssisəmizdə əmələ gələn tullantılarla bağlı bir sıra işlər görülmüşdür.

SOCAR-ın Ekologiya İdarəsi ilə zavod arasında bağlanmış müqavilə əsasında tullantılar Tullantıların İdarə Olunması Mərkəzinə çatdırılır.

Zavodun istehsalat və sahələrində olan xətlər "Kanalizasiya xətlərinin, quyuların və hidrobağlayıcıların təmiri və təmizlənməsi haqqında" göstəriş, istehsalat və sahə rəhbərlərinin təqdim etdikləri aktlara əsasən təmizlənmiş və təmir olunmuşdur.

Zavodun istehsalat və sahələri tərəfindən sərf olunmuş suyun miqdarına nəzarət etmək üçün 30 ədəd su sayğacları alınıb quraşdırılmışdır. Nəticədə suyun miqdarı azalmış və su itkisinin qarşısı alınmışdır.

Zavodun ekoloji vəziyyətinin yaxşılaşdırılmasına dair proqnozlaşdırılan yenidənqurma və modernizasiya layihəsi çərçivəsində yeni çirkab suların təmizlənməsi qurğusu, kükürd istehsalı qurğusu, turş suların təmizlənməsi qurğusu və yeni məşəl qülləsinin inşası nəzərdə tutulmuşdur.

Yeni çirkab suların təmizlənməsi qurğusu mexaniki təmizlənmə, bioloji təmizlənmə və sanitar suların təmizlənməsi bloklarından ibarət olacaq.

Ətraf mühitin mühafizəsi üzrə aşağıda göstərilən işlər həyata keçirilmişdir:

* Bağlanılmış müqavilə əsasında "Ekol Mühəndislik Xidmətləri" QSC tərəfindən 1833259 m3 istehsalat tullantı sularının təmizlənməsi aparılmışdır;

* "Ekol Mühəndislik Xidmətləri" QSC tərəfindən "Alfa-Laval" qurğusu vasitəsilə 12446 ton miqdarında neft şlamın zərərsizləşdirilməsi aparılmışdır;

* 19 №-li sahədə yağların təmizlənməsi zamanı alınan 346 ton turş qudron regenerasiya olunmuşdur;

* Zavodun istehsalat və sahələrində 850 $m^3$ bərk məişət tullantıları əmələ gəlmişdir. Həmin tullantı Bakı Şəhər İcra hakimiyyəti Mənzil-Kommunal Təsərrüfatı Departamentinin "Kommunal Xidmətlər Müəssisəsi" MMC və Nizami Rayon MKTB tərəfindən Balaxanı Məişət Tullantılarının Çeşidlənməsi Zavoduna daşınmışdır;

* 54,7 ton miqdarında istehsalat tullantısı olan "İşlənmiş qumbrin" 1,722 ton miqdarında təşkilati avadanlıqlar, 0,54 ton miqdarında boya qabları, 1,5 ton miqdarında sellüloz tullantıları (kağız) təkrar emal etmək üçün SOCAR-ın Ekologiya İdarəsinin Tullantıların İdarə Olunması Mərkəzinə daşınmışdır. Bundan əlavə olaraq 2296,78 ton qara metal təhvil verilmişdir;

* 100 ədəd meyvə ağacı, 150 ədəd qızılgül kolları, 600 m2 sahədə ot toxumu (qazon) əkilmiş, 300 m2 sahəyə isə çim döşənmişdir. Zavodda olan yaşıllıq ərazilərində abadlaşdırma işləri aparılmış və aqrotexniki qulluq işləri davam etdirilir.

✍ **Əjdər Mustafayev,**
*SOCAR-ın Heydər Əliyev adına Neft Emalı Zavodunun şöbə rəisi*

## İri taxılçılıq təsərrüfatlarına üstünlük veriləcək



Kənd Təsərrüfatı Nazirliyində iri taxılçılıq təsərrüfatları və aqroparkların nümayəndələri ilə görüş keçirilib. "İki sahil" xəbər verir ki, kənd təsərrüfatı nazirinin müavini İlham Quliyevin sədrliyi ilə keçirilən görüşdə əsasən taxıl biçininə hazırlıq, kombayn və texnikalarla təminat məsələləri müzakirə olunub.

Görüşdə iri taxılçılıq təsərrüfatlarının nümayəndələrinin diqqətinə çatdırılıb ki, bu il başlayacaq taxıl biçini mövsümündən etibarən "Aqrolizinq" ASC-nin balansında olan kombayn və texnikalar vasitəsilə ilk növbədə 50 hektardan aşağı sahəsi olan fermerlərin taxıl sahələrinin biçilməsinə üstünlük veriləcək. Yalnız bundan sonra iri taxılçılıq təsərrüfatlarına xidmət göstəriləcək. Görüşdə aqropark nümayəndələrinə lizinq yolu ilə öz kombaynlarını əldə etmək tövsiyə olunub.

Tədbirdə vurğulanıb ki, iri taxılçılıq təsərrüfatları hazırda Azərbaycanda kənd təsərrüfatı texnikasının satışı ilə bağlı mövcud olan yeni qaydalara əsasən dövlət tərəfindən 40 faiz güzəşt tətbiq olunmaqla, 20 faiz ilkin ödəniş əsasında, yerdə qalan hissəni isə uzunmüddətli, faizsiz kredit əsasında "Aqrolizinq" ASC və ya özlərinin istədikləri təchizatçı şirkətlərdən əldə edə bilərlər.

Görüşün sonunda iri taxılçılıq təsərrüfatlarının təmsilçiləri ilə bu movzu ətrafında fikir mübadiləsi aparılıb, onların sualları ətraflı cavablandırılıb.

## "Veysəloğlu"nun sosial layihəsi başa çatıb




"Veysəloğlu" Şirkətlər Qrupunun təşkilatçılığı, İnformasiya-Kommunikasiya Texnologiyalarının Tətbiqi və Tədrisi Mərkəzinin, həmçinin "Peşəyönümlü təhsilin inkişafına yardım" İctimai Birliyinin tərəfdaşlığı ilə keçirilən sosial layihə başa çatıb. Belə ki, 3 ay davam edən layihədə iştirakçılara "Veb Dizayn" (saytın layihələnməsi, yaradılması və idarəedilməsi) dərsləri ödənişsiz olaraq peşəkar səviyyədə tədris olunub. "Veb dizayn" layihəsində fərqlənən tələbələrə Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin və "Veysəloğlu" şirkətlər qrupunun sertifikatları təqdim olunub.

Xatırladaq ki, "Veb dizayn" sosial layihəsində Qarabağ müharibəsində və Aprel döyüşlərində şəhid olan, həmçinin əlillik dərəcəsi alan şəxslərin övladları, eyni zamanda yaxın qohumları iştirak ediblər.

Qeyd edək ki, "Veysəloğlu" Şirkətlər Qrupunun "Veb Dizayn" kimi kursları təşkil etməkdə məqsədi bu sahəyə marağı olan gənclərin bilik və bacarıqlarını artırmaq, peşəkar səviyyəyə çatdırmaq, habelə kursu bitirərək iş tapmalarına yardımçı olmaqdır.

Səhifəni hazırladı: Orxan Vahidoğlu, *"İki sahil"*

# GÜCLÜ SOSİAL SİYASƏT:

# Başlıca hədəf əhalinin rifahının təminatıdır

**Ölkə Prezidenti cənab İlham Əliyevin 15 aprel 2019-cu il tarixdə imzaladığı Sərəncam və fərmanlar bir sıra kateqoriyalardan olan vətəndaşlara sosial müavinətlərin və Prezident təqaüdlərinin aprelin 1-dən orta hesabla 100 faiz artırılmasını, yeni təqaüd növlərinin təsis olunmasını təmin edir.**



Bu sənədlər dövlət başçısının uğurlu sosial islahatlar paketinin növbəti nailiyyəti olmaqla, əhalinin, xüsusilə həssas qruplardan olan vətəndaşların rifah halının yaxşılaşdırılmasında əhəmiyyətli addımın atılması deməkdir.

Belə ki, "Sosial müavinətlərin məbləğinin artırılması haqqında" ölkə Prezidentinin 2013-cü il 29 avqust tarixli 973 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" 15 aprel 2019-cu il tarixli Fərmana əsasən aprelin 1-dən əlillik "ümumi xəstəlik", "hərbi xidmət dövründə xəstələnmə", "əmək zədəsi və peşə xəstəliyi", "hərbi əməliyyatlar keçirilən zonada olmaqla əlaqədar", "Çernobıl AES-də qəzanın ləğvi ilə əlaqədar", "Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar" və "1990-cı ilin 20 Yanvar hadisələri ilə əlaqədar", "Çernobıl AES-də hərbi xidmətlə əlaqədar" və ya "hərbi xidmət vəzifələrini yerinə yetirməklə əlaqədar" səbəbindən baş verdikdə aylıq müavinətin məbləği I dərəcə əlilliyi olan şəxslər üçün 150 manata, II dərəcə əlilliyi olan şəxslər üçün 130 manata, III dərəcə əlilliyi olan şəxslər üçün 110 manata, uşağın anadan olmasına görə birdəfəlik müavinət isə 200 manata çatdırılır.

Aylıq müavinətin məbləği yaşa görə müavinət alanlar üçün 130 manat, sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlar üçün 150 manat, ailə başçısını itirməyə görə 80 manat (hər nəfər üçün), müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının uşaqları üçün 100 manat (hər uşaq üçün), valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların qəyyumları üçün (himayəçilərinə) müavinət 100 manat, dəfn üçün birdəfəlik müavinət 300 manat müəyyən olunub. Fərmanda 2013-cü il 29 avqust tarixli 973 nömrəli Fərmanın müvafiq yarımbəndindəki "müharibə əlillərinin, 20 Yanvar hadisələri zamanı əlil olanların, Çernobıl qəzası nəticəsində I və II qrup əlil olmuş" sözlərinin "müharibə ilə və ya 1990-cı ilin 20 Yanvar hadisələri ilə əlaqədar əlilliyi olan şəxslərin, Çernobıl qəzası nəticəsində I və II dərəcə əlilliyi müəyyən edilmiş" sözləri ilə əvəz edilməsi tapşırılır.

İmzalanan digər bir Fərmanla isə beşdən çox uşağı olan qadınlara sosial müavinətin məbləği 55 manata (hər uşaq üçün) çatdırılır.

15 aprel 2019-cu il tarixdə imzalanan daha bir Fərmanla "Müharibə əlillərinə Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi haqqında" 2008-ci il 9 sentyabr tarixli 823 nömrəli Fərmanda "Müharibə əlillərinə" sözlərinin "Müharibə və ya 1990-cı ilin 20 Yanvar hadisələri ilə əlaqədar əlilliyi olan şəxslərə" sözləri, "əlil olan" sözlərinin "əlilliyi müəyyən olunmuş" sözləri ilə əvəz edilməsi tapşırılır. Həmçinin qeyd olunan 2008-ci il 9 sentyabr tarixli 823 nömrəli Fərmanın aid olduğu şəxslərin (Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyü uğrunda döyüşlərdə, cəbhədə olmaqla və ya döyüş əməliyyatları aparılan ölkələrdə beynəlmiləl borcu yerinə yetirməklə bağlı, həmçinin hərbi xidmət vəzifələrini (xidməti vəzifələri) yerinə yetirərkən sağlamlıqlarını itirərək əlilliyi müəyyən edilmiş şəxslərin) sırasına 1990-cı ilin 20 Yanvar hadisələri ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslər də daxil edilir. Beləliklə, Prezidentin aylıq təqaüdü Fərmanın əhatə etdiyi kateqoriyalardan olan I dərəcə əlilliyi olan şəxslərə 250 manat, II dərəcə əlilliyi olan şəxslərə - 230 manat, III dərəcə əlilliyi olan şəxslərə - 210 manat müəyyən olunur.

Dövlət başçısının imzaladığı digər bir Fərman isə ümumi xəstəliklə, hərbi xidmət dövründə xəstələnmə ilə, əmək zədəsi və peşə xəstəliyi ilə, hərbi əməliyyatlar keçirilən zonada olmaqla əlaqədar, Çernobıl AES-də qəzanın ləğvi ilə bağlı səbəblərdən I qrup əlilliyi olan şəxslərə (əlilliyə görə aylıq sosial müavinət və ya əmək pensiyası almasından asılı olmayaraq) Prezidentin aylıq təqaüdü kimi 100 manat təqaüdün verilməsini nəzərdə tutur. Beləliklə, bu Fərman bir tərəfdən həmin kateqoriyalardan olan I qrup əlilliyi olan şəxslərə Prezidentin aylıq təqaüdünün artırılaraq 100 manata çatdırılmasını, digər tərəfdən, həmin təqaüdün əmək pensiyası alan I qrup əlilliyi olan şəxslərə də ödənilməsini (bu vaxta qədər yalnız aylıq sosial müavinət alan I qrup əlilliyi olan şəxslərə ödənilirdi) təmin edir.

Prezident İlham Əliyevin 15 aprel 2019-cu il tarixli digər Fərmanında isə I dərəcə əlilliyi olan şəxslərə və ya sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlara qulluq edən şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdü təsis edilməsi və onun aylıq məbləği 50 manat müəyyən olunması nəzərdə tutulur. Bu Fərmanda həmin təqaüdün 2019-cu il aprelin 1-dək I dərəcə əlilliyi olan şəxslərə və ya sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlara münasibətdə "Əmək pensiyaları haqqında" Qanunda nəzərdə tutulmuş qulluq üçün əmək pensiyasının sığorta hissəsinə əlavə əvəzinə və təqaüdü almaq hüququ olan şəxslərdən yalnız birinə ödənildiyi qeyd olunur.

"Müharibə veteranlarına Azərbaycan Respublikası Prezidentinin təqaüdü"nün təsis edilməsi haqqında" 15 aprel 2019-cu il tarixli Fərmanda isə müharibə veteranlarına Prezidentin aylıq 80 manat məbləğində təqaüdünün təsis olunması tapşırılır. Fərmanda qeyd olunur ki, bu təqaüd 2019-cu il aprelin 1-dək kommunal, nəqliyyat və digər xidmətlərə görə sosial müavinət alan şəxslərə həmin sosial müavinətin əvəzinə, əmək pensiyası alan və döyüşən ordunun tərkibində xidmət etmiş müharibə iştirakçılarına (Böyük Vətən müharibəsi iştirakçıları istisna olmaqla), habelə döyüş əməliyyatı aparılan ölkədə hərbi xidmət borcunu yerinə yetirmiş hərbi qulluqçulara əmək pensiyasının sığorta hissəsinə əlavə əvəzinə verilir.

Prezident İlham Əliyevin aprelin 15-də imzaladığı daha bir sənədlə - "1941-1945-ci illər Böyük Vətən müharibəsi iştirakçılarına, İkinci Dünya müharibəsi dövründə Leninqrad şəhərinin mühasirəsi zamanı şəhərin müəssisələrində, idarə və təşkilatlarında işləmiş və "Leninqradın müdafiəsinə görə" medalı, "Leninqrad mühasirəsində yaşayan" döş nişanı ilə təltif edilmiş şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 2 iyul tarixli 2320 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə" Sərəncamla isə həmin kateqoriyalardan olan vətəndaşlara Prezidentin aylıq təqaüdünün məbləği 150 manata çatdırılır.

Beləliklə, imzalanan Sərəncam və fərmanlar 600 minədək şəxsin (o cümlədən 300 min əlilliyi olan şəxsin) sosial müavinətlərinin, Prezidentin aylıq təqaüdlərinin ciddi şəkildə artırılmasını, əlavə olaraq bir sıra kateqoriyalardan olanlar üçün Prezidentin aylıq təqaüdlərinin təsis olunması ilə sosial təminat sisteminin əhatə dairəsinin daha da genişlənməsini nəzərdə tutur.

Qeyd olunan məqsədlər üçün əlavə olaraq illik 400 milyon manat ayrılmaqla, sosial müavinət və təqaüdlərin verilməsinə yönələn illik vəsait 2 dəfə artırılacaq.

Bütün bu addımlar Prezident İlham Əliyevin güclü sosial siyasətinin başlıca hədəfinin əhalinin rifahının təminatı olduğunu, bu siyasətin əsasında vətəndaş amili, sosial ədalət və humanizm prinsiplərinin dayandığını bir daha təsdiq edir və ictimaiyyət tərəfindən rəğbətlə qarşılanır.

## Dünya Bankı:
# Azərbaycan iqtisadiyyatı 2020-ci ildə 3,5 faiz artacaq




Prezident İlham Əliyevin hərtərəfli əsaslandırılmış strateji inkişaf kursu əlverişli geosiyasi mövqeyə, zəngin təbii-iqtisadi potensiala malik olan Azərbaycanı bütün dünyaya siyasi və makroiqtisadi baxımdan sabit məkan, davamlı və dayanıqlı iqtisadi inkişafa malik ölkə, enerji təhlükəsizliyinin təmin olunmasında etibarlı tərəfdaş, qlobal və regional enerji, nəqliyyat-kommunikasiya layihələrinin fəal iştirakçısı, tərəfdaş ölkələrlə qarşılıqlı faydalı əməkdaşlıq əlaqələrini daim inkişaf etdirən, bütün bəşəriyyəti narahat edən məsələlərin müzakirə edildiyi nüfuzlu beynəlxalq tədbirlər məkanı kimi tanıdıb, ona olan etimadı daha da möhkəmləndirib.

Əldə olunan uğurlar, ilk növbədə, ölkə rəhbərliyinin siyasi iradəsi və qətiyyətli addımları, ictimai-siyasi sabitliyin qorunub saxlanılması, dövlət idarəçiliyinin səmərəli təşkili, iqtisadi inkişafda əsas hədəflərin dəqiq müəyyən edilməsi, islahatların davamlı xarakter daşıması, dövlət proqramlarının reallaşdırılması sayəsində mümkün olub.

Aparılan iqtisadi islahatlar nəticəsində ölkədə maliyyə sabitliyi və iqtisadi artım bərpa olunub, bir çox sahələrdə, xüsusilə kənd təsərrüfatı, qeyri-neft sənayesi və digər sektorlarda əhəmiyyətli irəliləyiş əldə edilib. Sahibkarlığa dəstək məqsədilə biznes mühitinin bütün sahələri, xüsusilə biznesə başlama, tikinti üçün icazələrin alınması, elektrik təchizatı şəbəkələrinə qoşulma, maliyyə mənbələrinə çıxış imkanlarının artırılması, vergilərin ödənilməsi, əmlakın qeydiyyatı, xarici ticarətin aparılması istiqamətində ciddi irəliləyiş baş verib.

Bu gün Azərbaycan nüfuzlu beynəlxalq təşkilatların keçirdikləri reytinqlərdə nəinki MDB dövlətlərini, hətta dünyanın bir çox inkişaf etmiş ölkələrini geridə qoyur. Azərbaycan Prezidentinin rəhbərliyi ilə həyata keçirilən islahatlar, öz növbəsində, "Doing Business 2019" hesabatında Azərbaycanın ümumi reytinqdə yeni rekorda imza atmasına, eləcə də əksər indikatorlar üzrə mövqeyinin daha üst səviyyəyə qalxmasına imkan verib. Belə ki, 2018-ci il oktyabrın 31-də Dünya Bankı tərəfindən yayılan "Doing Business 2019" hesabatında Azərbaycan dünyanın 10 ən islahatçı dövləti siyahısına daxil edilərək dünyanın ən çox islahat aparan ölkəsi elan olunub. Yeni hesabatda Azərbaycanın mövqeyi 2017-ci illə müqayisədə 32 pillə irəliləyərək 190 ölkə arasında 25-ci yerdə qərarlaşıb, dünyanın bir çox ölkələrini geridə qoymaqla Müstəqil Dövlətlər Birliyi ölkələri arasında lider mövqeyə yüksəlib. "Doing Business 2019" hesabatında Azərbaycan dünyanın ən çox islahat aparan ölkəsi elan olunub.

Azərbaycanda Dayanıqlı İnkişaf Məqsədləri üzrə vəzifələrin icrası istiqamətində görülən işlər beynəlxalq miqyasda müsbət dəyərləndirilir.

Bu günlərdə Dünya Bankının hesabatında Azərbaycanın iqtisadi artım proqnozunu yaxşılaşdırması bunun əyani təsdiqidir. Belə ki, Dünya Bankının Avropa və Mərkəzi Asiya üzrə yenilənmiş hesabatında Azərbaycan iqtisadiyyatının 2020-ci ildə 3,5 faiz, 2021-ci ildə isə 3,7 faiz artacağını proqnozlaşdırıb. Bundan əvvəlki hesabatla müqayisədə Azərbaycan iqtisadiyyatının artımı üzrə proqnoz müvafiq olaraq 0,2 faiz və 1 faiz bəndi yüksəlib.

Hesabatda bildirilir ki, 2018-ci ildə Azərbaycan iqtisadiyyatı orta sürətlə artıb, buna sabit neft hasilatı və daxili tələbata orta artım imkan verib. Nəticədə ötən il real ÜDM 1,4 faiz artıb. Neftdən gəlirlər əhəmiyyətli dərəcədə çoxaldıqca fiskal xərclər və real əməkhaqqı da artıb.

Təbii qaz ixracının artımının ortamüddətli perspektivdə iqtisadi inkişafı sürətləndirəcəyi proqnozlaşdırılır.

Ötən il qeyri-enerji sektoruna investisiyalar 22 faiz yüksəlib.

Hesabata əsasən, ölkənin beynəlxalq ehtiyatları 5,6 milyard dollaradək artıb. Azərbaycan Dövlət Neft Fondunun aktivləri 38,5 milyard dollara çatıb ki, bu da ÜDM-in 82 faizini təşkil edir.

**Zahid Rza,**
***"İki sahil"***

# "KOB Dostu" Sumqayıtda



Aprelin 17-də Sumqayıt şəhərində İqtisadiyyat Nazirliyinin tabeliyində Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin "Kiçik və Orta Biznesin Dostu" ("KOB Dostu") fəaliyyətə başlayıb.

Bununla bağlı Sumqayıt Şəhərindəki Heydər Əliyev Mərkəzində sahibkarların iştirakı ilə tədbir keçirilib. Şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcov Sumqayıtda özəl sektorun inkişafı istiqamətində həyata keçirilən tədbirləri diqqətə çatdırıb, digər dövlət dəstəyi mexanizmləri kimi, "KOB Dostu"nun da sahibkarlıq fəaliyyətinin genişlənməsində və biznesə yeni başlayanlar üçün əhəmiyyətli olacağını vurğulayıb. Şəhər rəhbəri qeyd edib ki, ölkədə həyata keçirilən uğurlu iqtisadi siyasətin məntiqi nəticəsi olaraq Sumqayıt şəhərinin sosial iqtisadi inkişafı əhəmiyyətli irəliləyişlər əldə edilib. Qeyri-neft sektorunun mühüm tərkib hissəsi olan sənayenin inkişafı, bu sahədə yeni istiqamətlərin müəyyənləşdirilməsi şübhəsiz ki, iqtisadiyyatın inkişafına mühüm töhfələr verir. Yeni sənaye müəssisələrinin fəaliyyətə başlaması, eyni zamanda, özəl sektorun inkişafı ilk növbədə yeni iş yerlərinin açılmasına, əhalinin məşğulluğunun artırılmasına səbəb olur.

Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin İdarə Heyətinin sədri Orxan Məmmədov "KOB Dostu" konsepsiyası, kiçik və orta sahibkarlara göstərilən xidmətlər barədə məlumat verib. Sahibkarları "KOB Dostu" ilə fəal əməkdaşlığa dəvət edən Agentlik sədri 2019-cu il ərzində ölkənin digər şəhər və rayonlarında fəaliyyətə başlayacaq KOB dostları, eləcə də Agentliyin digər dəstək mexanizmləri barədə də danışıb.

Tədbir çərçivəsində "KOB Dostu" ilə bağlı təqdimat keçirilib, fəaliyyət istiqamətləri və göstərəcəyi xidmətlər barədə məlumat verilib, sahibkarların sualları cavablandırılıb.

Tədbirdə çıxış edən sahibkarlar özəl bölmənin, xüsusilə kiçik və orta biznesin inkişafına göstərilən davamlı dəstəyə görə dövlət başçısına minnətdarlıq ediblər.

**Orxan Vahidoğlu,**
***"İki sahil"***

# YAP gəncləri cəmiyyətimizin fəal təbəqəsidir



Dünən Yeni Azərbaycan Partiyası Masallı rayon təşkilatı aparatında fəal partiya üzvləri ilə görüş keçirilib. YAP Masallı rayon təşkilatının sədri Seyfəddin Əliyev bildirib ki, Azərbaycan gəncliyi ölkənin daxili ictimai-siyasi, həmçinin sosial-iqtisadi və digər sferalarında aktiv fəaliyyət göstərir, intellektual imkanları və kreativliyi ilə dövlətçiliyimizin möhkəmləndirilməsi işinə öz töhfəsini verir: "Azərbaycan gəncliyi ölkəmizi beynəlxalq aləmdə də layiqincə təmsil edir, dövlətimiz haqqında həqiqətlərin dünya ictimaiyyətinin diqqətinə çatdırılmasında, mədəni-mənəvi irsimizin təbliğ olunmasında fəallıq nümayiş etdirirlər. Məhz bütün bunlar gəncliyimiz üçün dövlətimiz tərəfindən yaradılmış əlverişli imkanlar, verilmiş mükəmməl təhsil və özünü təsdiqləmək üçün ideal məkan əsasında ərsəyə gəlib. Müasir Azərbaycan gəncliyi unutmur ki, onlar müstəqil dövlətin azad gəncləri olaraq, bugünkü uğurlara məhz ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu və hazırda Prezident İlham Əliyevin uğurla davam etdirdiyi siyasi kurs nəticəsində sahib olublar".

Seyfəddin Əliyev bildirib ki, partiyanın gəncləri cəmiyyətimizin fəal təbəqəsi kimi özünü təsdiqləyib: "Gənclərimiz yüksək vətəndaş mövqeyi, ictimai-siyasi proseslərdə fəallıq və yüksək vətənpərvərlik nümayiş etdirirlər. Eyni zamanda, Heydər Əliyev ideyalarına sədaqət, dövlətə və dövlətçiliyə bağlılıq, Prezident İlham Əliyevin siyasətini birmənalı şəkildə dəstəkləmək gənclərimizin əsas xarakterik keyfiyyətləri sırasındadır. Onlar cəmiyyətdəki yerini və rolunu yaxşı bilir və öz rollarını qiymətləndirməyi bacarırlar".

Tədbirdə iştirak edən gənc YAP üzvlərindən Nemət Abdullayev, Ülvi Rufullayev, Rövşən Muxtarov və başqaları çıxışlarında qeyd ediblər ki, gəncliyə göstərilən dövlət qayğısı sabaha, uğurlara hesablanan bir siyasətdir və bu siyasət sağlam, intellektual nəslin formalaşmasına xidmət edir.

**Taleh Bağırov, *"İki sahil"***

# Deputat Qazaxıstandakı seçkilərdən danışdı

Azərbaycan Qazaxıstanda baş verən hadisələri həmişə diqqətlə izləyir.

Trend-in məlumatına görə, bunu Azərbaycan deputatı Aydın Mirzəzadə "Kazinform" agentliyinə müsahibəsində deyib.

A.Mirzəzadə əmin olduğunu bildirib ki, Qazaxıstanda növbədənkənar seçkilər Nursultan Nazarbayevin mütərəqqi kursunun davam etdirilməsi məqsədilə yeni dövlət başçısını seçməyə imkan verəcək: "Şübhə yoxdur ki, seçkilər demokratik, qanuna və hüquq normalarına uyğun şəkildə keçiriləcək. Qazaxıstan bu seçkilərlə müasir tarixinin yeni səhifəsini açacaq. Qazaxıstana bu seçkiləri ən yüksək səviyyədə keçirməyi, dünyaya öz demokratik dəyərlərini göstərməyi arzulayırıq".



Deputat vurğulayıb ki, Qazaxıstan Azərbaycanın böyük dostudur: "Ölkə müstəqillik əldə etdikdən sonra regionda sülhün, təhlükəsizliyin, sabitliyin təmin olunması baxımından çox şey edib. Atılmış addımlar güclü, müstəqil və demokratik dövlət qurmaq imkanı verib".

O əlavə edib ki, Azərbaycanın deputat korpusu Qazaxıstanda növbədənkənar seçkilərin elan olunmasına hörmət və anlayışla yanaşır: "Bu, ölkənin Konstitusiyasında yer alan daxili siyasi prosesdir. Biz bu prosesi izləyəcəyik və heç bir şübhə yoxdur ki, seçkilər qanun çərçivəsində, demokratik ab-havada keçiriləcək və xalq öz layiqli övladını seçəcək".

Qeyd edək ki, ölkəyə 30 ilə yaxın müddətdə rəhbərlik edən N.Nazarbayev martın 20-də istefa verib. Bundan əvvəl Senatın sədri olan, hazırda prezident səlahiyyətlərini icra edən K.Tokayev növbədənkənar prezident seçkilərinin iyulun 9-da keçiriləcəyini bəyan edib.



# Nikol Paşinyan necə "yalançı Nikol" oldu?

Qvami Məhəbbətoğlu

**Ermənistanda ictimai-siyasi vəziyyət daha da gərginləşməkdə davam edir. Bitib-tükənməyən problemlərdən, həm də Paşinyan hakimiyyətinin özbaşınalıqlarından cana doymuş əhali artıq ayağa qalxmaqdadır. Məsələn, Armavir vilayətinin Zartonk kəndinin sakinləri pay torpaqlarının qeyri-qanuni yolla əllərindən alınmasına etiraz ediblər. Bu aksiya zamanı insident də baş verib; nəticədə 7 nəfər yaralanıb. Srağagün isə İrəvanın mərkəzində baş vermiş hadisə zamanı 3 nəfər güllə yarası alıb. Onlardan biri həyatını itirib. Ölən şəxsin "Ararat-2" futbol komandasının qapıçısı olduğu bildirilir.**

Baş nazir Nikol Paşinyanın "Çiçəklənən Ermənistan" Partiyasının lideri Qaqik Sarukyana məxsus, Ermənistanın inşaat sektorunun 80 faizini əhatə edən "Araratsement"in rentabelli olmadığını əsas gətirərək müəssisənin fəaliyyətinin dayandırılması ilə bağlı verdiyi göstəriş isə daha kütləvi etirazlara səbəb olub. Etirazçılar bildiriblər ki, Nikol Paşinyan eşitsin və agah olsun ki, əgər zavod bağlanarsa, onda Ararat bölgəsinin sakinləri İrəvanın küçələrində "Paşinyana yox" şüarları ilə daha irimiqyaslı nümayişlər keçirəcəklər.

İşğalçı ölkənin bəzi vətəndaş cəmiyyətlərinin fəalları da artıq hərəkətə keçiblər. Belə ki, onlar açıq-aşkar Nikol Paşinyanın hakimiyyətə yalan vədlərlə gəldiklərini dilə gətirir, üstəlik, "Yalançı Nikol" şüarları ilə İrəvanın mərkəzi küçələrində peyda olurlar. Təqiblərə baxmayaraq, iştirakçılar aksiyaları davam etdirmək niyyətindədirlər.

Artıq narazılıq Ermənistan parlamentinə, media və siyasi dairələrə də sirayət etməkdədir. Buna da Nikol Paşinyanın növbəti yalanları rəvac verib. Belə ki, Paşinyan bu günlərdə Avropa Şurası Parlament Assambleyasının tribunasından son 10 ayda ölkədə 50 mindən çox yeni iş yerinin açıldığını bildirib. Bunu da "məxməri inqilab"ın Ermənistana "bəxş etdiyi töhfə" kimi dəyərləndirməyə çalışıb. Ermənistan Statistika Komitəsinin təqdim etdiyi sənədlərdə belə rəqəmin olmadığını və ölkədə işsizliyin tüğyan etdiyini əsas gətirən "İrs" Partiyası hökumət başçısından həmin iş yerlərinin harada açıldığına aydınlıq gətirməsini tələb edib. Bütün bu addımlar Serj Sarkisyanın lideri olduğu Ermənistan Respublikaçılar Partiyasında da bir canlanma yaradıb.

Ekspert Araz Aslanlı mövzu ilə bağlı "İki sahil" qəzetinə açıqlamasında bildirdi ki, bu yaxınlarda Nikol Paşinyanın hakimiyyətə gəlməsinin bir ili tamam olacaq: "Amma bu müddətdə Ermənistanın baş naziri xalqına gün ağlaya bilməyib. Nikol Paşinyan nə ölkə daxilində, nə də beynəlxalq aləmdə demək olar ki, heç bir uğura imza atmayıb. Əksinə, son aylar Ermənistanda səfalət içində yaşayanların sayı artıb. Ağır həyat şərtlərinə dözə bilməyənlər isə miqrasiyaya üstünlük veriblər. Yəni, onun hakimiyyətə gəlməsindən sonra sosial-iqtisadi sahə üzrə də müsbət yöndə hər hansı bir yenilik qeydə alınmayıb. Halbuki Nikol Paşinyan küçə yürüşlərində, meydanlarda əhalinin bütün problemlərini həll edəcəyəni söyləmişdi. Odur ki, indi Nikol Paşinyanın adı "yalançı Nikol" kimi hallandırılır. Şübhəsiz, vəziyyət belə davam edə bilməz. Bütün bunlar isə o deməkdir ki, işğalçı ölkədə hər an daha güclü sosial partlayışların olacağı istisna edilmir".

Araz Aslanlı, həmçinin bildirdi ki, son günlər Nikol Paşinyan hakimiyyəti ölkədəki sosial problemlərin həllinə qismən nail olmaq məqsədi ilə Türkiyəyə yaxınlaşmağa cəhd edir. Lakin onların bu səyləri də bir səmərə vermir və verməyəcək də. Aprelin 16-da İrəvanda keçirilən Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının 52-ci iclasında iştirak edən AKP-nin millət vəkili Metin Gündoğdu ermənistanlı jurnalistlərin suallarını cavablandırarkən bir daha bəyan edib ki, Türkiyənin Ermənistanla münasibətləri normallaşdırması üçün yeni hökumətin Azərbaycanla olan problemləri həll etməsi vacibdir. Bu isə bir daha o deməkdir ki, Ermənistanın sosial bəlalardan xilas yolu rəsmi Bakıdan keçir".

# Cəlil Xəlilov: Vətən, xalq, dövlət öz müdafiəçilərini daim qiymətləndirir

Dövlətimizin başçısının "Müharibə veteranlarına Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi haqqında" Fərmanı Vətənə canı bahasına xidmət etmiş və bu gün də layiqincə xidmət edən insanlara, onların ailə üzvlərinə nə qədər önəm verildiyini bir daha sübut etdi. Prezident İlham Əliyev "Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı, onun problemləri, onun qayğıları, onun rifahı dayanır" şüarını müntəzəm olaraq gördüyü işlərlə gerçəkləşdirir.

Bu fikirləri "İki sahil" qəzetinə açıqlamasında Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədr müavini, polkovnik Cəlil Xəlilov deyib.

C.Xəlilov bildirib ki, veteranlara, əlillərə qayğı hər zaman dövlətimizin diqqət mərkəzində olub. Dövlət veteranların sosial təminatına başlıca məsələ kimi yanaşır, onların rifahının yaxşılaşması üçün ardıcıl tədbirlər həyata keçirir. Bu günədək müharibə əlilləri üçün çoxlu sanatoriyalar, reabilitasiya, protez mərkəzləri və sair inşa edilib. Bu müəssisələr müasir avadanlıqla təchiz olunub. Veteranların və əlillərin mənzil-məişət şəraitinin yax-



şılaşması, sosial rifahının yüksəlməsi, müalicə və reabilitasiya prosesinin daha səmərəli olması üçün dövlət bütün imkanlarından istifadə edir. Dövlətimizin başçısının imzaladığı son sərəncamlar da müharibə veteranlarına və əlillərinə qayğının təzahürüdür. Ümumiyyətlə, dövlətimizin sosialyönümlü çoxsaylı layihələri, qəbul olunan yeni qərarlar bu istiqamətdə atılan addımların davamlı olduğunu göstərir.

C.Xəlilov qeyd etdi ki, Prezident İlham Əliyev bu Fərmanla bir daha təsdiq etdi ki, Azərbaycan vətəndaşlarının qayğı və problemləri dövlətin daim nəzarətindədir: "Dövlətimizin başçısının bu məqsədlə həyata keçirdiyi ardıcıl sosial siyasət gələcəkdə daha da gücləndiriləcək. Ölkəmizin hər yerində veteranlar üçün yüksək şərait yaradılıb. Buna görə dövlətimizin başçısına minnətdarlığımı bildirirəm. Bütün bunlar veteranlara dövlət qayğısının bariz nümunəsidir."

Respublika Veteranlar Təşkilatının sədr müavini vurğulayıb ki, bu Fərman Ali Baş Komandanın Azərbaycanın veteranlarımıza və onların yaxınlarına, eləcə də sabah torpaqlarımızın düşmən işğalından azad olunması yolunda fədakarlıq göstərəcək əsgər və zabitlərimizə ünvanlanmış aydın və birmənalı mesajıdır. Vətən, xalq, dövlət öz müdafiəçilərini daim qiymətləndirir, onların xidmətlərini heç vaxt yaddan çıxarmır.

Şəmsiyyə Əliqızı,
*"İki sahil"*

# "Ağ ölüm" insanlara fəlakət gətirir

***"Ağ ölüm" adlanan narkomanlıq ümumbəşəri bəla olmaqla cəmiyyətin hər bir üzvünü düşündürən problemdir. Qlobal cinayətkarlıq hesab olunan və korrupsiyaya qurşanmış mafioz qruplar tərəfindən beynəlxalq səviyyədə həyata keçirilən orqan və silah alveri kimi qatı cinayətlərə səbəb olan narkotik vasitələrin satışı, transferi dəhşətli fəsadlara yol açır.***



Bakıda Azərbaycan Respublikası Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə qarşı Mübarizə üzrə Dövlət Komitəsinin və Amerika Birləşmiş Ştatlarının Ədliyyə Departamentinin Narkotiklərlə Mübarizə Administrasiyasının birgə təşkilatçılığı ilə keçirilən Narkotiklərlə mübarizə üzrə XXXVI Beynəlxalq konfrans (İDEC) dünya ictimaiyyətinin diqqətini ölkəmizə yönəltdi.

Dünyada 275 milyondan artıq insanın narkotik istifadəçisi olması, narkosənayenin birillik dövriyyəsinin 400 milyard dollar təşkil etməsi, 450 minə yaxın insanın narkoistifadədən həyatını itirməsi, təhlükənin getdikcə daha böyük coğrafiyanı əhatə etməsi bu sahədə mübarizənin gücləndirilməsini, ciddi islahatların təbiqini hədəf kimi qarşıya qoyur.

Müxtəlif şəbəkələr vasitəsilə, qanunsuz yollarla daşınan narkotik, psixotrop maddələrin insanların, xüsusilə gənclərin həyatı üçün təhlükə olması diqqətə çatdırılaraq bildirildi ki, narkomanlığa və narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizə dünya birliyinin başlıca vəzifəsi olmalıdır.

Azərbaycanın Baş naziri Novruz Məmmədovun "İşğal altındakı ərazilərdən narkotik vəsitələrin istehsalı və tranziti üçün istifadə edilməsi narkobiznesin və beynəlxalq terrorizmin genişlənməsinə münbit şərait yaradır" sözləri də beynəlxalq ictimaiyyəti düşündürməlidir. Çünki illərdən bəridir ki, dünya ictimaiyyətinə çatdırılır ki, Ermənistan işğal etdiyi Azərbaycan torpaqlarında narkotik vasitələr yetişdirməklə narkobiznes şəbəkəsinin üzvü kimi "çirkli pullar"ın yuyulmasında fəal iştirak edir.

Ermənistandan fərqli olaraq "Narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz dövriyyəsinə qarşı mübarizə haqqında" BMT-nin Konvensiyasına qoşulan Azərbaycanda bir sıra müvafiq, əməli tədbirlər həyata keçirilmişdir. Lakin Ermənistan silahlı qüvvələri tərəfindən torpaqlarımızın 20 faizinin işğalı, Azərbaycanın İranla olan dövlət sərhədinin 132 kilometrinə Ermənistanın silahlı qüvvələri tərəfindən nəzarət edilməsi narkomanlıqla mübarizədə bəzi çətinliklər törədir. Həmin sahədən Avropaya, o cümlədən Qara dəniz hövzəsi ölkələrinə, habelə digər dövlətlərə güclü narkotik axını həyata keçirilir. Ermənistan silahlı qüvvələrinin işğalı altında qalan Azərbaycan ərazilərində - Dağlıq Qarabağda və ona bitişik bölgələrdə narkotiklərin yetişdirilməsi, onun satışından əldə edilən külli miqdarda gəlir hesabına terrorçu qrupların yaradılması, silahlandırılması, milli və ərazi münaqişələrinin törədilməsində istifadəsi, təlimlərin təşkilinə yönəldilməsi təhlükənin miqyasını, insan ölümlərinin sayını daha da artırır.

İllərdən bəri korrupsioner rejimin idarə etdiyi Ermənistanın separatizm siyasətinə göz yuman təşkilatların erməni terror şəbəkəsinin törətdikləri cinayətlərə etinasız qalması iğalçıya narkobiznesdən daha çox qazanc əldə etmək imkanı yaradır. Buna görə də narkotik maddələrin dövriyyəsi ilə məşğul olan mütəşəkkil şəbəkələrlə mübarizədə bu amillərə diqqət artırılmalıdır. Narkotik maddələrin daşınmasında istifadə olunan beynəlxalq nəqliyyat infrastrukturuna nəzarət gücləndirilməlidir.

Narkomanlığa qarşı mübarizə ilə bağlı çağırışların Azərbaycandan səslənməsi ölkəmizin qarşılıqlı əməkdaşlıqda, dünyada sülhün, sabitliyin qorunmasında maraqlı olmasını göstərir. Sivilizasiyalararası körpü, qlobal enerji və nəqliyyat layihələrinin təşəbbüskarı olan ölkəmizin belə konfranslara ev sahibliyi etməsi Azərbaycanın siyasi iradəsini, qətiyyətini terrora qarşı mübarizədə fəallığını göstərir.

Xuraman İsmayılqızı,
*"İki sahil"*

# Əhali nəyə daha çox pul xərcləyir: ərzağa, yoxsa geyimə?



Sirr deyil ki, ölkənin bütün sahələrində həyata keçirilən düşünülmüş və ardıcıl sosial siyasət nəticəsində əhalinin vəziyyəti daha da yaxşılaşır, maddi rifah halı yüksəlir. Buna paralel olaraq isə hər ötən il əhalinin xərcləri və ölkənin daxili ticarət dövriyyəsi də artır. Əhalinin xərclərindəki artımı Dövlət Statistika Komitəsinin (DSK) yaydığı məlumatlarda daha aydın və detallı şəkildə görmək olur. Belə ki, DSK-nin məlumatına əsasən, 2019-cu ilin yanvar-mart aylarında pərakəndə ticarət şəbəkələrində satılmış məhsulların dəyəri əvvəlki ilin eyni dövrünün səviyyəsini müqayisəli qiymətlərlə 2,7 faiz üstələyərək 8,8 milyard manata bərabər olub.

Pərakəndə ticarət dövriyyəsinin 4472,1 milyon manatını ərzaq, içki və tütün məmulatları, 4371,0 milyon manatını qeyri-ərzaq məhsulları təşkil edib. Bu isə o deməkdir ki, satılmış məhsulların dəyəri 2018-ci ilin yanvar-mart aylarına nisbətən real ifadədə müvafiq olaraq 2,4 və 3,1 faiz artıb. Əhalinin xərclərinin böyük bir hissəsi ərzaq məhsullarının payına düşür. Statistikadan aydın olur ki, hesabat rübündə alıcıların son istehlak məqsədilə aldıqları mallara xərclədiyi vəsaitin 45,5 faizi ərzaq məhsullarının, 5,1 faizi içki və tütün məmulatlarının, 17,7 faizi toxuculuq məhsulları, geyim və ayaqqabıların, 5,9 faizi elektrik malları və mebellərin, 5,6 faizi avtomobil yanacağının, 1,3 faizi əczaçılıq və tibbi malların, 0,7 faizi kompyuter, telekommunikasiya avadanlıqları və çap məhsullarının, 18,2 faizi isə digər qeyri-ərzaq məhsullarının alınmasına sərf olunub.

Təbii olaraq daxili ticarət dövriyyəsinin artması satış və istehsalçılara da müsbət mənada təsir edib. Statistikaya əsasən, yanvar-mart aylarında istehlak məhsullarının dəyər ifadəsində 18,7 faizi ticarət müəssisələrində, 48,9 faizi fərdi sahibkarlar tərəfindən satıldığı halda, 32,4 faizi isə bazar və yarmarkalarda alıcılara təklif olunub. Nəticə olaraq 2018-ci ilin eyni ayları ilə müqayisədə pərakəndə ticarət dövriyyəsi real ifadədə müəssisələr üzrə 30,8 faiz artıb, fərdi sahibkarlar üzrə isə 1,2 faiz artıb.

Hesabat rübündə əhalinin bir nəfərinə düşən orta aylıq pərakəndə ticarət dövriyyəsi 298,7 manat və ya 2018-ci ilin müvafiq dövrünün göstəricisindən nominal ifadədə 9,5 manat çox olub. Yekunda bütün hesablamalara əsasən məlum olub ki, hər bir Azərbaycan vətəndaşı orta hesabla ay ərzində 151,1 manat dəyərində ərzaq, içki və tütün məmulatları, 147,6 manat dəyərində isə qeyri-ərzaq məhsulları alıb. Sözsüz ki, əhalinin xərclərinin şaxələnərək artması müsbət hal sayılmalıdır. Çünki xərclərin artması o deməkdir ki, əhalinin gəlirləri də durmadan artır.

**Taleh Bağırov,**
***"İki sahil"***

# Cücərmiş bitkilər həm vitamin mənbəyidir, həm də...

**Son vaxtlar bir çox restoranlarda və kafelərdə salatların tərkibinə cücərmiş mərci, lobya, noxud və qarğıdalı qatılması ilə rastlaşa bilərsiniz. Qidalanmağınıza həm fayda, həm də müxtəliflik qatacaq bu sağlam tumurcuqlu bitkiləri evdə də hazırlaya bilərsiniz.**



Quru paxlalı və taxıl bitkilərinin sağlam qidalanmada rolu çox vacibdir. Tərkibində pəhriz lifləri, B qrupu vitaminləri, dəmir, sink, maqnezium, zəngin minerallar olduğu üçün sağlamlığın qorunmasında və bir çox xəstəliyin qarşısının alınmasında təsirli olur. Bunlar sizə azçox məlumdur. Bəs siz bu cücərmiş qidaların həm də həzmi asanlaşdırıb orqanizmdəki kalori miqdarını azaltdığını bilirdinizmi?

Salatlarda cücərmiş qidaların istehlakı getdikcə artmışdır. İstəsəniz bişirdiyiniz digər yeməklərə və yediyiniz çörəyin tərkibinə də qata bilərsiniz.

**Bağırsaqların fəaliyyətini yaxşılaşdırır**

Qidalar cücərən zaman artıq çəkinin əsas səbəblərini daşıyan yağ və şəkərin nisbəti azalır. Beləliklə, kalori səviyyəsi aşağı düşür, yağlılığın qarşısı alınır. Böyük miqdarda pəhriz lifini ehtiva edən cücərti bağırsaqları aktivləşdirir, həzmi asanlaşdırır və şişkinlik hissini aradan qaldırır. Cücərmiş qidaların protein miqdarı və həzmolunma sürəti artır. Bununla da uzunmüddətli toxluq hissi yaradır.

**Qida dəstəyinin tətbiqini artırır**

Düyü və taxıl toxumlarının tərkibi fitik turşusu və lektin adlı iki komponentdən ibarətdir. Bir tərəfdən bu komponentlər toxumları böcəklərdən və zərərli orqanizmlərdən qorumaq üçün hərəkət edir, digər tərəfdən həyatda yaşamaq üçün lazım olan faydalı mineralları təmin edir. Bundan əlavə, fitik turşusu zülalları parçalayan fermentlərin qarşısını alır, buna görə orqanizmin artıq çəki almasına mane olur. Faydalı tərkibi ilə dərinizə sağlamlıq və parlaqlıq, saçınıza isə dolğunluq bəxş edir. Əzələləri və sümükləri gücləndirir, bütün orqanların sağlamlığını qoruyur.

**Antioksidant və vitamin bombası**

Cücərtmə paxlalı və taxıl bitkilərində A, C və E vitaminlərinin səviyyəsini artırır. Bu vitaminlər orqanizmin antioksidant gücünü və xəstəliklərlə mübarizə qabiliyyətini artırır.

**Röya Rasimqızı,**
***"İki sahil"***

*Psixoloq:*

# Valideyn-övlad və məktəbdaxili münasibətlər düzgün tənzimlənməlidir



Bu gün Azərbaycanda yüksək səviyyədə söz və mətbuat azadlığı mövcuddur. Bu azadlıqdan istifadə edib mətbuatda yerli-yersiz emosional, bir o qədər güclü psixoloji təsirə malik xəbərlərlə gündəm yaratmaq nə dərəcədə peşəkarlığa dəlalət edir? Söz azadlığından sui-istifadə edib, onu sərbəstliklə qarışdırmaq olarmı?

***Bəs bu cür xəbərlər ictimaiyyətə, xüsusilə də uşaqlara necə təsir edir?***

Sosioloq Cavid İmamoğlu məsələ ilə bağlı qəzetimizə açıqlamasında bildirdi ki, hətta söz azadlığı olsa belə, bir qrup xəbərlərin çatdırılmasında qaydalara ciddi şəkildə əməl olunmalıdır: "Emosional, aqressiv, duyğusal təsirli informasiyaların açıq-saçıq şəkildə yayımlanması yolverilməzdir. Bu, peşə etikasının və onun qaydalarının pozulmasıdır. Hətta bu tip xəbərlər dərc olunarkən müəyyən qaydaları gözləmək lazımdır. Məsələn, intihar xəbəri yayımlayarkən başlığa intihar adı altında yazmaq olmaz. Ən əsas səbəb isə cəmiyyətdə mövcud olan təqlid hissidir. Bu cür xəbərlərin adi qəbul olunub və təqdim edilməsi insanlarda bu cür olayların normal qarşılanmasına səbəb yaradır. Onların da bu və ya buna bənzər hallarda həmin metoda əl atmasına gətirib çıxarır. Digər bir məqam ondan ibarətdir ki, bu halı fürsət bilən insanlar olur. Onlar bu xəbəri oxuyub müjdə kimi qəbul edirlər. Hesab edirəm ki, həmçinin emosional, zorakı, cinayət xarakteri daşıyan xəbərləri hekayə tipində vermək, xırda detallarına qədər təqdim etmək, qabartmaq düzgün yanaşma deyil. Bu mövcud peşə etik normalarının pozulması deməkdir. Valideynlər uşaqlarının asudə vaxtlarında saytlardan bu cür xəbərləri oxuyaraq məlumatlanmasına yol verməməlidirlər."

Sosioloq, bu cür məqamların qarşısını almaq üçün müvafiq variantlar da təklif etdi: " Saytlara, sosial şəbəkələrə daxil olub, qeydiyyatdan keçərkən doğum tarixi, yaş istəyir. Bu ona görə vacibdir ki, sayt və sosial şəbəkələrdə bu cür xəbərlər yayımlandıqda uşaqların girişi məhdudlaşdırılsın. Fikrimcə, sağlam ruhlu, savadlı gənclik yetişdirmək üçün bu kimi qaydalara əməl olunması vacibdir."

Psixoloq Zeynəb Əyyubova isə hesab edir ki, emosiya, aqressiya və stress xarakterli multimedia məhsullarını uşaqların izləməsi doğru deyil: "Ümumiyyətlə, uşaq psixologiyası çox kövrək və həssasdır. Onun sərt, kəskin "zərbələrdən" zədələnməsi çox asandır. Bunun üçün də uşaqlarımızın psixologiyasına mənfi təsir edə biləcək bütün məqamlar aradan qaldırılmalıdır. Psixologiyanın pozulmasına təkcə emosional, həssas xəbəri oxumaq təsir etmir. Həmin hadisələri yaşamaq, görmək də təsir edir. Bəzən psixologiya pozulmaqla qalmır, hətta xarakterdə təqlid sindromları qabarır. Bu hallar ən çox yeniyetməliyə keçid dövründə özünü büruzə verir. Valideyn əvvəldən müdaxilə etmədiyi üçün sonra hər şey üçün gec və imkansız olur. Bu mövzuda təkcə valideyni, müəllimi ya da uşağı günahkar tutmaq olmur. Uşaqların təlim-tərbiyəsində ictimai mühit, cəmiyyətdə önəmli rol oynayır. Müsbət nəticə üçün bunların hər biri yerində olmalıdır."

Psixoloq əlavə olaraq qeyd etdi ki, bütün bunları rəhbər tutaraq yeniyetmə dövründə olan gənclərimizin mənəvi və psixoloji inkişafına xüsusi diqqət yetirmək lazımdır: "Onlar həyatlarının mühüm keçid dövründə çoxsaylı ətraf təsirlərə məruz qalırlar. Bu müddət insanın özünəgüvəni və ətraf çevrədə öz statusunu vurğulaması aparıcı rol oynayır. Bu zaman valideynlərin və müəllimlərin öhdəsinə çox böyük məsuliyyət düşür. Uşaqlıqdan başlayaraq valideyn-övlad arasında emosional bağlılığın formalaşmaması gələcəkdə müəyyən fəsadlara gətirib çıxarır. Belə ki, uşağın hər hansı bir problemini rahatlıqla bölüşə bilmədiyi mühit yaranır. Nəticədə valideynə qarşı inamsızlıq, həmçinin özünəqapanma və gələcəklə bağlı neqativ fikirlərin formalaşması başlanır. Uşağın gündəlik fəaliyyəti ilə maraqlanmaq, yəni gün ərzində vaxtının səmərəli şəkildə bölüşdürülməsi, müəllim və valideyn arasında daim əlaqənin yaradılması vacib şərtlərdən biridir.

Yeniyetmə dövründə uşağa hər iki valideynin dəstəyi vacibdir. Əsasən də mənəvi və psixoloji. Natamam və konfliktli ailədə böyüyən uşaq və yeniyetmələr öz həmyaşıdları ilə müqayisədə kənar təsirlərə daha həssas olurlar. Sosial çevrəni dəyişən zaman yeni kollektivə adaptasiya olmaları onların yeni problemlərlə üzləşmələrinə gətirib çıxarır. Bir çox hallarda böyüklər tərəfindən birtərəfli əmrlərin səsləndiyini görən yeniyetmələr gərəksiz olduqlarını və fikirlərini bölüşə bilmədiklərini hiss edirlər. Nəticədə də , nümayişkaranə davranışlar formalaşır və bəzi hallarda öz sözlərini faciəvi sonluqla bitən hərəkətləri ilə nümayiş etdirirlər.

Bu kimi faciələrin yaşanmaması üçün həm valideyn-övlad münasibətləri, həm də məktəbdaxili münasibətlər düzgün şəkildə tənzimlənməlidir. Valideynlər və müəllimlər uşaqları diqqət və nəzarətdən kənarda qoymamalıdırlar. Çünki sonrakı peşmançılıq fayda vermir. "

**Yaqut Ağaşahqızı, *"İki sahil"***

## Lavrov Dağlıq Qarabağ münaqişəsi ilə bağlı vəziyyəti şərh edib




Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı razılaşmalar kağız üzərində qalmamalıdır.

Trend-in məlumatına görə, bunu Rusiyanın xarici işlər naziri Sergey Lavrov serbiyalı həmkarı İvitsa Daçiçla keçirdiyi birgə mətbuat konfransında deyib.

Rusiyalı diplomat deyib ki, həm Bakı, həm Yerevan bu razılaşmaların kağız üzərində qalmamasında maraqlıdır.

1988-ci ildə Ermənistan Azərbaycana qarşı ərazi iddialarına başladı. Bir müddət sonra isə Ermənistan tərəfindən Azərbaycan ərazilərinə hərbi təcavüz başlandı. Dağlıq Qarabağ və ətraf 7 rayon - Azərbaycan ərazisinin 20 faizi - Ermənistan silahlı qüvvələri tərəfindən işğal olundu. Bu işğal faktı hələ də davam edir.

1994-cü ilin mayında tərəflər atəşkəs rejiminə nail olublar. O dövrdən bu günə kimi ATƏT-in Minsk qrupunun himayəsində - Rusiya, Fransa və ABŞ-ın həmsədrliyi ilə nəticəsiz sülh danışıqları davam edir. İşğal olunmuş Dağlıq Qarabağ və ətraf rayonların azad edilməsi haqqında BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi dörd qətnamə isə Ermənistan tərəfindən bu günədək icra olunmayıb.

*Elman Məmmədov:*

## Ermənistana qarşı ciddi addımlar atılmalıdır



"Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin bu günlərdə keçirilən görüşü Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində danışıqlar prosesinin intensivləşməsi baxımından müsbət ola bilər". Bu fikirləri Milli Məclisin deputatı Elman Məmmədov deyib.

E.Məmmədov bildirib ki, ATƏT-in Minsk qrupu danışıqların intensivləşməsi ilə yanaşı, təcavüzkar Ermənistana qarşı ciddi addımlar atmalıdır. Onun fikrincə, proseslər deməyə əsas verir ki, danışıqlarda Azərbaycanın mövqeyi xeyli güclənib.

"Bu səbəbdən də işğalçı Ermənistan müxtəlif cəhdlərlə prosesi pozmağa çalışır. Ermənistan sülhə getməsə, Azərbaycanın hərbi gücü ilə qarşılaşacaq. Belə olan halda, işğalçılar başqasının torpağına göz dikməyin nə ilə nəticələndiyini dərk edəcəklər. Biz inanırıq ki, dövlət başçısının qətiyyətli mövqeyi nəticəsində problem özünün ədalətli həllini tapacaq"- deyə E.Məmmədov vurğulayıb.

## San-Marinonun Azərbaycanda yeni fəxri konsulu təyin edilib

Azərbaycan Xarici İşlər Nazirliyinin (XİN) Dövlət Protokolu İdarəsinin rəisi, səfir Pərvin Mirzəzadə San-Marino Respublikasının yeni təyin edilmiş fəxri konsulu Rasim Qasımovu qəbul edib.

XİN-dən Trend-ə verilən məlumata görə, görüş zamanı Rasim Qasımov fəxri konsul təyinatı ilə əlaqədar patent sənədini Pərvin Mirzəzadəyə təqdim edib.

Pərvin Mirzəzadə fəxri konsul Rasim Qasımova gələcək fəaliyyətində uğurlar arzulayıb.

Görüşdə Azərbaycan ilə San-Marino arasındakı münasibətlərin cari vəziyyəti barədə geniş fikir mübadiləsi aparılıb.

# PREZİDENT İLHAM ƏLİYEVİN SOSİAL İSLAHATLAR PAKETİ:

# əhalinin rifahı naminə yeni inqilabi addımlar

Təkcə cari ilin arxada qalan dövrünün təkmil islahatlarına, idarəetmə sistemində həyata keçirilən yeniləşmə siyasətinə diqqət yetirsək, dövlətimizin başçısı İlham Əliyevin fikirlərinə istinadən deyə bilərik ki, əldə olunan uğurlarla kifayətlənmir, daim irəli baxaraq, təkmilləşmə, yeniləşmə həyata keçirilən siyasətin ana xəttini təşkil edir. İnkişafın yeni mərhələsi yeni modelin formalaşdırılmasını tələb edir ki, bu istiqamətdə görülən işlərin miqyası genişliyi ilə diqqət çəkir. İqtisadiyyatın elmi əsaslara söykənməsi fonunda hərtərəfli, davamlı inkişafa yol açan iqtisadi və siyasi islahatların vəhdətliyi təmin edilir, əsas tələb kimi gündəmdədir. Dünya təcrübəsinə istinadən belə təhlillər aparılır ki, dünyada elə ölkələr var ki, iqtisadi imkanları genişdir, amma demokratiyanın inkişaf səviyyəsindən danışmaq mümkünsüzdür. Elə ölkələr də var ki, əksinə, demokratik inkişaf davamlıdır, iqtisadi tərəqqi arxa plandadır. Azərbaycanın isə inkişaf dinamikasını təhlil edən xarici ekspertlər, siyasətçilər iqtisadi və siyasi islahatların vəhdətliyinin yol açdığı uğurları təqdir edir, Azərbaycan təcrübəsinin öyrənilməsinin və tətbiqinin vacibliyini bilirirlər. Təsadüfi deyil ki, ölkəmiz yeni iqtisadi və sosial çağırışların müzakirəsi üçün ideal məkan kimi qəbul olunur.



Yazının əvvəlində də qeyd etdiyimiz kimi, cari ilin ötən dövründə imzalanın Fərman və sərəncamlara diqqət yetirmək kifayətdir. 3 milyon nəfərdən çox şəxsi əhatə edən sosial paketin tətbiqinə dövlət büdcəsindən milyonlarla vəsait sərf olunur. Atılan addımlardan dövlətin sosial mahiyyəti hərtərəfli şəkildə özünü təsdiqləyir. Son aylarda minimum əmək haqqının, minimum pensiyaların artırılmasını, əhalinin sosial müdafiəsinin gücləndirilməsi sahəsində əlavə tədbirlərə, sosial müavinətlərin, təqaüd sisteminin təkmilləşdirilməsinə, həmçinin məcburi köçkünlər və onlara bərabər tutulan şəxslər üçün vahid aylıq müavinətlərin artırılmasına dair sərəncamları xüsusi qeyd etməliyik. Minimum əmək haqqı 130 manatdan 180 manata çatdırıldı. Bu, 600 min insanı əhatə edir. Minimum pensiyaların məbləği 116 manatdan 160 manata artırıldı. Bu gün minimum pensiyanın səviyyəsinə görə Azərbaycan MDB məkanında ikinci yerdədir. Ölkə Prezidenti bildirir: "Ancaq onu da bilməliyik ki, bu, son hədd deyil. Əlbəttə ki, əməkhaqlarının, pensiyaların artırılması gündəlikdə duran əsas məsələlərdən biridir." "Bəzi çoxmənzilli binaların istismarına icazə verilməsinin sadələşdirilməsi haqqında", "Azərbaycan Respublikasında fiziki şəxslərin problemli kreditlərinin həlli ilə bağlı əlavə tədbirlər haqqında" fərmanlar da bu silsilədəndir. Problemli kreditlərin həlli Azərbaycan hakimiyyətinin ciddi sosial təşəbbüsü kimi dəyərləndirilir.

Bu günlərdə dövlətimizin başçısı İlham Əliyevin "Müharibə veteranlarına Azərbaycan Respublikası Prezidentinin təqaüdü"nün təsis edilməsi haqqında" Fərmanı, "1941-1945-ci illər Böyük Vətən müharibəsi iştirakçılarına, İkinci Dünya müharibəsi dövründə Leninqrad şəhərinin mühasirəsi zamanı şəhərin müəssisələrində, idarə və təşkilatlarında işləmiş və "Leninqradın müdafiəsinə görə" medalı, "Leninrad mühasirəsində yaşayan" döş nişanı ilə təltif edilmiş şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi haqqında" Prezidentin 2 iyul 2012-ci il tarixli Sərəncamında dəyişiklik edilməsi barədə sərəncamı, həmçinin "Sosial müavinətlərin məbləğinin artırılması haqqında" Prezidentin 29 avqust 2013-cü il tarixli Fərmanında dəyişiklik edilməsi barədə fərmanı da sosial müdafiənin gücləndirilməsinin dövlət siyasətinin əsasını təşkil etdiyini bir daha ortaya qoyur.

Bu ilin fevralında keçirilən iqtisadi və sosial məsələlərlə bağlı müşavirədə "Aparılan islahatlar öz gözəl nəticələrini verir. 2018-ci il dərin iqtisadi islahatlar il olmuşdur, xüsusilə prezident seçkilərindən sonra islahatların yeni mərhələsinə təkan verilmişdir. 2017-ci il isə iqtisadi sabitləşmə ili idi. Biz 2017-ci ildə iqtisadi sabitliklə bağlı çox önəmli addımlar atmışıq. Bu bizə imkan verdi ki, 2018-ci ildə çox ciddi islahatlara başlayaq və islahatlar özünü göstərir. Əgər bu ilin yanvar ayının yekunlarına nəzər salsaq görərik ki, iqtisadi artım, yəni ümumi daxili məhsulun artımı təxminən 3 faiz təşkil edir. Son 2-3 il ərzində bu, ən yüksək göstəricidir və onu göstərir ki, 2019-cu ildə Azərbaycanda iqtisadi artım yüksək templərlə təmin ediləcək və davam etdiriləcək" söyləyən cənab İlham Əliyev bu əminliyi ifadə etmişdir ki, 2019-cu il sosial inkişaf, əhalinin sosial müdafiəsi baxımından başqa illərdən fərqlənən il olacaq.

Hələ keçən ilin dekabrında hərbçilər üçün inşa edilmiş yeni binanın açılışında şəhid ailələrinin sosial məsələlərinin öz həllini tapacağını bildirən dövlətimizin başçısı İlham Əliyev pezident seçkilərindən sonra imzaladığı ilk Fərman şəhidlərin vərəsələrinə verilən 11 min manat ödənişlə bağlı oldu. Hazırda 12 min 200-dən çox şəhid ailəsinə dövlət tərəfindən 11 min manat ödəniş edilir və bu ilin sonuna qədər bu proqram tam icra olunacaq. Bununla yanaşı, şəhid ailələri ilə görüşdə onlara verilən müavinətlərin artırılması məsələsi gündəmə gətirildi. Ölkə Prezidenti bununla bağlı Fərman imzaladı, müavinət 242 manatdan 300 manata artırıldı.

"Maddi imkanlarımız artdıqca, əlbəttə ki, daim bu məsələ diqqət mərkəzində olacaqdır" söyləyən dövlətimizin başçısı İlham Əliyevin növbəti Fərmanı əsasında Əfqanıstan veteranlarının müavinəti artırıldı. Məbləğ 220 manatdan 300 manata çatdırıldı.

Məcburi köçkünlərin sosial müdafiəsinin gücləndirilməsi də prioritet məsələ kimi öndədir. Əgər keçən il 5900 köçkün ailəsi üçün mənzil tikilmişdirsə, bu il 7 minə qədər köçkün ailəsinin yeni mənzillərlə təmin ediləcəyi nəzərdə tutulur. Bir müddət öncə cənab İlham Əliyev Bakının Kürdəxanı qəsəbəsində məcburi köçkün ailələri üçün istifadəyə verilən yeni yaşayış kompleksinin açılışında iştirak etdi. Açılış mərasimində bu günə qədər bu kateqoriyadan olan vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi istiqamətində atılan addımlara diqqət yönəldilərək bildirildi ki, bu, ölkə üzrə məcburi köçkünlər üçün salınan sayca 103-cü müasir yaşayış kompleksidir.

Şəhid ailələri üçün bu il 800 mənzil planlaşdırılıb. Keçən il 626 mənzil verilmişdir. Ölkə Prezidenti bildirir ki, bu günə qədər mənzil almayan bütün şəhid ailələri növbəti illərdə mənzillərlə təmin ediləcəklər.

Sosial paketin reallaşmasının ilk növbədə, güclü siyasi iradəmizə söykəndiyini qeyd edən cənab İlham Əliyev bildirir: "Çünki mən dəfələrlə demişəm, bir daha demək istəyirəm ki, bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Eyni zamanda, bizim maliyyə imkanlarımız buna imkan verir. Maliyyə imkanlarımızı biz əldə etmişik, biz yaratmışıq. Məhz aparılan islahatlar nəticəsində bizim gəlirlərimiz, büdcə gəlirlərimiz artır, artacaq və artmalıdır. Ona görə bir daha demək istəyirəm ki, bizim iqtisadi inkişafımız sosial məsələlərin həlli ilə nə qədər bağlıdır. Bu da təbiidir. Bizdə güclü iradə, güclü sosial siyasət var. Eyni zamanda, elan edilmiş və icra edilən ciddi iqtisadi və sosial islahatlar bizə imkan verir ki, əlavə maliyyə resurslarını məhz vətəndaşların rifah halının yaxşılaşmasına yönəldək. Əminəm ki, 2019-cu il bütövlükdə ölkəmiz üçün uğurlu il olacaqdır. Azərbaycan 2019-cu ildə uğurlar və inkişaf yolu ilə gedəcəkdir."

Yeni iş yerlərinin açılması, məşğulluq probleminin həlli də həyata keçirilən sosial siyasətin əsas tərkib hissələrindəndir. Cənab İlham Əliyevin Sərəncamı ilə təsdiqlənən "2019-2030-cu illər üçün Azərbaycan Respublikasının Məşğulluq Strategiyası"nın uğurlu icrası, "ABAD" mərkəzlərinin coğrafiyasının genişləndirilməsi kiçik və orta sahibkarlığın inkişafını təmin etməklə yanaşı, əhalinin sosial rifah halının yüksəlməsinə xidmət edən addımlar kimi dəyərləndirilir. "Əhalinin məşğulluğu, əmək, sosial müdafiə və təminat sahələrində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Fərmana uyğun olaraq Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində "Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi" publik hüquqi şəxs (DOST Agentliyi)"in yaradılması da qeyd olunanlar silsiləsindəndir. 2019-2025-ci illərdə Bakıda və respublikanın rayonlarında 31 DOST mərkəzinin yaradılması nəzərdə tutulur. Ölkə Prezidenti İlham Əliyevin fərmanlarına uyğun olaraq təsdiqlənən üç Dövlət proqramının uğurlu icrası, eyni zamanda, 29 yanvar 2019-cu il tarixli fərmanı ilə regionların 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramının təsdiqlənməsi növbəti illər üçün nəzərdə tutulan hədəflərə yüksək səviyyədə nail olmağa möhkəm bazadır. Bu sənədlərin uğurlu icrası nəticəsində son 15 ildə yoxsulluq və işsizliyin səviyyəsi 5 faizə enib, 2 milyona yaxın yeni iş yeri açılıb. Təkcə ötən il bu rəqəm 118 min olub.

Ölkəmizdə insan amilinə verilən dəyər, son bir ildə əldə olunan sosial-iqtisadi göstəricilər, dövlətimizin başçısı İlham Əliyevin təkmil islahatları beynəlxalq sorğu mərkəzlərinin apardığı sorğuların nəticələrində, beynəlxalq maliyyə qurumlarının hesabatlarında da yüksək dəyərləndirilir. Azərbaycan Dünya Bankının hesabatında 10 ən islahatçı ölkə sırasında yer alıb. Ölkəmizin dünyanın 10 xoşbəxt ölkəsindən biri olması da düşünülmüş və gələcəyə hesablanmış siyasətin nəticəsidir. Ölkə əhalisi o zaman özünü xoşbəxt hiss edər ki, hər zaman özünə diqqət və qayğının şahidi olsun. Sosial rifahın təmin olunması isə ilk növbədə dövlətin iqtisadi gücü, qüdrəti ilə bağlıdır. Bu günlərdə Fransanın "OpinionWay" şirkətinin keçirdiyi rəy sorğusu da bu kimi məqamlara işıq saldı. Sorğunun nəticələrinə görə, respondentlərin 80,1 faizi ölkədəki mövcud ictimai-siyasi və sosial-iqtisadi sabitliyin qorunub saxlanılmasını Prezident İlham Əliyevin fəaliyyətinin ən uğurlu nəticəsi kimi dəyərləndirmişdir. "OpinionWay"ın "Azərbaycanda həyata keçirilən sosial-iqtisadi fəaliyyəti və bu sahədə Prezident İlham Əliyevin son ildə apardığı islahatları necə qiymətləndirirsiniz" sualına sorğuda iştirak edənlərin 90,5 faizi ümumilikdə müsbət cavab vermişdir.

**Nüsrət Məmmədov, *"İki sahil"***

*Yazı Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun birgə fərdi jurnalist yazıları müsabiqəsinə təqdim edilir.*

# Minlərlə tarixi və arxeoloji abidələrimiz erməni vandalizminin qurbanıdır

*18 aprel - Tarixi Abidələrin Mühafizəsi Günü UNESCO-nun Tarixi Yerlər və Abidələrin Mühafizəsi Şurasının (İCOMOS) 1983-cü ildə qəbul edilmiş qərarı əsasında qeyd olunur*

Ölkəmiz dünyada bəşər sivilizasiyasının ilkin meydana gəldiyi ərazilərdən biridir. Arxeoloji qazıntıların nəticələri göstərir ki, Azərbaycanda yaşamış insanların tarixən keçdikləri keşməkeşli və şərəfli yollar qədim yaşayış məskənlərində və çoxsaylı abidələrdə öz əksini tapıb. Yaşadığımız dövrə gəlib çatan bu abidələr hazırda çox qiymətli nümunələr kimi qorunur. Ölkəmizin hər yerində yaşı əsrləri və minillikləri əhatə edən tarixi abidələr mövcuddur. Azıx mağarasından tapılmış və Azıxantrop adlandırılan qədim insanın çənə sümüyü Azərbaycanın dünyada ən qədim ibtidai insan məskənlərindən biri olmasını sübut edir. Qobustanda aşkar edilmiş yaşayış məskənləri bu ərazidə ən qədim dövrlərdən insanların məskunlaşdığını təsdiqləyir. Ölkəmizin ərazisində Manna, daha sonralar cənubda Atropatena dövlətlərinin yaranması ilə bağlı şəhərlər salınıb, müdafiə tikililəri, əzəmətli qala divarları inşa edilib. Qəbələ şəhərinin möhkəm qala divarları, saxsı borularla çəkilmiş su kəməri, Dəmirqapı keçidində daşdan tikilmiş müdafiə sistemi, Çıraqqala, Ləkit kəndindəki dairəvi xristian məbədi və digər yerlər şəhərsalma mədəniyyətinin yüksək səviyyəsini göstərir. Ümumiyyətlə, İslamdan əvvəl və sonra ölkəmizin ərazisində qiymətli abidələr inşa olunub. Orta əsrlərə aid abidələr (Möminə Xatun, Qarabağlar, Gülüstan, Bərdə türbələri, Şirvanşahlar sarayı, Şəki xan sarayı, Şuşa şəhərinin abidələri və s.) nəinki Şərq, hətta dünya memarlığının ən gözəl incilərindəndir.



Təəssüflə qeyd etməliyik ki, ərazimizin 20 faizini işğal etmiş Ermənistan hərbi birləşmələri milli mədəniyyət abidələrimizi qəddarcasına uçurub dağıdıb. Hərbi təcavüz nəticəsində ilk insan məskənlərindən olan məşhur Azıx və Tağlar mağaraları, Qaraköpək, Üzərliktəpə kurqanları hal-hazırda hərbi məqsədlərlə istifadə edilərək qəsdən məhv edilir. Xocalı, Ağdam, Ağdərə, Füzuli, Cəbrayıl rayonlarındakı kurqanlarla yanaşı, işğal olunmuş Şuşa, Laçın, Kəlbəcər, Qubadlı, Zəngilan, Füzuli rayonlarının ərazilərindəki qəbiristanlıqlar, türbələr, məzarüstü abidələr, məscidlər, məbədlər, Qafqaz Albaniyasına məxsus abidələr və digər milli abidələrimiz isə sıradan çıxarılır. İşğal zonalarında maddi mədəniyyət yadigarlarının dağıdılması prosesi indi də davam edir. İşğalçılar geniş miqyaslı, qeyri-peşəkar arxeoloji qazıntı işləri aparır, kurqanları dağıdır, qarət etdikləri tapıntıları Ermənistana daşıyırlar. Qədim Azərbaycan torpaqları olan Dağlıq Qarabağ və ona bitişik rayonlarda 13 dünya əhəmiyyətli - 6 memarlıq və 7 arxeoloji, 292 ölkə, 330 yerli əhəmiyyətli memarlıq, arxeoloji, bağ, park, monumental və xatirə abidələri, 15 dekorativ sənət nümunəsi qalıb. Həmçinin bu ərazilərdə 40 mindən artıq əşyanın toplandığı 22 muzey, yüzlərlə mədəni-maarif müəssisələri də düşmən tapdağı altındadır. Ümumiyyətlə, işğal altında olan ərazilərimizdə xalqımızın keçmişi və bu gününü əks etdirən 1852 mədəniyyət və incəsənət abidəsi erməni vandalizminin təcavüzünə məruz qalmışdır.

Tarixi abidələrimizin qorunması və gələcək nəsillərə çatdırılması istiqamətində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva böyük işlər həyata keçirirlər. Ölkə başçısının diqqət və qayğısı sayəsində ölkəmizdə tarixi abidələrin tədqiqi, mühafizəsi və bərpası, mədəniyyət nümunələrinin beynəlxalq aləmdə təbliği istiqamətində bir sıra layihələr icra olunur. Bütün bunlar isə Azərbaycanın qlobal dünyaya öz maddi və mənəvi mədəniyyəti ilə birgə inteqrasiyasını təmin edir. Bu sahədə beynəlxalq təşkilatlarla da əlaqələr uğurla inkişaf edir. 2000-ci ildə İçərişəhər Qız Qalası və Şirvanşahlar Sarayı ilə birlikdə, 2007-ci ildə isə Qobustan Dövlət Tarixi-Bədii Qoruğu UNESCO-nun Dünya İrsi Siyahısına daxil edilib. Hazırda digər tarixi yerlər və abidələrimizin də bu siyahıya daxil edilməsi istiqamətində işlər davam etdirilir.

Bu il UNESCO-nun Dünya İrs Komitəsinin 43-cü sessiyası Bakı şəhərində keçiriləcək. Bu münasibətlə Azərbaycana 3 min nəfərdən artıq xarici qonağın gələcəyi gözlənilir.

✍ **Sevinc Azadi,**
***"İki sahil"***

# 2019: sosial islahatlar ili

Prezident İlham Əliyevin ölkə əhalisinin sosial rifahının yüksəldilməsinə dair həyata keçirdiyi işlərin miqyası gündən-günə genişlənir. Dövlət başçısı son bir neçə ayda imzaladığı sosialyönümlü Sərəncam və fərmanlara aprelin 15-də daha birini də əlavə etdi. Fərmana görə, müharibə veteranlarına Azərbaycan Respublikası Prezidentinin 80 manat məbləğində təqaüdü təsis olunur. Fərmanda qeyd olunur ki, həmin təqaüd 2019-cu il aprelin 1-dək kommunal, nəqliyyat və digər xidmətlərə görə sosial müavinət alan şəxslərə həmin sosial müavinətin əvəzinə, əmək pensiyası alan və döyüşən ordunun tərkibində xidmət etmiş müharibə iştirakçılarına (Böyük Vətən müharibəsi iştirakçıları istisna olmaqla), habelə döyüş əməliyyatı aparılan ölkədə hərbi xidmət borcunu yerinə yetirmiş hərbi qulluqçulara əmək pensiyasının sığorta hissəsinə əlavə əvəzinə verilir. Bu Fərman on minlərlə insana şamil olunacaqdır. Müharibə əlilləri və onlara bərabər tutulan şəxslər üçün Prezident təqaüdünün məbləği I qrup əlilliyə görə 182 manatdan 250 manata, onlara qulluq edənlərə isə 50 manat, II qrup əlilliyə görə 158 manatdan 230 manata, III qrup əlilliyə görə, 121 manatdan 210 manata çatdırılıb.



Beləliklə, əgər I qrup müharibə əlilləri və onlara bərabər tutulan şəxslər 150 manat sosial müavinət alırdılarsa, bundan sonra həmin məbləğin üzərinə 250 manat Prezident təqaüdü və 50 manat da onlara qulluq edən şəxsin məvacibi daxil ediləcək. Yəni bu kateqoriyaya aid şəxslər ayda ümumilikdə 450 manat alacaqlar. II qrupa aid olanların (130 + 230) 360, III qrupa aid olanların isə (110+ 210) alacaqları müavinət 320 manata yüksəlib.

Əslində Prezident İlham Əliyevin son 3 ayda böyük sosial islahatlar paketi çərçivəsində imzaladığı sərəncamlar, sosial sahədə qəbul olunmuş qərarlar miqyasına, əhatə dairəsinə görə inqilabi qərarlardır. Təbii ki, sosial siyasətin belə uğurla aparılması iqtisadi qüdrətimizin davamlı artmasından qaynaqlanır. Yəni, Azərbaycan dövlətinin sosial siyasətinin fəlsəfəsi iqtisadi inkişafın nəticələrini əhalinin rifah halını yüksəltməyə yönəltməkdir. Bu prinsip hər gün daha geniş şəkildə davam etdirilir. Xüsusən ötən illərdə dünyada hökm sürən maliyyə böhranı bir çox ölkələrdə sosial problemləri kəskinləşdirdiyi halda, ölkəmizdə sosial layihələr və iqtisadi islahatların icrası zəifləmədi, hətta əvvəlki sürətlə davam etdirildi.

Ekspertlərin qənaətinə görə, 2019-cu ilin ilk rübündə elə bir sahə yoxdur ki, maaşlarda, eləcə də sosial müavinətlər və təqaüdlərdə artımlar edilməsin. Prezident İlham Əliyev ilk növbədə qaçqın və məcburi köçkünlərin, şəhid ailələrinin durumunu diqqətdə saxlamaqla bu kateqoriyaya aid insanlara öz dəstəyini göstərdi. Şəhid ailələrinə istisnasız olaraq birdəfəlik müavinətlərin verilməsi, bu kateqoriyaya aid insanlara müavinətin 242 manatdan 300 manata, həmçinin Əfqanıstan veteranlarının müavinətinin 220 manatdan 300 manata yüksəldilməsi, məcburi köçkünlərə verilən aylıq müavinətlərin 50 faiz qaldırılması bunun əyani təzahürüdür.

Eyni zamanda, Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə 2019-cu ilin əvvəllərindən başlayaraq minimum əmək haqqının 38 faiz artırılaraq 130 manatdan 180 manata çatdırılması, minimum pensiyaların 38 faiz artırılaraq 116 manatdan 160 manata qədər qaldırılması, 100 minə yaxın tələbənin təqaüdünün yüksəldilməsi əhali tərəfindən rəğbətlə qarşılanıb.

Həmçinin aprelin 1-dən etibarən dövlət başçısının "Əhalinin sosial müdafiəsinin gücləndirilməsi sahəsində əlavə tədbirlər haqqında" Sərəncamı qüvvəyə minməklə 14 kateqoriya üzrə sosial müavinətlər, 7 kateqoriya üzrə Prezident təqaüdləri orta hesabla 100 faiz artırıldı. Beləliklə, 600 minə yaxın insanın, (buraya əlilliyi olan 300 min şəxs də daxildir) sosial durumu daha da yaxşılaşdırılacaq.

Həmçinin 2016-cı il aprel döyüşləri şəhidlərinin ailələri, yaralanmış əsgər və zabitlər dövlətin hərtərəfli qayğısı ilə əhatə olunublar. Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, şəhid ailələri və həmin döyüşlərdə yaralanaraq əlil olmuş hərbçilərlə bağlı mühüm sosial müdafiə tədbirləri həyata keçirilib. Yəni aprel döyüşləri ilə əlaqədar əlilliyi olanlar üçün də müavinət və təqaüdlər aprelin 1-dən 100 faizədək artırılıb.

Bir çox kateqoriyalara aid insanların müavinət və təqaüdlərinin artırılması bir daha təsdiq edir ki, 2019-cu il sosial inkişaf, əhalinin sosial müdafiəsi baxımından başqa illərdən fərqlənəcək.

Bir sözlə, ölkəmizin başçısının da vurğuladığı kimi, əgər 2017-ci il iqtisadi sabitləşmə, 2018-ci il isə dərin iqtisadi islahatlar ili olubsa, 2019-cu il həm sosial islahatlar ili, həm də iqtisadi artımın yüksək templərlə təmin ediləcəyi dövr kimi tarixə düşəcək.

✍ **Elçin Zaman,**
***"İki sahil"***

# Riyakarlığın kuliminasiyası

## Yaxud, saxta vətənpərvərlik, yalançı təəssübkeşlik...



İstər iki, istərsə də çoxtərəfli əməkdaşlığı xarici siyasətinin əsas prinsipi kimi qəbul edən Azərbaycanın qeyd olunan istiqamətlərdə qazandığı uğurlar göz önündədir. Dövlətimizin uğurlu xarici siyasəti nəticəsində yeni dostların coğrafiyası genişlənir, əlaqələr yeni istiqamətlər üzrə inkişaf etdirilir. Azərbaycanla Avropa İttifaqı, eyni zamanda, quruma üzv olan ölkələr arasında münasibətlərin hazırkı səviyyəsini geniş şəkildə təhlil etməyə ehtiyac yoxdur. Bu baxımdan ki, ötən il dövlətimizin başçısı İlham Əliyevin Belçikaya səfəri zamanı Avropa İttifaqı ilə imzalanan "Tərəfdaşlığın prioritetləri" adıl sənəd, həmçinin yaxın zamanlarda imzalanması nəzərdə tutulan "Strateji saziş" bu münasibətlərə işıq salır.

Bu, məsələnin əsas tərəfidir. Digər tərəfi "sapı özümüzdən olan baltalar"ın bu münasibətlərə qısqanclığından irəli gələn hay-küyləridir. Atdıqları hər addımda dövlət maraqlarını arxa plana keçirən bu ünsürlər ictimai fikri çaşdırmaq üçün belə təbliğat aparırlar ki, guya Azərbaycanla Avropa İttifaqı arasında yaxın zamanlarda imzalanacaq sazişdə yeganə problemimiz olan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllinə kölgə salan məqamlar vardır. Dağıdıcı ünsürlərin iddialara görə, guya Azərbaycan "Dağlıq Qarabag əvəzinə Avropa Birliyinə inteqrasiya" variantını seçib. Belə ajiotaj yaradan iddiaların müəllifinin kimliklərinə diqqət yetirdikdə onların "fəallığının" səbəbləri özlüyündə açıqlanır. Yenə də müəlliflərdən biri AXCP sədri Əli Kərimlidir.

Ə.Kərimlinin bu gün özünü vətənpərvər, xalqını, dövlətini düşünən bir şəxs kimi təqdim etməsi gülünc olmaqla yanaşı, onun daim ermənilərlə və ermənipərəst qüvvələrlə işbirliklərini yada salmaq məcburiyyətində qoyur. Hakimiyyətə gəldikləri təqdirdə işğal altında olan torpaqlarımızı ermənilərə bəxşiş edəcəkləri vədini verən bir ünsürün bu gün ictimai fikri çaşdırmaq üçün belə səsiz iddiaları gündəmə gətirməsi ikrah doğurur. Ən əsası onun bu yanlış fikri həqiqətdə məsələnin mahiyyətindən, imzalanan sazişin əhəmiyyətindən xəbərsiz olmasına işıq salır. Dövlətimizin xarici siyasətinin əsas prinsipi budur- Böyüklüyündən, kiçikliyindən asılı olmayaraq bütün dövlətlərdə bərabərhüquqlu, qarşılıqlı hörmət və maraqlar əsasında əməkdaşlıq əlaqələri qurmaq. Dövlətimizin maraqları atılan hər bir addımın əsasında dayanır. Yeganə problemimiz olan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı möhkəm hüquqi bazanın mövcudluğu dövlətimizin uğurlu siyasətinin nəticəsidir. Bu günlərdə dövlətimizin başçısı İlham Əliyevin Ermənistanın baş naziri Nikol Paşinyanla görüşünün nəticələrini əli kərimlilərə xatırlatmaq istərdik. Avstriya Azərbaycanın diplomatik uğuruna bələdçilik etməkdən məmnunluğunu ifadə etdi. Ölkəmizin belə diplomatik uğurları davamlıdır. Əli kərimlilərin bu gün sadəcə "biz də varıq" deyib yanlış düşüncələrinin məhsulunu ortaya qoymaları heç kəsdə təəccüb doğurmur.

Dövlətimizin dəyişməz mövqeyi ən yüksək tribunalardan bəyan edilir-Azərbaycanın ərazi bütövlüyü danışıqlar mövzusu deyil və olmayacaq. Bir qarış torpağımız belə düşmənə verilməyəcək. İşğal altında olan torpaqlarımız azad olunacaq, soydaşlarımız öz doğma yurd-yuvalarına qayıdacaqlar. Dövlətimizin bu mövqeyindən özünü xəbərsiz aparan əli kərimlilər ictimai fikirdə özləri barədə bu günə qədər formalaşdırdıqları mənfi rəydə, erməni sevgisində dəyişiklik etmək üçün dəridən-qabıqdan çıxsalar da, bunun mümkünsüzlüyünün şahididirlər.

Əli kərimlilər Azərbaycanla Avropa İttifaqı arasında imzalanan "Tərəfdaşlığın prioritetləri" adlı sənəddən də xəbərdar olsaydılar bilərdilər ki, münaqişənin həllində Azərbaycanın mövqeyi dəstəklənir. Həmin sənəd ölkəmizlə qurum arasında bütün sahələrdə əlaqələrin hazırkı səviyyəsinə işıq salır. Bu xatırlatmaları dağıdıcı ünsürlərə, ən əsası onlara rəhbərlik edən əli kərimlilərə etməkdə məqsədimiz budur ki, əsassız "müzakirələr"dən, mənasız iddialardan əl çəkib, əsl simalarını ortaya qoyub, ən əsası siyasətin heç də onların düşündüyü mahiyyəti daşımadığını etiraf etsələr yaxşıdır. Daim bəyan edildiyi kimi, müxalifətin siyasi meydanı iqtidarın gördüyü işlərin fonunda daralıb. Əsas olan onların özlərində cəsarət tapıb etiraf etmələri və siyasi meydanı tərk etmələridir. Amma görünür, Əli Kərimli kimilər belə ikrah doğuran fikirləri, saxta vətənpərvərlik, vətəndaşlıq təəssübkeşliyi nümayiş etdirməklə "fəaliyyətinin ömrünü" uzatmaq istəyir.

**Yeganə Əliyeva,**
***"İki sahil"***

# 17 marşrut üzrə avtobusların hərəkəti dəyişir



17 marşrut üzrə avtobusların hərəkət sxemində dəyişiklik ediləcək.

Bakı Nəqliyyat Agentliyindən Trend-ə bildirilib ki, paytaxtda keçiriləcək Formula 1 Azərbaycan Qran Pri yarışları ilə əlaqədar yollarda hərəkətin məhdudlaşdırıldığı günlərdə müntəzəm marşrut xətti üzrə avtobusların fasiləsiz fəaliyyəti təmin ediləcək.

Sərnişinlərin rahat və maneəsiz daşınması üçün Bakı şəhər halqası və ona yaxın küçələrdən keçən 17 marşrut xətti üzrə (1, 2, 4, 5, 6, 18, 31, 37, 46, 53, 61, 65, 77, 88, 125, 205, H1) avtobusların hərəkət sxemində dəyişiklik ediləcək. Qeyd edilən marşrut xətləri üzrə avtobuslar alternativ küçələrdən keçməklə hərəkət edəcək.

Müvafiq marşrut xətləri üzrə nəzərdə tutulan dəyişikliklər 22.04.2019 tarixindən etibarən tətbiq ediləcək və tədbir tam başa çatanadək qüvvədə olacaq.

# Dairəvi yolda aşan maşın tıxaca səbəb oldu



Bakıda səhər saatlarında iki avtomobilin iştirakı ilə yol qəzası baş verib.

Trend-in məlumatına görə, Bakı Dairəvi-1 yolunun şəhər istiqamətindəki zolağında "Mercedes" və "Renault" markalı avtomobillər toqquşub.

Toqquşma nəticəsində "Renault" yol kənarındakı su ötürücüsünə aşıb.

Qəzada ciddi xəsarət alan olmasa da, hər iki avtomobilə ziyan dəyib.

Hadisə səbəbindən yolda tıxac yaranıb, qəza yerinə Dövlət Yol Polisinin əməkdaşları cəlb olunublar.

# MƏHƏMMƏD MİRZƏLİNİN DİLƏNÇİLİYİ

Son zamanlar Avropada yaşayan siyasi "mühacir şəbəkəsi" tərəfindən ölkəmizə, dövlətimizə qarşı çirkin kampaniyalar irəli sürülməsinin şahidi oluruq. Sözsüz ki, onların bu hərəkəti ölkə ictimaiyyəti tərəfindən çox böyük qınaqla qarşılanır. Təəssüf ki, "mühacir şəbəkəsi"nə məskunlaşdıqları ölkələrdəki Azərbaycanı sevməyən bəzi dairələr də dəstək verirlər. Zaman-zaman "sapı özümüzdən olan baltalar"ımız bütün normaları və sərhədləri aşaraq, separatçı çıxışlar da edirlər. Erməni lobbisinin dəstəyindən bəhrələnənlərin, ölkəmizə qarşı xəyanətkar mövqeyindən əl çəkməyənlərin Azərbaycan əleyhinə kampaniyalar təşkil etmələrinin məqsədi hər kəsə məlumdur. Guya onlar öz aləmlərində Azərbaycanda siyasi hakimiyyət dəyişikliyi, özlərinin başa düşdükləri formada demokratiya yaratmaq istəyirlər. Avropada oturmaqla demokratiyadan, əxlaqi dəyərlərdən danışaraq guya özlərini dövlətin, xalqın dərdini çəkən biriləri kimi qələmə verənlərin yeganə məqsədi sadəcə olaraq dilənçilik etməklə üç-beş quruş pul əldə etməkdir.

Problem ondadır ki, bu adamların 90 faizinin intellektual səviyyəsi olduqca aşağıdır. Yəni onlar adicə iki nəfər qarşı-qarşıya gəldikdə məntiqli danışa bilmirlər. Yalnız söyüş söyməklə, bir-birlərini təhqir, hətta tənqid etməklə məşğuldurlar. Bu gün həmin adamların bir qisminin Avropada məskunlaşmasının səbəbkarı Azərbaycanda müxalifətin önündə getdiyini iddia edən şəxslərdir. Yəni müxalifət partiyalarının bəziləri sadəcə olaraq bu cür adamlara vəsiqə satmaqla məşğul olurlar. Həmin adamlar da gedib Avropaya yerləşərək, orada özlərini siyasi mühacir kimi qələmə verərək oturum alırlar. Hətta özlərinin siyasi fəal adam olduqlarını sübuta yetirmək üçün siyasi fəaliyyətlə belə məşğul olurlar. Lakin işlərinin qaydasında getmədiyi halda tez-tez sosial şəbəkələr üzərindən çıxaraq bir-birlərini təhqir edərək kimliklərini xatırlatmağa çalışırlar.



Hər kəsə əxlaqi dəyərlərdən və intellektdən kənar birisi kimi tanış olan Məhəmməd Mirzəli dilənçilik edərək bu dəfə də özünü ifşa etdi. Canlı yayımlarında söyüşdən və təhqirdən başqa sözü, fikri, ifadəsi olmayan Məhəmməd Mirzəli dilənməyi və şəxsi məqsədləri üçün açıq şəkildə insanlardan pul qoparmaq istəməsi ilə əsl mahiyyətini yenidən ortaya qoyub. Çox maraqlıdır ki, hər dəfə guya kanalının saxlanması üçün insanlardan pul dilənən Məhəmməd Mirzəli hansısa səbəblərdən Azərbaycan hakimiyyətinə qarşı fəaliyyətinə görə aldığı qrantları gizlətməyə çalışır. Axı, bu, həmin Məhəmməd Mirzəlidir ki, Tural Sadıqlı ilə 80 min avro qrantın savaşını aparırdı. Yaxud bu, həmin Məhəmməd Mirzəlidir ki, canlı yayımlarda hansısa beynəlxalq təşkilatlardan kamera, kompyuter və s. texniki dəstək almasını özü etiraf edirdi. Bəs, indi nə oldu? Həmin qrantlar, köməklər kəsildimi? Xeyr, əslə kəsilməyib. Sadəcə, Məhəmməd Mirzəli kimilər insanları aldatma yolu ilə pullarını ələ keçirmək, onların hesabına varlanmaq niyyətindədirlər...

**Mənsumə Babayeva,**
***"İki sahil"***

# SOCAR-ın TENDERLƏRİ



Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)

## Geofizika və Geologiya İdarəsi

**MKS 114,MKS 105,KQQ-1,ASEP 102124- tipli karotaj qaldırıcı qurğularının xidmət işlərinə olan tələbatını təmin etmək məqsədi ilə açıq satınalma müsabiqəsi (12005-19/TX) elan edir.**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***
* Müsabiqədə iştirak haqqında müraciət;
* İştirak haqqının ödənilməsi barədə bank sənədi;
* Müsabiqə təklifi.

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 08.05.2019-cu il, Bakı vaxtı ilə saat 16:30-a qədər Azərbaycan və ya ingilis dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Müsabiqə təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:***
* Müsabiqə təklifi bir əsli və iki surəti olmaqla 17.05.2019-cu il, Bakı vaxtı ilə saat 10:30-a qədər Satınalan təşkilata təqdim olunmalıdır.
* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.

***III. İştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***
* Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan və ya ingilis dilində əldə etmək istəyənlər
* 118 manat (ƏDV daxil olmaqla), Ödəniş edərkən ödənişi təsdiq edən bank tapşırığında açıq satınalma prosedurunun nömrəsi qeyd olunmalıdır.

və ya ekvivalent məbləğdə sərbəst dönərli valyuta ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I qrafasında göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 09:30-dan 16:30-a kimi ala bilərlər.

Hesab nömrəsi:
Azərbaycan Beynəlxalq Bankı ASC,
AZ38IBAZ38010019449306332120,
VÖEN: 9900003871,
Müştəri Xidməti Departamenti,
Kod: 805250,
Müxbir hesab: AZ03NABZ01350100000000002944,
VÖEN: 9900001881,
SWIFT BIK: İBAZAZ2X

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

***IV. Bank təminatı:***
* Bank təminatı: (Tələb olunmur)
* İddiaçının təqdim etməli olduğu müsabiqə təklifinin təminatı müsabiqə təklifinin ümumi qiymətinin 1 (bir) %-i miqdarında tələb olunur. (Tələb olunmur)
* Avans ödənişin təminatının məbləği ən azı ödəniləcək avans məbləğinə bərabər olmalıdır. (Tələb olunmur)
* Müqavilənin yerinə yetirilməsi təminatı satınalma müqaviləsinin qiymətinin 5 (beş) % məbləğində müəyyənləşdirilir. (Tələb olunmur)
* Bank qarantiyalarının əsli müsabiqə zərfində müsabiqə təklifi ilə birlikdə təqdim edilməlidir. Əks təqdirdə satınalan təşkilat belə təklifi rədd etmək hüququnu özündə saxlayır. (Tələb olunmur)
* Qarantiyanı vermiş maliyyə təşkilatı Azərbaycan Respublikasında və/və ya beynəlxalq maliyyə əməliyyatlarında qəbul edilən olmalıdır. Satınalan təşkilat etibarlı hesab edilməyən bank qarantiyaları qəbul etməmək hüququnu özündə saxlayır. (Tələb olunmur)
* Əgər satınalma müsabiqəsində iştirak etmək istəyən şəxslər digər növ təminat (akkreditiv, qiymətli kağızlar, satınalan təşkilatın müsabiqəyə dəvət sənədlərində göstərilmiş xüsusi hesabına pul vəsaitinin köçürülməsi, depozitlər və digər maliyyə aktivləri) təqdim etmək istədikdə təminat növünün mümkünlüyü barədə elanda göstərilmiş əlaqələndirici şəxsə əvvəlcədən sorğu verməlidir və razılıq əldə etməlidir. (Tələb olunmur)
* Təltif olunacaq müqavilə üzrə icazə verilən maksimum avans həddi müqavilə dəyərinin 30%-dən çox olmamalıdır.

***V. Müqavilənin icra müddəti:***
* Satınalma müqaviləsinin 12 (on iki) ay ərzində yerinə yetirilməsi tələb olunur.

***VI. Satınalan təşkilatın ünvanı:***
Azərbaycan Respublikası, Bakı şəhəri, N.Nərimanov rayonu, Heydər Əliyev pr-ti, 83 A AZ1033 (indeks),

**Əlaqələndirici şəxs:**
Gülay İbrahimova
Satınalmaların təşkili şöbəsi, mühəndis
Telefon: (+99 412) 521-04-17
Faks: (+99 412) 521-04-17
gulay.ibrahimova@socar.az
Ilyas.Bagiyev@socar.az

***VII. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***
www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices)

***VIII. Müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***
Zərflərin açılışı 17.05.2019-cu il tarixdə, Bakı vaxtı ilə saat 11:00-da elanın VI qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***IX. Müsabiqənin nəticəsi haqqında məlumat:***
Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə edilə biləcək:
http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

Geofizika və Geologiya idarəsinin Satınalmalar qrupu



Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)

## Geofizika və Geologiya İdarəsi

**(GGİ) Mərkəzi kondisioner sistemi və ventilyatorların satınalınması üçün AÇIQ MÜSABİQƏ (12007-19 ) elan edir.**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***
* Müsabiqədə iştirak haqqında müraciət;
* İştirak haqqının ödənilməsi barədə bank sənədi;
* Müsabiqə təklifi.

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 13.05.2019-cu il, Bakı vaxtı ilə saat 17:30-a qədər Azərbaycan və ya ingilis dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Müsabiqə təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:***
* Müsabiqə təklifi bir əsli və iki surəti olmaqla 20.05.2019-cu il, Bakı vaxtı ilə saat 11:30-a qədər Satınalan təşkilata təqdim olunmalıdır.
* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.

***III. İştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***
* Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan və ya ingilis dilində əldə etmək istəyənlər
* 156.00 manat (ƏDV daxil olmaqla), Ödəniş edərkən ödənişi təsdiq edən bank tapşırığında açıq satınalma prosedurunun nömrəsi qeyd olunmalıdır.

və ya ekvivalent məbləğdə sərbəst dönərli valyuta ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I qrafasında göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 09:30-dan 17:30-a kimi ala bilərlər.

Hesab nömrəsi:
Azərbaycan Beynəlxalq Bankı ASC,
AZ38IBAZ38010019449306332120,
VÖEN: 9900003871,
Müştəri Xidməti Departamenti,
Kod: 805250,
Müxbir hesab: AZ03NABZ01350100000000002944,
VÖEN: 9900001881,
SWIFT BIK: İBAZAZ2X

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

***IV. * Bank təminatı: (Tələb olunmur)***
* İddiaçının təqdim etməli olduğu müsabiqə təklifinin təminatı müsabiqə təklifinin ümumi qiymətinin 1 (bir) %-i miqdarında tələb olunur. (Tələb olunmur)
* Avans ödənişin təminatının məbləği ən azı ödəniləcək avans məbləğinə bərabər olmalıdır. (Tələb olunmur)
* Müqavilənin yerinə yetirilməsi təminatı satınalma müqaviləsinin qiymətinin 5 (beş) % məbləğində müəyyənləşdirilir. (Tələb olunmur)
* Bank qarantiyalarının əsli müsabiqə zərfində müsabiqə təklifi ilə birlikdə təqdim edilməlidir. Əks təqdirdə satınalan təşkilat belə təklifi rədd etmək hüququnu özündə saxlayır. (Tələb olunmur)
* Qarantiyanı vermiş maliyyə təşkilatı Azərbaycan Respublikasında və/və ya beynəlxalq maliyyə əməliyyatlarında qəbul edilən olmalıdır. Satınalan təşkilat etibarlı hesab edilməyən bank qarantiyaları qəbul etməmək hüququnu özündə saxlayır. (Tələb olunmur)
* Əgər satınalma müsabiqəsində iştirak etmək istəyən şəxslər digər növ təminat (akkreditiv, qiymətli kağızlar, satınalan təşkilatın müsabiqəyə dəvət sənədlərində göstərilmiş xüsusi hesabına pul vəsaitinin köçürülməsi, depozitlər və digər maliyyə aktivləri) təqdim etmək istədikdə təminat növünün mümkünlüyü barədə elanda göstərilmiş əlaqələndirici şəxsə əvvəlcədən sorğu verməlidir və razılıq əldə etməlidir. (Tələb olunmur)
* Təltif olunacaq müqavilə üzrə icazə verilən maksimum avans həddi müqavilə dəyərinin 30%-dən çox olmamalıdır.

***V. Müqavilənin icra müddəti:***
* Satınalma müqaviləsinin 60 təqvim günü sifariş əsasında yerinə yetirilməsi tələb olunur.

***VI. Satınalan təşkilatın ünvanı:***
Azərbaycan Respublikası, Bakı şəhəri, N.Nərimanov rayonu, Heydər Əliyev pr-ti, 83 A AZ1033 (indeks),

**Əlaqələndirici şəxs:**
Zakir Babayev
Satınalmaların təşkili şöbəsi, şöbə rəisi
Telefon: (+99 412) 521-04-17
Faks: (+99 412) 521-04-17
qurban.kerimli@socar.az
Ilyas.Bagiyev@socar.az

***VII. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***
www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices)

***VIII. Müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***
Zərflərin açılışı 20.05.2019-cu il tarixdə, Bakı vaxtı ilə saat 12:00-da elanın VI qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***IX. Müsabiqənin nəticəsi haqqında məlumat:***
Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə edilə biləcək:
http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

Geofizika və Geologiya İdarəsinin Satınalmalar qrupu

# SOCAR-ın TENDERLƏRİ



Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)

## “Qaz İxrac” İdarəsi

**tələbatına əsasən rezin şarların açıq satınalma müsabiqəsi (22006-19) üzrə müvafiq tarixlərin dəyişdirilməsini elan edir.**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***
* Müsabiqədə iştirak haqqında müraciət;
* İştirak haqqının ödənilməsi barədə bank sənədi;
* Müsabiqə təklifi.

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 01.05.2019-cu il, Bakı vaxtı ilə saat 17:30-a qədər Azərbaycan və ya rus dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Müsabiqə təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:***
* Müsabiqə təklifi bir əsli və 2 surəti olmaqla 06.05.2019-cu il, Bakı vaxtı ilə saat 11:30-a qədər zərflərin açılış zalında Satınalmalar qrupuna təqdim olunmalıdır. İddiaçının nümayəndələri qeydiyyatdan keçmələri üçün ən az yarım saat öncədən Satınalan təşkilata gəlməlidirlər.
* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.
* İştirakçının inzibati binaya buraxılışını təmin etmək üçün müraciət məktubunda iddiaçı şirkəti təmsil edəcək şəxsin adı, soyadı, vəzifəsi mütləq qeyd olunmalıdır.
* İddiaçını müsabiqədə təmsil edəcək şəxslə bağlı sonradan edilən dəyişiklik qəbul olunmayacaqdır.

***III. İştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***
* Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan və ya rus dilində əldə etmək istəyənlər 59 AZN (ƏDV daxil) və ya ekvivalent məbləğdə sərbəst dönərli valyuta ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I qrafasında göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 09:30-dan 17:30-a kimi ala bilərlər.

Hesab nömrəsi:
Azərbaycan Beynəlxalq Bankı ASC,
AZ38IBAZ38010019449306332120,
VÖEN: 9900003871,
Müştəri Xidməti Departamenti,
Kod: 805250,
Müxbir hesab: AZ03NABZ01350100000000002944,
VÖEN: 9900001881,
SWIFT BIK: İBAZAZ2X

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

Müsabiqələr üzrə iştirak haqqı ödənilərkən ödəniş tapşırığında müsabiqənin nömrəsi, Lot nömrəsi, iddiaçı şirkətin tam adı mütləq qeyd olunmalıdır. Əks halda edilmiş ödəniş etibarsız sayılacaqdır!

***IV. Müqavilənin icra müddəti:***
* Satınalma müqaviləsinin 30 təqvim günü ərzində yerinə yetirilməsi tələb olunur.

***V. Satınalan təşkilatın ünvanı:***
AZ1025; Bakı şəhəri; Xətai rayonu; Rövşən Əliyev, 19.
**Əlaqələndirici şəxs:**
Vüqar İbrahimov (soyadı və adı).
Satınalmaların təşkili şöbəsinin mühəndisi (struktur bölmənin və vəzifənin adı)
+ (994)012 521 07 00 (22106) (əlaqələndirici şəxsin korporativ telefon nömrəsi)
Mob: +(994)50 842 21 06
vuqar.ibrahimov@socar.az (əlaqələndirici şəxsin korporativ elektron ünvanı)

***VI. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***
www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices)

***VII. Müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***
Zərflərin açılışı 06.05.2019-cu il tarixdə, Bakı vaxtı ilə saat 11:30-da elanın V qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***VIII. Müsabiqənin nəticəsi haqqında məlumat:***
Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə edilə biləcək:
http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**“Qaz İxrac” İdarəsinin Satınalmalar qrupu**



Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)

## “Qaz İxrac” İdarəsi

**ISO standartlara olan tələbatı təmin etmək məqsədilə açıq satınalma müsabiqəsi (22008-19) elan edir.**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***
* Müsabiqədə iştirak haqqında müraciət;
* İştirak haqqının ödənilməsi barədə bank sənədi;
* Müsabiqə təklifi (müsabiqə təklifləri zərflərinin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır).

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 10.05.2019-cu il, Bakı vaxtı ilə saat 17:30-a qədər Azərbaycan və ya ingilis dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Müsabiqə təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:***
* Müsabiqə təklifi bir əsli və iki surəti olmaqla 17.05.2019-cu il, Bakı vaxtı ilə saat 11.30-a qədər Satınalan təşkilata təqdim olunmalıdır.
* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.

***III. İştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***
* Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan və ingilis dilində əldə etmək istəyənlər 118 manat (ƏDV ilə birlikdə) və ya ekvivalent məbləğdə sərbəst dönərli valyuta ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I qrafasında göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 09:30-dan 17:30-a kimi ala bilərlər.

Hesab nömrəsi:
Azərbaycan Beynəlxalq Bankı ASC,
AZ38IBAZ38010019449306332120,
VÖEN: 9900003871,
Müştəri Xidməti Departamenti,
Kod: 805250,
Müxbir hesab: AZ03NABZ01350100000000002944,
VÖEN: 9900001881,
SWIFT BIK: İBAZAZ2X

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

***IV. Müqavilənin icra müddəti:***
* Satınalma müqaviləsinin 30 gün yerinə yetirilməsi tələb olunur.

***V. Satınalan təşkilatın ünvanı:***
AZ1025; Bakı şəhəri; Xətai rayonu; Rövşən Əliyev 19.
**Əlaqələndirici şəxs:**
Vüqar İbrahimov (soyadı və adı).
Satınalmaların təşkili şöbəsinin mühəndisi (struktur bölmənin və vəzifənin adı)
+ (994)012 521 07 00 (22106) (əlaqələndirici şəxsin korporativ telefon nömrəsi)
Mob: +(994)50 842 21 06
vuqar.ibrahimov@socar.az (əlaqələndirici şəxsin korporativ elektron ünvanı)

***VI. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***
www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices)

***VII. Müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***
Zərflərin açılışı 17.05.2019-cu il tarixdə, Bakı vaxtı ilə saat 11:30-da elanın V qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***VIII. Müsabiqənin nəticəsi haqqında məlumat:***
Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə edilə biləcək:
http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**“Qaz İxrac” İdarəsinin Satınalmalar qrupu**

# Heydər Əliyevin hüquqi islahatlar strategiyası iqtisadi inkişafın mühüm şərtidir

*Heydər Əliyev:*

**Əgər hər hansı ölkənin xalqları öz hüquqlarını anlayır və onları qoruya bilirsə, o zaman ən kiçik dövlət belə ən böyük məmləkət qədər güclü olar**

⇨ Əvvəli ötən sayda

Heydər Əliyev sosial-iqtisadi inkişafı sürətləndirmək üçün 1995-2003-cü illər ərzində çox sayda fərman və sərəncamlar imzaladı. Bu fərman və sərəncamlarda:

** dövlət əmlakının özəlləşdirilməsinin kompleks və hərtərəfli proqramının həyata keçirilməsi;*

** bu məqsədlə Dövlət Komissiyasının yaradılması;*

** özəlləşdirmə prosesində əhalinin bütün təbəqələrinin sosial müdafiəsinin təmin edilməsi;*

** bazar iqtisadiyyatına keçid, sosial-iqtisadi islahatların həyata keçirilməsi, bazar iqtisadiyyatının məna və məzmunun elmi cəhətdən əsaslandırılması;*

** iqtisadiyyatın idarə edilməsinin təkmilləşdirilməsi;*

** dövlət əmlakının özəlləşdirilməsi zamanı ədalət prinsipinin və dövlət mənafeyinin qorunması;*

** iqtisadiyyatda liberallaşma prosesinin aparılması və gücləndirilməsi ixrac və idxalın liberallaşması;*

** iqtisadiyyatda özəl sektorun inkişafı;*

** iqtisadiyyatda struktur dəyişikliklərin aparılması;*

** zəngin təbii ehtiyatlardan, potensialdan səmərəli istifadə edilməsini qarşılıqlı faydalı iqtisadi əlaqələrin inkişaf etdirilməsi;*

** xarici sərmayənin Azərbaycana gəlməsinə şərait yaradılması;*

** istehsal, xidmət, maliyyə-kredit fəaliyyətinə dövlət nəzarətinin qaydaya salınması və əsassız yoxlamaların qadağan olunması;*

** xarici ticarətin tənzimlənməsi;*

** torpaq islahatları;*

** kənd təsərrüfatının inkişaf etdirilməsi nəzərdə tutulmuşdu.*

Heydər Əliyev çıxışlarının birində “Respublikamızda iqtisadi islahatların həyata keçirildiyini və insanların təşəbbüskarlıq və sahibkarlıq addımlarının dövlət və hökumət tərəfindən bəyənildiyini, onların həyata keçirilməsi üçün lazımi imkanlar yaradıldığını” bəyan edirdi.

Heydər Əliyevin iqtisadi siyasətinin tərkib hissələrindən biri də sosial siyasətdir. Heydər Əliyev sosial və iqtisadi siyasəti vəhdətdə yeridirdi. Heydər Əliyevin yeritdiyi sosial siyasət sosial sahədəki mövcud sosial münasibətləri tənzimləməklə xalqımızın sosial şəraitinin yaxşılaşdırılması, bu sahədəki əlaqələrin təkmilləşdirilməsi istiqamətində fəaliyyəti əhatə edirdi. Bu siyasətin başlıca məqsədi adamların sosial tələblərinin və maraqlarının özənilməsi üçün şərait yaratmaq, ayrı-ayrı vətəndaşlara, qruplara, sosial yardım göstərmək, onların sosial müdafiəsini və reabilitasiyasını təşkil etmək idi.

Heydər Əliyevin sosial siyasətinin əsas vəzifəsi daha geniş məsələləri əhatə edirdi. Buraya:

** adamların həyat səviyyəsini və əmək şəraitini yaxşılaşdırmaq;*

** bazar iqtisadiyyatı münasibətlərinə uygun gələn yeni sosial-siyasi quruluşu formalaşdırmaq;*

** sosial ədalət və müdafiəni həyata keçirmək;*

** millətlərarası və etnoslararası münasibətləri tənzimləmək;*

** ölkədə demoqrafik və ekoloji şəraiti normalaşdırmaq;*

** cəmiyyətdə meydana çıxan və çıxa biləcək sosial tələblərin öyrənilməsi, təhlili və nəzərə alınması;*

** səmərəli normativ dəyər sisteminin yaradılması, sosial normaların vətəndaşlara real təsiri yaranmış sosial tələb və maraqlarla onların ödənilməsinin uyğunlaşdırılması, sosial normativlərin dəqiqliyini və obyektivliyini təminetmə;*

** xalqın bütün təbəqəsinin maraqlarını nəzərə alan ümumdövlət regional, yerli və lokal sosial-siyasət daxildir.*

Sosial siyasət siyasi, iqtisadi siyasətlə uzlaşdıqda daha kəsərli, daha dərin və daha təsirli olur. Heydər Əliyev siyasəti kompleks xarakter daşıdığı üçün onun təsiri güclü, əhatəli və qüdrətli idi.

Ulu Öndər sosial-iqtisadi siyasətin hüquqi bazasını yaratdı, bu sahəni tənzimləyən hüquqi qanunvericilik aktları qəbul edən ictimai, maddi və mənəvi şəraiti, həmçinin bu şəraitin mövcudluluğunu və fəaliyyətini özündə birləşdirən sosial mühiti sağlamlaşdırmaq, bərabərlik və sosial ədalət prinsipləri üzərində qurulmuş yeni qaydalar işləyib hazırladı. Bunun üçün müvafiq qurum, orqan və təşkilatlar yaratdı. Heydər Əliyev ardıcıl elmi-nəzəri biliklərə, qabaqcıl inkişaf etmiş ölkələrin təcrübəsinə əsaslanan davamlı sosial siyasəti həyata keçirdi, sosial sahə ilə bağlı-məcburi köçkünlərin, əlillərin, veteranların sosial müdafiəsi, sağlamlığının qorunması, tibbi sığorta, özəl tibbi fəaliyyət və s. haqqında 50-yə yaxın qanun qəbul edilməsini təmin etdi, bununla sosial siyasətin əsası olan sosial qarantiyaların təsbit olunması üçün möhkəm qanunvericilik bazasını formalaşdırdı.

Dövlət başçısı sosial siyasəti formalaşdırarkən, sosial siyasətin hüquqi bazasının yaradılmasında beynəlxalq təşkilatlarla əlaqələrə müstəsna əhəmiyyət verirdi. O, sosial siyasət sahəsində BMT və onun orqanları və qurumları, regional dövlətlərarası təşkilatlar və qeyri-hökumət təşkilatları ilə əməkdaşlığa üstünlük verirdi.

Heydər Əliyevin apardığı xarici və daxili siyasət sosial-iqtisadi siyasətlə vəhdət təşkil edirdi. Onun yürütdüyü sosial siyasətdə iqtisadi, sosial-siyasi, sosial-mədəni, sosial-məişət və s. aspektləri əhatə edirdi.

Ölkənin bütün sahələrinin qismən sabitləşmə və inkişafı dövrü Heydər Əliyevin sabitləşmə və inkişaf dövrünün yaradıcısı olduğunu xüsusi qeyd etmək lazımdır.

Heydər Əliyev Azərbaycan iqtisadiyyatının bazar iqtisadiyyatı yolu ilə inkişaf etməsinə böyük diqqət yetirirdi.

Azərbaycan Respublikasının Prezidenti respublikamızda bazar iqtisadiyyatının inkişaf etdirilməsində iqtisadi-maliyyə islahatlarının həyata keçirilməsinə böyük əhəmiyyət verirdi. Heydər Əliyev müstəqilliyin ilk günlərindən belə hesab edirdi ki, sərbəst iqtisadiyyat yolu ilə, dünya iqtisadiyyatı ilə sıx inteqrasiya yaradılması yolu, bazar iqtisadiyyatı yolu ilə gedən müstəqil dövlət müasir tələblərə uyğun, dünya standartlarına uyğun maliyyə-kredit, maliyyə-bank sistemi təsis etməlidir. Dahi prezident öz cəsarətli tədbirləri, siyasi-iqtisadi fəaliyyəti ilə qarşıya qoyulan problemləri həll etdi.

** Azərbaycan iqtisadiyyatının neft və qeyri-neft sektoruna xarici investisiyaların həcmi artdı;*

İqtisadiyyatın bütün sahələrində dirçəliş və inkişaf baş verdi;

** İnflyasiyanın qarşısı alındı;*

** Maliyyə böhranı və nöqsanları aradan qaldırıldı;*

** Qiymətqoymada müsbət irəliləyişlər əldə edildi;*

** İdxalın ixraca nisbətən çox olması faktı azaldı, idxalla ixrac arasında nisbət tənzimləndi;*

** Dövlət büdcəsi yerinə yetirildi;*

** Gömrük xidmətinin strukturu yaxşılaşdırıldı, möhkəmləndirildi və inkişaf etdirildi;*

** Qiymətlərin liberallaşdırılması həyata keçirildi;*

** Xarici ticarət liberallaşdırıldı;*

** Sərt maliyyə-kredit və büdcə siyasəti aparıldı;*

** Səmərəli bank sistemi formalaşdırıldı;*

** Milli pul vahid dövriyyəyə buraxıldı və möhkəmləndirildi;*

** İnstitusional islahatlar həyata keçirildi;*

** Beynəlxalq maliyyə institutları ilə əməkdaşlıq gücləndirildi.*

1995-ci ilin ortalarından hərtərəfli dövlət quruculuğu, qanunçuluq və sabitliyin möhkəmlənməsi ilə yanaşı Azərbaycan Respublikasının intensiv inkişaf mərhələsi kimi də tarixə düşdü.

Bu dövrün xarakterik xüsusiyyətləri belə idi:

** Ümumi daxili məhsulda özəl sektorun payı nəzərə çatacaq dərəcədə artdı;*

** İnflyasiya yox dərəcəsinə endirildi;*

** Ölkənin valyuta fondu artdı (1 milyard 300 milyon dollar);*

** Neft fondunun vəsaiti 690 milyon dollara çatdı;*

** Ümumi sənaye istehsalı artdı (2001-ci ildə 5,1%);*

** Xam neftin hasilatı 2001-ci ildə 14,9 .milyon tona çatdı;*

** Dənizdə neft hasilatı artdı;*

** Elektrik enerjisi, avtomobil benzininin, azotun, spirtin, çuqunun, poladın, sementin, neft-mədən avadanlıqlarının istehsalı artdı;*

** Kənd təsərrüfatı məhsullarının istehsalı 2001-ci ildə 11 faiz artdı;*

** Taxil, ət, süd və s. məhsulların istehsalı yüksəldi.*

Aqrar islahatı sahəsində nöqsanları aradan qaldırmaq və onu daha da inkişaf etdirmək üçün Heydər Əliyev Dövlət Proqramı hazırladı, müvafiq sərəncam və fərmanlar verdi.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev sosial-iqtisadi siyasətin uğurlu gələcəyin rəhni olduğunu uzaqgörənliklə göstərirdi: “Respublikamızın həm iqtisadiyyatını, həm də xalqın rifah halını çox yaxşı gələcək gözləyir. Biz bunu indiyə qədər gördüyümüz işlərin əsasında təmin etmişik və gələcəkdə görəcəyimiz işlər bunların hamısını tamamlayacaqdır”.

Heydər Əliyevin sosial-iqtisadi siyasətində “Əsrin müqaviləsi” ilə yanaşı Böyük İpək Yolunun bərpası kimi qlobal prosesdə Azərbaycanın mühüm yerini müəyyənləşdirmək və öz layiqli töhfəsini vermək əsas yer tuturdu. Heydər Əliyev deyirdi: “Azərbaycan “İpək Yolu”nun mərkəzində yerləşir. “İpək Yolu” Yaponiya, Çin və Mərkəzi Asiyadan keçib Xəzərə çıxacaqdır. Xəzərdə Şərq və Qərb sahilləri arasında keçid bərəsi var və bu bərə Azərbaycana məxsusdur. Bakı “İpək Yolu”nun üstündə yeganə iri dəniz limanıdır. Ona görə də Azərbaycan burada çox mühüm strateji mövqe tutur”.

Tarixi “İpək Yolu”na qayıdışı III minilliyin başlanğıcında gedən ictimai-siyasi proseslər kontekstində ən çox nəzərə çarpan hadisə kimi dəyərləndirən Heydər Əliyev uzaqgörən siyasəti sayəsində qloballaşmanın yaratdığı iqtisadi inteqrasiya imkanlarından uğurla istifadə edərək “Əsrin müqaviləsi” ilə yanaşı “Böyük İpək Yolunun” bərpası kimi planetar miqyaslı iqtisadi hadisələrin mərkəzində durmağa nail oldu: “Tarixi İpək Yolinun bərpası, yeni-yeni ölkələrin və regionların ona cəlb edilməsi, xalqlarımızın yaxınlaşması və qarşılıqlı surətdə zənginləşməsi, yeni müstəqil dövlətlərin istiqlaliyyətinin və suverenliyinin möhkəmlənməsi, dövlətlərdə demokratik islahatların, bazar islahatlarının uğurla aparılmasına düzgün təkan verəcək, hamı üçün sülhün, sabitliyin və təhlükəsizliyin təmin olunmasına kömək göstərəcəkdir”.(Dirçəliş-XXI əsr, 2005 dekabr, 2006 yanvar, №94-95, səh 60.)




**Sadiq Qurbanov,**
*Azərbaycan Dövlət İqtisad Universitetinin İqtisadiyyatın hüquqi tənzimlənməsi kafedrasının dosenti*

Heydər Əliyevin siyasəti nəticəsində beynəlxalq əməkdaşlıq çərçivəsində həyata keçirilən ən uğurlu iqtisadi layihələrdən biri də Avropa İttifaqının həyata keçirdiyi TRASEKA proqramıdır. Azərbaycan 1993-cü ildə Brüssel Konfransında Qafqazın və Mərkəzi Asiyanın digər yeni müstəqil dövlətlərilə birlikdə Avropa Birliyinin Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin inkişafına yardım üzrə TRASEKA proqramının işgüzar iştirakçısına çevrildi.

TRASEKA proqramının əsas məqsədləri aşağıdakılardan ibarət idi.

** Alternativ nəqliyyat dəhlizləri vasitəsilə yeni yaranmış müstəqil dövlətlərin Avropa bazarına çıxışına şərait yaratmaq və bu yolla onlara siyasi-iqtisadi dəstək vermək;*

** Müstəqil respublikalar arasında regional (məhəlli) əməkdaşlığa təkan vermək;*

** TASİS-TRASEKA proqramının köməyi ilə Beynəlxalq maliyyə təşkilatlarının və özəl investorların cəlb edilməsini gücləndimək;*

** TRASEKA marşrutunu Trans Avropa Şəbəkəsi ilə əlaqələndirmək. (S.Xəlilov, Lider, Cəmiyyət, Dövlət. Səh 301-302)*

1998-ci il sentyabrın 7-8-də Heydər Əliyevin humanist səyi nəticəsində Böyük İpək Yolunun bərpasına və dirçəldilməsinə həsr olunmuş konfrans keçirilmişdir.

Azərbaycan Qərblə Şərq arasında birləşdirici məntəqə, Avropa, Asiya, Çin, Rusiya, Aralıq dənizi arasında, Mərkəzi və Şərqi Avropa arasında iqtisadi və mədəni əlaqələrin yaradılmasında mühüm rol oynamalıdır.

“Böyük İpək Yolu bölgəsinin diplomatiyası” adlandırılan siyasətin yaranmasında və həyata keçirilməsində Heydər Əliyevin rolu əvəzsizdir.

Heydər Əliyevin iqtisadi siyasəti nəticəsində Azərbaycan bazar iqtisadiyyatı yolu ilə gedir, informasiya cəmiyyətinə və D.Bellin qeyd etdiyi kimi xidmət iqtisadiyyatının üstünlük təşkil etdiyi, “mütəxəssislər və texniklər sinfinin rolunda artdığı, texnikanın yenidən qurulması və siyasətin formalaşmasında nəzəri biliyin həlledici rol oynadığı, texnologiyada nəzarət edilən, qərarların yeni intellektual texnologiya bazasında qəbul edildiyi “sənayedən sonrakı” cəmiyyətə keçidin əlamətlərini özündə daşımağa başlamışdır.

Heydər Əliyev siyasətlə iqtisadiyyatın qarşılıqlı əlaqəsində inqilab yaradan dahi siyasətçi idi. Məlumdur ki, sosial sistemlərin transformasiyasında iqtisadiyyatla siyasətin qarşılıqlı təsirinin nəzəri cəhətdən araşdırılması əsas məsələlərdən biridir. Xüsusilə super mərkəzləşdirilmiş sosialist planlaşdırılmasından bazar iqtisadiyyatı sisteminə keçid dövründə bu təsirin öyrənilməsi daha çox aktuallıq kəsb edir.

R.Mustafayev hazırda bu sahədə üç həqiqətin öz qüvvəsini saxladığını qeyd edir:

*1. Hələlik adamların tələbatını ödəyə biləcək həcmdə və keyfiyyətdə əmtəə istehsalına nail olmaq üçün bazar sistemindən yaxşı model və yol tapılmayıbdır. Lakin bu heç də təbii seçim probleminin zirvəsi deyildir.*

*2. Əlahiddə fəaliyyət göstərən bazar sistemi olduqca çevik və etibarlıdır. O, müxtəlif mədəniyyətlərə və siyasi sistemlərə müvəffəqiyyətlə uyğunlaşa bilər (totalitar kommunizmdən başqa). Hətta bir sıra sosial böhran şəraitində yaşamaq qabiliyyətinə də malikdir. Lakin bütün canlı orqanizmlər kimi, onda qüsur ola bilər. Normal vəziyyət pozulduqda isə dağılma prosesi baş verir.*

*3. Bazar sistemi demokratiyanı müdafiə etmək, ona dayaq olmaq üçün lazımdır. Belə ki, bazar hər gün vətəndaşa daha geniş azadlıq, sərbəstlik verir və bununla adamlar əhəmiyyətli bildikləri fəaliyyət sahəsi seçmək imkanı qazanır. Təşkilati-hüquqi planda azadlıq möhkəmlənir.*

Plüralizm və bazarın kobud eqalitarizmi-mülkiyyətin fərdi mülkiyyət əsasında bərabərləşdirilməsi demokratik siyasi qaydaların əsasını təşkil edir. Demokratik qaydalar hakimiyyət özbaşınalıqlarını aradan qaldırır, lakin belə halların təkrar olunmayacağına tam təminat vermir.

R.Mustafayev iqtisadiyyatla siyasətin qarşılıqlı münasibətinin üç aspektini göstərərək Azərbaycanın Şərq psixologiyasına və Avrasiya dövlətçilik ənənəsinin malik olduğunu, habelə keçid dövrünün özünəməxsus siyasətin həyata keçirilməsi, bazar iqtisadiyyatı və demokratiyanın reallaşma tempi barədə düzgün fikir söyləmişdir:

*-əvvala, adamları geyindirib, yedirtməyə qabil bazar iqtisadiyyatı, adamlarda öz dolanışığı üçün pul qazanmaq vərdişi formalaşmalıdır. Onun yetkin çağında isə demokratiya genişlənməlidir, bunula belə bazar iqtisadiyyatının özü elə ilk mərhələdən demokratik ünsürlərlə müşayət edilməlidir;*

*-bazar iqtisadiyyatına da, demokratiyaya da keçid pillə-pillə, tələsmədən olmalıdır. Şübhəsiz ki, bazar iqtisadiyyatının sürəti demokratiyanın sürətindən üstün həyata keçirilməlidir;*

*-bazar iqtisadiyyatının yetkinlik çağında demokratiya qaçılmaz olacaqdır. Bu prosesdə informasiyanın rolu xüsusilə əvəzedilməzdir.*

Beləliklə, Heydər Əliyev siyasətlə iqtisadiyyatın qarşılıqlı əlaqəsini gücləndirərək:

** iqtisadi siyasətin vahidliyini, bölünməzliyini və sosial yönümlülüyünü təmin etdi;*

** iqtisadi siyasətin proqnozlaşdıra bilən olmasını sübut etdi;*

** iqtisadi siyasəti sosial-strukturlaşdırılmış iqtisadi sistemin yaradılmasına istiqamətləndirə bildi, struktur siyasəti və strategiyası əsasında yaradılmış proqramları reallaşdıra bildi;*

** sosial-iqtisadi inkişafın cari vəziyyətinin obyektiv qiymətləndirilməsini reallaşdıra bildi;*

** iqtisadi siyasətdə keçid dövründə dövlətin əlahiddə tənzimləmə rolunu nəzərə aldı;*

** sübut etdi ki, iqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir.*

Əsası Heydər Əliyev tərəfindən qoyulmuş ölkənin sosial-iqtisadi inkişafı Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Cənab Prezident İlham Əliyev Azərbaycan iqtisadiyyatının gələcəyi haqqında belə demişdir: “Sərmayələrin gəldiyi əsas yer Bakıdır, neft sənayesidir. Ancaq biz çox maraqlıyıq ki, Azərbaycanın hər bir bölgəsi inkişaf etsin, ölkəmizin hər bir vətəndaşı aparılan böyük işlərin nəticəsini hiss etsin”.

Cənab İlham Əliyev dəfələrlə bildirmişdir ki, respublikamızın beynəlxalq aləmdə nüfuzunun yüksəlməsi, dünyanın inkişaf etmiş ölkələrinin, beynəlxalq təşkilatların Azərbaycana marağının artması, ilk növbədə, dövlətimizin uğurlu siyasəti ilə bağlıdır.

Bütün bunlar bir daha sübut edir ki, ulu öndər Heydər Əliyevin ənənələri, onun müəyyənləşdirdiyi siyasət ölməzdir.

*İdarə rəisi:*

### Bu üsul həm suya qənaətə imkan verir, həm də su itkisini minimuma endirir



Aqrar sektorun planlaşdırılmış istiqamətlərdə inkişafı su təminatının davamlılığından asılıdır. Məhz buna görə də Prezident İlham Əliyev meliorasiya və su təsərrüfatı sistemlərinin modernləşdirilməsinə həmişə xüsusi diqqət göstərir. Bu diqqətin sayəsində ölkə iqtisadiyyatının bütün sahələri kimi, meliorasiya və su təsərrüfatı da son 16 ildə böyük inkişaf yolu keçib. Belə ki, bu sahəyə ayrılmış əsaslı kapital qoyuluşu dəfələrlə artırılıb, onun maddi-texniki bazası xeyli yaxşılaşdırılıb.

Bu istiqamətdə Quba rayonunda da məqsədyönlü tədbirlər həyata keçirilməkdədir. **Quba Rayon Suvarma Sistemləri İdarəsinin rəisi, Əməkdar mühəndis Nazir Dadaşov** mövzu ilə bağlı "İki sahil" qəzetinə açıqlamasında bildirdi ki, rəhbərlik etdiyi təşkilat hazırda rayonda mövcud olan 26033 hektar suvarılan torpaq sahələrinə xidmət göstərir: "Rayonumuzda özəl torpaq sahibləri tərəfindən bağ və əkin sahələrinin genişləndirilməsi böyük vüsət alıb. Hazırda bağbanların öhdəsində 14139 hektar bağ, 4698 hektar əkin, 360 hektar tərəvəz-bostan, 3356 hektar həyətyanı, 3480 hektar yem bitkiləri sahəsi vardır. Suvarılan torpaq sahələrinin su təminatının yaxşılaşdırılması, həmçinin sudan səmərəli istifadə olunması məqsədilə ilboyu müntəzəm işlər aparılır ki, vegetasiya dövründə çətinliklər olmasın".

Müsahibimiz qeyd etdi ki, idarə tərəfindən bu il kənd təsərrüfatı bitkilərinin suvarılması üçün təsərrüfatlara 60,5 milyon kubmetr həcmində su verilməsi nəzərdə tutulub: "Rayonda kənd təsərrüfatı bitkilərinin suvarma suyu ilə təmin olunmasında əsasən Qudyalçayın, həmçinin digər çayların (Quru çay, Qusar çay, Ağ çay, Qara çay, Cağacuğ çay və Vəlvələ çay) üzərindəki hidrotexniki qurğulardan istifadə edilir. Bundan əlavə, Samur-Abşeron kanalından rayonumuz üzrə təsdiq edilmiş su limiti çərçivəsində 4145 hektar sahə suvarma suyu ilə təmin olunur".

İdarə rəisinin sözlərinə görə, kənd təsərrüfatı istehsalçılarına suvarma suyunun çatdırılması mexanizminin təkmilləşdirilməsi, eləcə də sualtı torpaq sahələrinin su təminatının daha da yaxşılaşdırılması məqsədi ilə bir sıra layihələr həyata keçirilir: "Belə ki, Qara çayın suyu ilə 5000 hektardan artıq torpaq sahəsini suvarmağa imkan verən yeni baş qurğu və 17 kilometr uzunluğunda nəqledici kanal tikilib istifadəyə verilib. Bu, Birinci Nügədi, İkinci Nügədi, Pirvahid, Mirzəqışlaq kəndləri ərazilərindəki bağ, əkin sahələrini suvarmağa imkan verəcək. Yeni subartezian quyularının istifadəyə verilməsi istiqamətində də işlər davam etdirilir. Artıq Alpan, Əlibəyqışlaq, Birinci Nügədi, Vəlvələ və Zizik kəndlərində bu işə başlanılıb".

Müsahibimiz vurğuladı ki, bu il rayonun kənd təsərrüfatına yararlı torpaq sahələrinin su təminatının daha da yaxşılaşdırılması məqsədilə 27,8 kilometr uzunluğundakı təsərrüfat kanallarında təmir-təmizləmə işləri üzrə kompleks tədbirlər həyata keçirilib və hazırda bu işlər davam etdirilir: "Yeri gəlmişkən, sudan daha səmərəli istifadə etmək məqsədilə yeni suvarma metodlarının da tətbiqi diqqət mərkəzindədir. Belə ki, hazırda rayonumuzda 1000 hektardan çox sahədə damcı üsulu ilə suvarma aparılır. Bu suvarma üsulunun üstünlükləri çoxdur. Bu üsul həm suya qənaətə imkan verir, həm də su itkisini minimuma endirir. Odur ki, gələcəkdə rayonumuzda damcı üsulundan daha geniş miqyasda yararlanmaq niyyətindəyik".

✍ **Qvami Məhəbbətoğlu,**
***"İki sahil"***

# "Bibi" və "Beni": Knesset uğrunda iki liderin seçki savaşı

İsraildə növbəti seçki arxada qalıb. Bu dəfə də Binyamin Netanyahunun liderlik etdiyi "Likud" partiyası qalib gəlib. Seçkidə çoxlu sayda qüvvələr iştirak edib. Ümumilikdə yarışa 40 partiya və blok qatılıb. Onlar arasında gərgin mübarizə müşahidə edilib. Əsasən indiki baş nazir B.Netanyahu (ona İsraildə "Bibi" deyirlər) ilə İsrail ordusunun keçmiş baş qərargah rəisi general Beni Hans (çoxları onu "Beni" adlandırır) arasında maraqlı mübarizə gedib. Hər iki lider eyni yerə, 35 mandata sahib olublar. Lakin B.Netanyahunu sağ təmayüllü partiyaların bloku müdafiə edir. Bu halda sağların toplam yeri 65 olur ki, bu da B.Netanyahuya hökuməti formalaşdırmağa tam imkan verir. Bu məqamları analiz edən ekspertlər İsraildə siyasi dinamikanı proqnozlaşdırmağa çalışırlar. İrəli sürülən tezislərdə ölkədə faktiki olaraq yeni siyasi mənzərənin yarandığı, bu vəziyyətin İsrailin regional və qlobal geosiyasətdəki yeri və rolu barədə müəyyən proqnozlar verməyə imkan yaratdığı vurğulanır. Həmin aspektdə İsraildəki seçkilərin nəticələrinin təhlili üzərində dayanmağa ehtiyac görürük.




### "Generallarla savaş": baş nazirin növbəti qələbəsi

İsrail Knessetinə (parlament) növbədənkənar seçki kifayət qədər gərgin mübarizə şəraitində keçib. Prosesdə 40 partiya və blok iştirak edib. Siyasi baxışlarına görə onlar cəmiyyətin müxtəlif təbəqələrini təmsil edib, ancaq ümumi səviyyədə iki düşərgəyə bölünüblər: sağlar və sollar. Sağların tərkibində də "yenilər", "ultrasağlar", "ortodokslar", "dinçilər" və digər istiqamətlər olub. Eyni qaydada sollar da müxtəlif qruplara bölünüblər. Lakin siyasi-ideoloji düşərgə kimi onların hər biri lazımi səviyyədə təmsil etdikləri siyasi qanadın mənafelərini ifadə edirlər. Ekspertlər bu seçkinin nəticələrini təhlil edərkən həmin məqamlara xüsusi diqqət yetirirlər.

Artıq bilinir ki, hazırkı baş nazir Binyamin Netanyahunun başçılıq etdiyi "Likud" partiyası (həm də sağ seçki bloku) qalib gəlib. Obrazlı olaraq "generallar qrupu" adlanan "Kahol-Lavan" ("Bəyaz-Mavi" - İsrail bayrağının rənglərinə uyğun olaraq adlandırılıb) mərkəzçi bloku da seçkidə 35 mandat qazanıb. Qalan yerləri digər sağ və sol təmayüllü partiyalar tutublar. 8 sağ partiya cəmi 30 yerə sahib olub. Deməli, yekunda B.Netanyahu düşərgəsi 65 yerə malik olur. Knessetdə ümumi yerlərin sayı 120 olduğundan bütövlükdə sağlar 65 deputat yerini qazanmış olurlar. Bu, B.Netanyahuya koalisiya hökuməti yaratmağa imkan verir.

"Qırğı" imicli "Likud" lideri koalisiyanı sağlarla yaratmalıdır. Burada klerikal mövqeli "Şas" (Tövrat Mühafizəkarlar Partiyası, əsasən sefard yəhudilərinin maraqlarını müdafiə edir) 8 mandatla, Birləşmiş Tövrat Yəhudiliyi 8 mandatla, "İhud miflaqot ha-yemin" bloku 5 mandatla, Avigdor Libermanın "İsrail - bizim evimiz" partiyası 5 mandatla və "Kulanu" ("Hamımız") 4 mandatla iştirak edə bilər. Artıq yeni hökumətin formalaşdırılması ilə bağlı danışıqlar başlayıb. Onun necə nəticələnəcəyi barədə öncədən konkret fikir bildirmək ekspertlər üçün çətin olsa da, onlar əmindirlər ki, B.Netanyahu buna nail olacaq. Sağlar da yeni hökumətdə təmsil olunmaqda maraqlıdırlar. Bunun səbəbini ekspertlər onların daha çox gələcəyə, postnetanyahu dövrünə hazırlıqlar görməsi ilə izah etməyə çalışırlar. Məsələ ondan ibarətdir ki, B.Netanyahu artıq İsraildə hakimiyyətdə ən çox qalan lider obrazına malikdir. O, bu məsələdə hətta İsrail dövlətinin qurucularından olan David Ben-Qurionu belə arxada qoyub.

Lakin, yuxarıda vurğulanan rəqəmlərdən də göründüyü kimi, bütövlükdə İsraildə daxili siyasi mənzərə elə də sadə deyil. Orada sözün həqiqi mənasında iqtidar-müxalifət qarşıdurması mövcuddur. Maraqlıdır ki, müxalifətdə hazırda ən güclü olan "Kahol-Lavan" siyasi baxışlarına görə "Likud"dan elə də fərqlənmir. Bir neçə ikincidərəcəli məsələləri çıxmaq şərtilə onların baxışları eynidir. Məsələn, şənbə gününün iş günü olub-olmaması məsələsində "Likud"la "Kahol-Lavan" arasında fikir ayrılığı var. Əvəzində, Qolan təpələri, Qüdsün paytaxt olması, fələstinlilərlə münasibətlər, Qəzza məsələsi, qanunsuz yəhudi tikililəri kimi prinsipial məsələlərdə onlar arasında fərq yoxdur.

Digər maraqlı məqam ondan ibarətdir ki, "Kahol-Lavan"ın liderləri sırasında keçmişdə orduda yüksək vəzifələr tutmuş generallar üstünlük təşkil edir. Bu blok üç partiyadan ibarətdir. Əsas hissəsini "Eş atid" ("Gələcək var") təşkil edir. Onun başçısı isə ali təhsili olmayan Yair Lapiddir. Bu partiya mərkəzçidir. Digər əsas partiya "Osma le-İsarel" ("Güclü İsrail") partiyasıdır ki, rəhbəri İsrail ordusunun baş qərargahının sabiq rəisi general Beni Hansdır. B.Hans öncədən digər general Moşe Yaalonun (o da keçmiş baş qərargah rəisidir) "Telem" ("Milli dövlət hərəkatı") partiyası ilə birləşmişdi. M.Yaalon "Likud"un üzvü olub və B.Netanyahu hökumətində müdafiə naziri postunu tutub, lakin A.Libermanın "Likud"la koalisiyaya daxil olmasını bildikdən sonra oradan uzaqlaşıb.

"Kahol-Lavan"da başqa bir general Qabi Aşkenazidir. Bu blokun maraqlı cəhətlərindən biri də tərkibində sollar, mərkəzçilər və sağ mərkəzçilərin olmasıdır. Onların sırasında B.Netanyahu hökumətində çalışanlar az deyil. Bu faktor onu göstərir ki, müxalifət cəmiyyətin müxtəlif təbəqələrini birləşdirən ideoloji istiqamətə üstünlük verir. Lakin orada aparıcı rolu sağlar oynayır. Buradan B.Hansın nəyə görə məhz Fransanın prezidenti Emmanuel Makronla seçki öncəsi görüşməsi aydın olur. İsrailli general Avropaya nümayiş etdirir ki, cəmiyyətin bütün kəsimlərini sağ təmayüllü və populist çalarlı siyasi blokda birləşdirə bilər. E.Makron da Fransada məhz həmin kursun tərəfdarıdır. Deməli, B.Hans görüşün seçkiyə mənfi təsir edəcəyini bilə-bilə strateji məqsəd xatirinə bu addımı atıb. Təbii ki, bu, İsraillə avropamərkəzçilər arasında gələcəkdə daha sıx siyasi birlik nümayiş etdirməyə imkan verə bilər. Deməli, "Beni" general kimi strateji addım atıb.

### Elektorat və geosiyasi şərtlər: İsrail üçün düşündürücü mənzərə

Vurğulanan özəllik prizmasından "Beni"nin (Beni Hans) iri şəhərlərdə "Bibi"ni (Binyamin Netanyahu) böyük fərqlə arxada qoyması maraq kəsb edir. "Kahol-Lavan" Hayfa və Təl-Əviv kimi şəhərlərdə böyük fərqlə üstünlük qazanıb. "Likud" Qüdsdə və fələstinlilərin raketlə vurduqları şəhərlərdə (Sderot, Beer-Şeva) qalib gəlib. Əyalətlərdə üstünlük "Likud"da olub. Elektoratın bu cür bölgüsü İsrailin gələcək siyasi mühitində mümkün dəyişikliklərdən xəbər verir. Bir sıra ekspertlər hesab edirlər ki, İsrail cəmiyyəti faktiki olaraq iki düşərgəyə bölünüb (bax: məs., Израиль раскололся пополам / "Rosbalt", 10 aprel 2019).

Yuxarıda vurğulanan məqamlar onu göstərir ki, yeni hökumət daxilində rəqabət daha da kəskinləşək. "Kahol-Lavan" növbəti seçkidə üstünlük əldə etmək üçün addımlar ata bilər. Bütün hallarda B.Netanyahu üçün əlverişli siyasi situasiya formalaşır. O, qanunsuz yəhudi məskunlaşmasını qanuniləşdirə bilər. Ekspertlər bunun üçün Donald Trampın yardım edəcəyini təxmin edirlər. Qolan təpələri kimi, həmin ərazinin də İsrailin olmasını Vaşinqton tanıya bilər. Bu isə B.Netanyahuya növbəti siyasi dividend gətirə bilər. Lakin ekspertlər regional və qlobal geosiyasətlə əlaqəli başqa məqamlara da diqqət yönəldirlər.

İsrailli ekspertlər hesab edirlər ki, ABŞ-ın dəstəyinə baxmayaraq, fələstinlilərin işğal edilmiş ərazilərinin İsrail torpaqları kimi tanınması ciddi etirazlara səbəb ola bilər. Hətta Vaşinqtonun ərəb müttəfiqləri belə üz döndərərlər. Məsələn, Misir, İordaniya, Səudiyyə Ərəbistanı. Rusiya və Avropa ölkələri də təbii ki, etiraz edəcəklər. Çinin laqeyd qalmayacağını təxmin etmək olar. Bununla da məsələ BMT Təhlükəsizlik Şurasına çıxa və arzu olunmayan neqativ geosiyasi nəticələr verə bilər (bax: məs., Региональные и международные последствия выборов в Израиле / Valdaiclub.com, 11 aprel 2019).

İran istiqamətində də vəziyyət aydın deyil. Hətta ekspertlər sırasında Qolan yüksəklikləri ilə bağlı Vaşinqtonun qərarının İran və Suriyanın lehinə olduğunu düşünənlər də vardır. Bu, region dövlətlərinə Amerika və İsrailin müsəlmanların düşməni olduğunu daha həvəslə sübut etməyə şans verir. Bu səbəbdən yeni hökumətin həmin istiqamətdəki fəaliyyətinin sonucu barədə qəti söz demək çətindir. Konkret deyilərsə, B.Netanyahu ciddi zərbə ala bilər. Həmin halda Rusiyanın onu müdafiə edəcəyinə inanmırlar. Doğrudur, Vladimir Putin B.Netanyahunun yenidən İsrail hökumətinə başçılıq etməsinə etiraz etməyib. Lakin Moskvanın regionda öz maraqları var və konkret Qolan təpələri məsələsində Kreml Suriyanı müdafiə edir.

Beləliklə, 21-ci çağırış Knesset seçkiləri həm İsrail dövlətinin daxili siyasi mühiti, həm də regional geosiyasətin dinamikası baxımından maraqlı mənzərə ortaya qoyur. Güman etmək olar ki, bu ölkədə siyasi proseslərin məntiqi dəyişə, siyasi qüvvələr arasında mübarizə daha da gərginləşə bilər. Ancaq hər bir halda İsrail Fələstin məsələsində hələ vahid siyasi mövqe nümayiş etdirəcək. Hakimiyyətdə olan hər bir siyasi qüvvə bu məsələdə eyni mövqedədir.

Lakin geosiyasi müstəvidə hansı proseslərin gedəcəyini indidən proqnozlaşdırmaq mümkün deyil. Yaxın Şərqdə İsrailin xeyrinə olmayan geosiyasi mənzərə meydana gələ bilər. Bu ssenaridə B.Netanyahu hökumətinin nə dərəcədə çevik olduğu aydınlaşacaq. Gözləmək lazımdır.

**Newtimes.az**

## SOCAR-ın TENDERLƏRİ



Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)

### “Qaz İxrac” İdarəsi

**Yağlara olan tələbatı təmin etmək məqsədilə açıq satınalma müsabiqəsi (22007-19) elan edir.**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***

* Müsabiqədə iştirak haqqında müraciət;
* İştirak haqqının ödənilməsi barədə bank sənədi;
* Müsabiqə təklifi (müsabiqə təklifləri zərflərinin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır).

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 10.05.2019-cu il, Bakı vaxtı ilə saat 17:30-a qədər Azərbaycan və ya ingilis dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Müsabiqə təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:***

* Müsabiqə təklifi bir əsli və iki surəti olmaqla 17.05.2019-cu il, Bakı vaxtı ilə saat 11.00-a qədər Satınalan təşkilata təqdim olunmalıdır.
* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.

***III. İştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***

* Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan və ingilis dilində əldə etmək istəyənlər 236 manat (ƏDV ilə birlikdə) və ya ekvivalent məbləğdə sərbəst dönərli valyuta ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I qrafasında göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 09:30-dan 17:30-a kimi ala bilərlər.

Hesab nömrəsi:
Azərbaycan Beynəlxalq Bankı ASC,
AZ38IBAZ38010019449306332120,
VÖEN: 9900003871,
Müştəri Xidməti Departamenti,
Kod: 805250,
Müxbir hesab: AZ03NABZ01350100000000002944,
VÖEN: 9900001881,
SWIFT BIK: İBAZAZ2X

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

***IV. Müqavilənin icra müddəti:***

* Satınalma müqaviləsinin 30 gün yerinə yetirilməsi tələb olunur.

***V. Bank təminatı:***

Qeyd: Bank təminatı müsabiqə təklifinin ümumi qiyməti 200 000 Azn-dən yuxarı olduqda tələb olunur. İddiaçının təqdim etməli olduğu müsabiqə təklifi 200 000 Azn-dən yuxarı olarsa, bank təminatı müsabiqə təklifi üzrə ümumi qiymətin 5 (beş) % -dək məbləğindən aşağı olmamalıdır.

Avans ödənişin təminatının məbləği ən azı ödəniləcək avans məbləğinə bərabər olmalıdır.

Müqavilənin yerinə yetirilməsi təminatı satınalma müqaviləsinin qiymətinin 10 (on) % məbləğində müəyyənləşdirilir.

***VI. Satınalan təşkilatın ünvanı:***

AZ1025; Bakı şəhəri; Xətai rayonu; Rövşən Əliyev, 19.

**Əlaqələndirici şəxs:**

Vüqar İbrahimov (soyadı və adı).
Satınalmaların təşkili şöbəsinin mühəndisi (struktur bölmənin və vəzifənin adı)
+ (994)012 521 07 00 (22106) (əlaqələndirici şəxsin korporativ telefon nömrəsi)
Mob: +(994)50 842 21 06
vuqar.ibrahimov@socar.az (əlaqələndirici şəxsin korporativ elektron ünvanı)

***VII. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***

www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices)

***VIII. Müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***

Zərflərin açılışı 17.05.2019-cu il tarixdə, Bakı vaxtı ilə saat 11:00-da elanın V qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***IX. Müsabiqənin nəticəsi haqqında məlumat:***

Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə ediləbiləcək:
http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**“Qaz İxrac” İdarəsinin Satınalmalar qrupu**

# Ermənistanı bürüyən xof



**Sirr deyil ki, Azərbaycanın Belarusla yüksək səviyyəli strateji-hərbi əməkdaşlığı işğalçı Ermənistanı xüsusilə narahat edən məsələlərdəndir.**

Erməni mediasında Azərbaycanın Belarusdan R-934U “Sinitsa” stansiyasını əldə edəcəyi ilə bağlı məlumatlar yayıldıqdan sonra işğalçı ölkədə növbəti vəlvələ qopub. İşğalçı Ermənistanın bir çox xəbər portalları Azərbaycanın “ordu.az” saytına istinadən yeni REM stansiyasının ilin sonuna qədər Azərbaycan Ordusunun silahlanmasına qəbul ediləcəyi ilə bağlı xəbəri qorxu içində də şərh ediblər. Təcavüzkar ölkənin “tert”, “lragir” kimi saytlarında üzdəniraq erməni müəlliflər böyük hiddətlə Azərbaycan-Belarus münasibətlərinin ən yüksək səviyyəyə çatmasını heç cür qəbul edə bilmədikləri ilə bağlı aqressiv mövqelərini bir daha ortaya qoyublar: “Azərbaycanın Belarusla hərbi sənaye sahəsindəki çoxillik əməkdaşlığından hamımız xəbərdarıq. Uzun illərdir ki, Azərbaycan mütəmadi olaraq Belarusdan müasir silahlar tədarük edir. Bu yaxınlarda tanınmış belaruslu hərbi ekspert Aleksandr Tixanskinin müsahibəsi Ermənistana bir daha xatırlatdı ki, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının üzvü olan Belarus həmişə Azərbaycanı dəstəkləyir, Ermənistan isə ümumiyyətlə, heç kimin maraq dairəsinə daxil deyil. Bu fakt həm də mümkün müharibə ehtimalında Belarusun məhz Azərbaycanın yanında yer alacağına tutarlı sübutdur”.



Erməni “ekspert” daha sonra Azərbaycanın Belarusdan tədarük edəcəyi gözlənilən R-934U “Sinitsa” stansiyası ilə bağlı təfsilatı ilə məlumat verərək Azərbaycan Ordusunun müasir silahlarla silahlanmasından duyduğu xofu da gizlədə bilməyib: “Rusiyanın Vladimir şəhərində yerləşən “Radiorabita Konstruktor Bürosu” tərəfindən istehsal edilən R-934 kompleksinin əsas təyinatı düşmən hərbi təyyarələrinə qarşı həm amplitudaya, həm də tezliyə görə modullaşdırılan keçilməz maneələrin yaradılmasından ibarətdir. Tam fəaliyyət göstərən əməliyyat sistemi, düşmən təyyarələri arasında radiolaqəni tamamilə poza bilir, kəşfiyyat təyyarələrindən məlumat ötürülməsini məhdudlaşdırır və ya raket daşıyıcılarının hədəfə tuşlanması imkanlarının qarşısını alır. Bu texnika nümunələri radiosiqnalların şüalanma mənbələrinin işini aşkarlayaraq, onların həm yerdə, həm də havadakı koordinatlarını peleng vasitəsilə müəyyən edə bilir. Stansiyaların avadanlıqları analoq və rəqəmsal siqnalların növlərini tanıyır və verilən radiotezliklərdə effektiv radioelektron müdaxilə mühiti yaradır. “Sinitsa” fəaliyyət radiusu əhatəsində mövcud olan hər bir dalğanı və tezliyi boğmağa qadir stansiyadır. Stansiyanın əsas təyinatı, qısaca olaraq aviasiya üçün maneə yaratmaqdan ibarətdir. Bunlara həm siqnal amplitudasında, həm də tezlikdə modulyasiya olunan səs-küy, impuls, hədəf və dezinformasiya maneələri aiddir. Beləliklə, Azərbaycan bu cür güclü və müasir avadanlıq tədarük etməklə, müharibə olacağı təqdirdə Ermənistanın hava qüvvələrindən gələcək istənilən təhlükəni bilməyə və dəf etməyə qadir bir müdafiə sisteminə malik olacaq. Bu isə ordusu və iqtisadiyyatı çökmüş, başı hələ də daxili siyasi çəkişmələrdən ayılmayan Ermənistan üçün böyük qorxu mənbəyidir. Deməli, əgər Azərbaycan bu avadanlığı alsa, düşmənin zərbə və ya qırıcı aviasiyasının hədəfə tuşlanmasını tamamilə əngəlləməyə qadir olacaq. “Sinitsa” kompleksində heç nə səbəbsiz sıradan çıxa bilməz, stansiya hətta qar, yağış, şaxta, qumlu külək və digər ekstremal hava şəraitində də etibarlılığını qoruyur”.

“Azərbaycan getdikcə silahlanır, öz ordusunun hərbi potensialını ən müasir komplekslərlə zənginləşdirir. Bu kimi stansiyaları əldə etməsi Azərbaycan Silahlı Qüvvələrinin radiotexniki kəşfiyyat və radioelektron mübarizə potensialını artıran mühüm amillərdəndir. Azərbaycan Qarabağı azad etmək üçün müharibəyə başlasa, bu cür avadanlıqlarla döyüşlərə start versə, Ermənistanı kim, yaxud nə qoruyacaq?”, -deyə erməni “analitik” yazısında təşvişini gizlədə bilmir.

Yazıda müəllif Belarusun Azərbaycanla strateji münasibətlərini pisləməklə qalmayıb, eyni zamanda, Ermənistanın hazırda öz xarici siyasətinin ən uğursuz bir dövrünü yaşadığını da etiraf etməli olub.

Azərbaycanın son illər ərzində xarici siyasətdəki uğurları, dünyanın bir çox ölkələri ilə, o cümlədən də Belarusla bütün sferalarda olduğu kimi, hərbi sahədə də əlaqələrinin yüksələn xətlə inkişaf etməsi, Belarusun rəsmi Bakıya son dərəcə böyük rəğbət bəsləməsi erməni cəmiyyətində qıcıq və narahatlıq doğurur. Hazırda Ermənistanın yeni rəhbərliyi işğalçılıq siyasətindən əl çəkib ölkəni bərbad durumdan qurtarmaqdansa, öz cinayətkar sələflərinin “yol(suzluğu)unu” daha aqressiv şəkildə davam etdirməyə üstünlük verir. Ermənistan sonu uçuruma aparan bu işğalçılıq yoluna davam etməyə israr etdikcə, hələ uzun müddət sadəcə kənardan Azərbaycanın bütün sahələrdəki uğurlarını izləməyə məhkumdur. İşğalçı ölkə bir gün uçurumun lap kənarında olduğunun fərqinə varanda isə çox gec olacaq...

**Sevinc Abdullayeva,**
***“İki sahil”***

iki sahil
VAHİD AZƏRBAYCAN UĞRUNDA!
Son səhifə
www.ikisahil.az / www.ikisahil.tv
24
GÜNDƏLİK İCTİMAİ-SİYASİ QƏZET
№ 69 (7324) / Cümə axşamı, 18 aprel 2019-cu il

# Övlada hansı genetik xüsusiyyətlər ötürülür?



**Əgər uşaq ataya oxşayırsa, bu o deməkdir ki, uşağın intellektual və fizioloji keyfiyyətləri ataya oxşayacaq. Genetika maraqlı üsul ilə ananın və atanın əlamətlərini özündə toplayır. Lakin alimlər hansı genetik xüsusiyyətlərin atadan, hansının anadan gəldiyini az da olsa müəyyən etməyi bacarıblar.**

Əksər hallarda atadan uşağa əsasən boy faktoru ötürülür. Boyu 187 olan atanın övladının boyu daha da hündür ola bilər. Əgər ana və atanın boyu təxminən eynidirsə, uşağın da boyu təxminən eyni ölçülərdə olacaq. Nadir hallarda nəsildə alçaq və ya hündürboy qohumların genetikası uşağa ötürülə bilər.

### Zehni qabiliyyəti

İntellektə cavab verən genetika məhz X xromosomunda yerləşir. Buna görə də alimlər müəyyən ediblər ki, oğul övladına intellektual qabiliyyət anadan ötürülür. Qız övladlarının IQ səviyyəsi hər iki valideyndən ötürülür.

İntellektual qabiliyyətin 45%-i irsən ötürülür, yerdə qalan hissəsi uşağa aşılanan tərbiyə üsulundan, təcrübə və özünü inkişaf etdirməkdən asılı olur.

### Psixoloji xəstəliklər

Ata hansı psixoloji xəstəlikdən əziyyət çəkirsə, məhz həmin xəstəlik də övlada ötürülə bilər. Əgər bir ata depressiyadan əziyyət çəkirsə, bu narahatçılıq gələcəkdə uşağa da ötürülə bilər. Bundan başqa, sonsuzluqdan əziyyət çəkən atanın övladı da bundan əziyyət çəkə bilər.

### Piylənməyə meyillilik

Bu meyillilik həm atadan, həm də anadan ötürülə bilər. Təəssüflər olsun ki, düzgün bədən formasına malik olmağa meyillilik səviyyəsi köklüyə olan meyillilik səviyyəsindən qat-qat aşağıdır. Lakin yeni doğulmuş körpənin çəkisinə məhz ana təsir edir. Əgər ana artıq çəkidən əziyyət çəkirsə, deməli, uşaqda da "ehtiyat" toplana bilər. Lakin bu, körpənin ürək-damar sisteminə neqativ təsir göstərə bilər.

### Dişlərin əyriliyi

Uşağın diş forması məhz elə atadan ötürülür.

### Yuxu xüsusiyyəti

Uşağın yuxu keyfiyyəti anadan ötürülür. Anaların onlara hamilə olarkən rahat pozada yatması melatonin istehsalına böyük və ya kiçik mənada təsir edir. Melatonin - yuxu hormonudur. Bu hormon maddələr mübadiləsinin yaxşılaşmasına təsir edir, vaxtından tez qocalmanın və orqanizmdə piy deposunun toplanmasının qarşısını alır.

✍ **Könül Cavid, *"İki sahil"***

*Mobil telefonlar:*

# həyatımızın ayrılmaz parçası



Müasir insanı mobil telefonsuz təsəvvür etmək çətindir. Bu kiçik əşya bizim varlığımızı və həyat ritmimizi tamamilə dəyişib. İnsanların çoxu təsəvvür belə edə bilmir ki, düşünülən işləri telefonsuz necə etmək olar. Ölkələr nə qədər çox inkişaf edibsə, oranın əhalisinin mobil telefondan asılılığı da o qədər artır. Əlbəttə dünyada elə ölkələr də vardır ki, onların sakinləri telefonun nə olduğundan ümumiyyətlə, xəbərsizdir.

**Aşağıda mobil telefon istifadəsi ilə bağlı maraqlı faktlarla tanış ola bilərsiniz:**

1. Bir müddət əvvəl Şimali Koreyada mobil əlaqə qadağan idi. Telefondan istifadəyə qanunla qadağa qoyulmuşdu. Qadağa təkcə yerli əhaliyə deyil, turistlərə də tətbiq olunurdu. Mobil telefonla tutulan insana hətta ondan istifadə etməsə belə həbs cəzası verilirdi.

2. Ümumi statistik göstəricilərə görə, bütün dünya üzrə hazırda 3,3 milyard işlək mobil telefon var. İl ərzində 125 milyon telefon cihazı zibilliyə atılır. Dünyada mobil telefon istifadəsinə görə lider koreyalı yeniyetmələr və tələbələrdir. Tədqiqatlara görə, onlar gün ərzində 100 mesaj göndərə bilərlər, lakin bununla yanaşı təhsil səviyyəsi də orada güclüdür. Telefonların sayına görə isə Hindistan birinci yerdədir. Hindistanda hər beş şagirddən birinin telefonu var. Bunun əksi Afrikada müşahidə olunur, belə ki orada mobil telefonun yalnız böyüklər üçün olduğunu düşünürlər.

3. Mobil telefonla ilk zəngi 1973-cü ildə gənc alim Martin Kuper etmişdi. Həmin vaxt o "Motorola" şirkətində çalışırdı. Telefonda mesaj üçün 160 simvolun yaradılması fikri isə ilk dəfə alman mühəndisi Fridhelm Hillbrauntun ağlına gəlib. O düşünüb ki, bu qədər simvol fikri insanlara çatdırmaq üçün kifayət edir. Bu məsələ ilə bağlı tədqiqatlar və araşdırmaların nəticəsi mühəndisin fikrini təsdiq etdikdən sonra 160 işarə standart olaraq qəbul olundu.

4. Səsvermədə mobil cihazlardan istifadəyə görə nə qədər təəccüblü olsa da Estoniya liderdir. Bu ölkənin səsvermə hüququ olan istənilən sakini məntəqəyə gəlmədən mobil vasitə ilə səsini seçdiyi namizədə verə bilər. Bülleten, blank və s. doldurmağa ehtiyac olmur. Estoniyadan sonra digər dövlətlər də bu üsula maraq göstərməyə başlayıblar.

5. Yaponiyada telefondan müxtəlif məqsədlər üçün geniş istifadə edilir. İnsanların 50%-dən çoxu fanar kimi istifadə edir. Bəziləri real hadisələri telefona qeydə alaraq roman yazır. Belə romanlar orada çox məşhurdur. Yapon analitiklər yaxın gələcəkdə elektron kitabların kağız kitabları üstələyəcəyini düşünür.

6. Rusiyada sorğu zamanı bəlli olub ki, 35 yaşdan aşağı insanların 75 %-i səhər evdən çıxan kimi mütləq ciblərində telefonun olub-olmadığını yoxlayırlar. İnsanların 90%-i son pullarını belə mobil balansı artırmağa xərcləyirlər. İnsanların 50%-i isə mobil telefon vasitəsilə şəkil, video çəkməklə pul qazandıqlarını bildiriblər.

✍ **Nubar Süleymanova, *"İki sahil"***



# "Bakcell"dən növbəti dəstək

"Bakcell" 7-12 aprel 2019-cu il tarixlərində Bakı şəhərində keçirilmiş uşaqlar arasında 18-ci Beynəlxalq şahmat turnirinə dəstək göstərib.

Frankofoniya günlərinə həsr edilmiş bu ənənəvi turnir "Gənclik" Şahmat Klubu və Fransanın Azərbaycandakı səfirliyi tərəfindən Azərbaycan Şahmat Federasiyasının təşkilati dəstəyi ilə keçirilib. İsveçrə sistemi üzrə keçirilmiş turnirdə Azərbaycan, Fransa, Böyük Britaniya, Gürcüstan, Rusiya, Ukrayna, Almaniya, Serbiya və Qazaxıstandan 80-dən çox gənc şahmatçı iştirak edib.

Turnirin nəticələrinə əsasən, "A" qrupunun qalibi Azərbaycandan Altay Eynullayev olub. O, Fransada keçiriləcək turnirdə iştirak etmək hüququ qazanıb. "B" qrupunda isə ukraynalı Mariya Timchenko ən yüksək nəticə göstərib.

# "Barselona" Koutinyonun qiymətini açıqladı

"Barselona"nın prezidenti Xosep Mariya Bortomeu Filipe Koutinyonun komandadan ayrılacağı haqda yayılan xəbərlərə münasibət bildirib.

Milli.Az qol.az-a istinadən xəbər verir ki, o, 26 yaşlı hücumçunun hələlik komandada qalacağını deyib: "Koutinyonun müqaviləsi davam edir. Yalnız 400 milyon avroluq sərbəst qalma məbləği ödənilərsə, Koutinyonu buraxa bilərik".

Qeyd edək ki, braziliyalı oyunçu Kataloniya klubuna ötən il "Liverpul"dan 150 milyon avro qarşılığında transfer olunub.




## ALLAH RƏHMƏT ELƏSİN!

SOCAR-ın "Azəriqaz" İB-nin rəhbərliyi, Həmkarlar İttifaqı Komitəsi və əmək kollektivi Birliyin Şikayətlərin araşdırılması şöbəsinin rəisi
**Faiq Zeynalovun**
vəfatından kədərləndiklərini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verirlər.

SOCAR-ın "Azneft" İB-nin "Abşeronneft" NQÇİ-nin rəhbərliyi, Həmkarlar İttifaqı Komitəsi və əmək kollektivi "Abşeronneft" NQÇİ-nin müxbiri Zahir Mehrəliyevə, anası
**Teliş xanımın**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Təsisçi: SOCAR

Baş redaktor: Vüqar RƏHİMZADƏ
Baş redaktorun I müavini: İsmayıl HACIYEV

Bakı: Kapital Bankın 1 saylı Xətai filialı H/hesab
№AZ19AIIB380300194437 00306107
Kod № 200071
VÖEN: 2000157291

TELEFONLAR:
Qəbul otağı: 530-26-46, 430-87-97
Baş redaktorun I müavini: 530-26-36
FAX: 430-87-47
Mühasibatlıq: 430-87-27
e-mail: ikisahil@azdata.net

Ünvan: AZ1012 Bakı, H.Zərdabi prospekti-88

Qəzet "İKİ SAHİL"in kompyuter mərkəzində yığılır və "AZƏRBAYCAN" nəşriyyatında ofset üsulu ilə çap olunur.
Çapa imzalanıb: 17.04.2019-cu il saat 01:00
Qiyməti: 40 qəpik, Sayı: 8213
İndeks: 0151, Sifariş: 1277

Qəzetdə "AZƏRTAC", "OLAYLAR", "Azadİnform", "TREND", SİA, İnterFAX informasiya agentliklərinin məlumatlarından istifadə olunub.

Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.